Bu bir xalq qəzetidi
ƏDALƏT

## Bu jurnalistlərə güzəştli ipoteka veriləcək



**Azərbaycanda jurnalistlər güzəştli ipoteka krediti əldə edə biləcəklər.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında Prezidentin Fərmanında qeyd edilir.

Fərmana əsasən, gənc ailənin üzvü olan, azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malikdir. Bundan əlavə, gənc ailənin üzvü olmayan ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər də bu imkandan yararlana biləcəklər.



**Dünya şöhrətli alim, texnika elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Rafiq Əliyevin 80 illik yubileyidir. Bu münasibətlə "Ədalət" qəzetinin kollektivi yubilyarı təbrik edir, uzun ömür, can sağlığı arzu edir.**

## Media Reyestri 6 ay müddətində yaradılacaq




**Media Reyestri 6 ay müddətində yaradılacaq. Adalet.az-ın məlumatına görə, bu, Prezident İlham Əliyevin tətbiqi barədə fərman imzaladığı "Media haqqında" qanunda əksini tapıb.**

Fərmana əsasən, Medianın İnkişafı Agentliyi Media Reyestrinin yaradılmasını altı ay müddətində təmin etməli və həmin bazanın Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə zəruri tədbirlər görməlidir.

## Azərbaycan və Rusiya dəmir yolları arasında bir sıra mühüm məsələlər müzakirə olunub



**Azərbaycan və Rusiya dəmir yolları arasında bir sıra mühüm məsələlər müzakirə olunub**

"Azərbaycan Dəmir Yolları" QSC-də "Rusiya Dəmir Yolları" ASC-nin baş direktorunun birinci müavini Sergey Pavlovla görüş keçirilib.

Adalet.az xəbər verir ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov işğaldan azad olunan ərazilərdə aparılan genişmiqyaslı quruculuq işlərindən danışıb, çəkilən yeni dəmir yolu xətləri haqqında ətraflı məlumat verib. Cəmiyyət sədri nəqliyyat və logistika sahəsində əməkdaşlıq, xüsusilə ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinin fəaliyyətinin genişləndirilməsinə yeni imkanlar açıldığını vurğulayıb.

Görüşdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində Bakı-Dərbənd dəmir yolu xəttinin elektrikləşdirilməsi, Bakı-Yalama xəttinin sabit cərəyandan dəyişən cərəyana keçirilməsi üzrə işlərin maliyyələşdirilməsi və bu xətdə işlərin tamamlanma müddətləri ilə bağlı müzakirələr olub. Bu istiqamətdə Rusiya və Azərbaycan tərəflərində işlərin sinxronlaşdırılması, habelə işlərin cari gedişi, qəbul edilən texnoloji həllər barədə qarşılıqlı məlumatlandırılma qaydalarına baxılıb.

"Rusiya Dəmir Yolları" ASC-nin baş direktorunun birinci müavini Sergey Pavlov Azərbaycan Dəmir Yollarında görülən işləri yüksək qiymətləndirdiyini diqqətə çatdırıb. O, yükdaşıma sahəsində əməkdaşlığın daha da genişləndiriləcəyini, yeni yüklərin cəlb olunması ilə bağlı imkanların bundan sonra da artırılacağını qeyd edib.

## Putin "NATO"nu parçaladı



**Artıq NATO ölkələri Putinin qəbuluna düşmək üçün növbəyə yazılıblar. Almaniya NATO-nu demək olar ki, priznavat eləmir. Macarıstan prezidenti NATO-ya yox dedi. Xorvatiya da NATO-ya boyun əymədi, daha doğrusu ABŞ-a. Fransa prezidenti də Zelenskiyə "döz" dedi. Bir sözlə, Putin NATO-ya başa saldı ki, boş çanağımı sənin dolu çanağına elə vuraram ki, içindəkilər dağılar, mənim çanağım onsuz da boşdur.**

## Makronun çönüb getməyə duxu çatmadı




*Rusiya prezidenti Putin ermənilərin qardaşı, Fransa prezidenti Makronla əllə görüşmədi, onu əli cibində qarşıladı, söhbət edəndə də beş-altı metrlik məsafə saxladı. Mətbuat konfransı bitəndə də zalı birinci tərk elədi, Makrona da əli ilə işarə etdi ki, gəl dalımca.*

*Yadıma Şamil Basayevlə Yeltsinin görüşü düşdü. Yeltsin stolun başında oturmaq istəyirdi. Nə qədər etsə də, Basayev razılaşmadı, dedi ki, üzbəüz otur. Axırda Yeltsin məcbur olub üzbəüz oturdu.*

*Makronda Basayev cəsarəti çatmadı.*

*Amma Putin Qazaxıstanın prezidenti Tokayevlə əllə görüşdü, bağrına basdı, sonra da ocağın qarşısında oturub üç saat yarım dərdləşdi.*


Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 6 (5943) 12 fevral 2022-ci il | Qiyməti 30 qəpik


## Ramiz Mehdiyev ağır artileriyanı işə saldı



**Akademik Ramiz Mehdiyev onun əleyhinə yazılanlara akademiyanın saytında cavab verdi, daha dəqiq desək, "Qrad" qurğusundan raket zərbələrilə cavab verdi. İndi görək qarşı tərəf raket atəşinə nə ilə cavab verir?!**

Biabırçılıqdı e, elm qalıb bir tərəfdə, alimlər "tuff, vurdum, yıxıl" oynayırlar. Görək axırda kimlər "sağ" qalacaq?!

# Azərbaycan Prezidentindən investorlara çağırış



**"Biz Azərbaycanda elektrik enerjisini istehsal etmək üçün hazırda ancaq təmiz enerji növlərindən istifadə edirik, mazutdan istifadə etmirik, kömürdən istifadə etmirik. Halbuki bir çox ölkələr bu məhsullardan istifadə edirlər. Biz təbii qazdan, sudan, günəşdən, küləkdən istifadə edirik. Bunu nəzərə alaraq gələcəkdə ətraf mühiti qorumaq üçün biz mütləq bərpaolunan enerji növlərini yaratmalıyıq".**

**Bu fikirləri Prezident İlham Əliyev AZƏRTAC-a müsahibəsində bərpaolunan enerji növlərinin inkişafı istiqamətində həyata keçirilən işlərdən danışarkən söyləyib.**

**Dövlətimizin başçısı bildirib ki, bu gün bərpaolunan enerji növlərinin tam işə salınması istiqamətində çox ciddi iş gedir və bu işin nəticələrini görürük.**

**Xarici firmalar, böyük şirkətlər bu sahəyə investisiya qoyurlar. Azərbaycan Prezidenti "ACWA Power" şirkətinin ölkəmizdə 240 meqavatlıq külək elektrik stansiyasının tikintisin başladığını, BP və Birləşmiş Ərəb Əmirliklərinin Mazdar şirkətləri ilə günəş elektrik stansiyalarının inşasına dair danışıqlar aparıldığını diqqətə çatdırıb.**

**Azad edilmiş torpaqlarda su, günəş və külək enerjisi baxımından böyük potensial olduğunu bildirən Prezident İlham Əliyev yerli və xarici investorları bu sahəyə sərmayə qoymağa dəvət edib. Qeyd olunub ki, Kəlbəcər-Laçın zonasında və azad olunmuş digər torpaqlarda 9 min meqavatdan çox təsdiqlənmiş enerji potensialı var. "Bizim ən böyük potensialımız Xəzər dənizindədir və təsadüfi deyil ki, hazırda dünyanın aparıcı enerji şirkətləri Xəzər dənizinə çox böyük diqqət yetirirlər, bizə artıq təkliflər gəlməyə başlamışdır.**

**Xəzər dənizinin bərpa olunan enerji istehsalı ilə bağlı potensialı 150 min meqavatdan çoxdur. Ona görə bütün bu işləri biz düzgün planlaşdırmalıyıq", - deyə dövlətimizin başçısı vurğulayıb.**

## "Tərtər işi" ilə bağlı 4 nəfər saxlanılıb

**Baş Prokurorluq "Tərtər işi" ilə bağlı növbəti məlumat yayıb. Baş Prokurorluqdan Adalet.az-a verilən məlumata görə, cinayət işinin istintaqı zamanı ayrı-ayrı hərbi qulluqçulara işgəncə verməsi, onları qanunsuz azadlıqdan məhrum etməsi və vəzifə səlahiyyətlərini aşması müəyyən edilən Ələsgərov Vüsal Əziz oğlu, Ələsgərov Rüstəm Çərkəz oğlu, Qarayev Ramil Fariz oğlu Cinayət Məcəlləsinin 145.3 (qanunsuz azadlıqdan məhrum etmə), 293.2 (işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza), 341.2.2 (vəzifə səlahiyyətlərini aşma) və 341.2.3-cü maddələri, Axundov Fuad Arazi oğlu CM-nin 127.2.2 (qəsdən sağlamlığa az ağır zərər vurma), 145.3, 293.3, 341.2.2 və 341.2.3 maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.**

İstintaqın gedişatı barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir. "Bununla yanaşı, kütləvi informasiya vasitələrinin nümayəndələrinin, sosial media platformaları istifadəçilərinin, eləcə də cinayət prosesi iştirakçılarının diqqətinə bir daha çatdırılır ki, ibtidai araşdırma məlumatlarının müvafiq icazə olmadan yayılması yolverilməz olmaqla cinayət qanunvericiliyinə əsasən məsuliyyət yaradır, habelə istintaqa təsir göstərmək, cəmiyyətdə qəsdən yanlış fikir formalaşdırmaq, qalib Azərbaycan Ordusunun nüfuzuna, dövlət orqanlarının fəaliyyətinə kölgə salmaq məqsədilə qərəzli surətdə təhrif olunmuş məlumatlar yayan şəxslər barəsində qanunvericiliyə uyğun tədbirlər görüləcəkdir", -deyə məlumatda qeyd olunub.

## MN: "Azərbaycan Ordusunun sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərdə atəş açması yalandır"

**Azərbaycan Müdafiə Nazirliyi ermənilərin yaydığı iddiaya cavab verib.**

Adalet.az-ın məlumatına əsasən, nazirliyin açıqlamasında bildirilir:

Erməni sosial şəbəkələrində guya Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində Ordumuzun bölmələri tərəfindən mülki yaşayış evinin atəşə tutulması barədə yayılan məlumat yalandır, təxribat xarakteri daşıyır.

## Sevindirici xəbər: Xəzər-Lənkəran qayıdır...



**Azərbaycan futbol çempionatına rəng qatan Xəzər-Lənkəran yenidən futbol arenasına çıxır. "Xan Lənkəran" adı ilə region liqasında çıxış edən klubun prezidenti Pərviz Hüseynov Mübariz Mənsimovla görüşüb. Mübariz bəy də vaxtilə dediyi "eşşək otaracam" stadion və onun bazasını Xan Lənkərana bağışlayıb. Bundan başqa Xəzər-Lənkəran adına "Xan Lənkəran" adını hədiyyə edib.**

Cənublu qardaşlarımıza, eləcə də Azərbaycan futbol ictimaiyyətinə bundan gözəl xəbər ola bilməz.

Var olun, Mübariuz Mənsimov!

Tanrı səni qorusun!

Gün o gün olsun, Masallının "Viləş" komandası da Azərbaycan çempionatında iştirak eləsin.

**Mehman CAVADOĞLU**



## Ukrayna labirinti: vasitəçilər çoxaldıqca çıxış daralır

***Rusiya-Ukrayna münasibətlərindəki gərginlik, daha doğrusu, Rusiyanın Ukraynaya ehtimal olunan əsgəri müdaxiləsi ətrafında baş verən hərbi, siyasi və diplomatik vurnuxmalar artıq bir neçə aydır ki, beynəlxalq gündəmin prioritet mövzusu olaraq qalmaqdadır. Təhlükəli məcrada cərəyan edən hadisələr öz dramatizmiylə bəzən faşist Almaniyasının Sudet vilayəti ətrafında durquzduğu hoqqaları da üstələyir. Xatırladaq ki, faktiki olaraq ikinci dünya müharibəsinin proloqu sayılan Sudet böhranında İngiltərə və Fransanın sərgilədikləri ehtiyatlı mövqe və qorxaq davranış Hitlerin əl-qolunu daha da açmış, nəticədə proses vilayətin almanlar tərəfindən işğalını rəsmiləşdirən biabırçı "Münhen sazişiylə" yekunlaşmışdı.***

*Bax: səh.3*

## Bakıda küçədə məktəbli qızı vuran oğlan saxlanılıb

**Daxili İşlər Nazirliyi Bakıda küçədə qadınlara qarşı quldurluq edən şəxsi saxlayıb.**

DİN Mətbuat Xidmətindən Adalet.az-a verilən məlumatda bildirilir ki, sosial şəbəkələrdə ictimai qaydanı kobud surətdə pozaraq qadınlara qarşı xuliqanlıq hərəkətləri törədən naməlum şəxs müəyyən olunaraq saxlanılıb.

Araşdırmalara müəyyən olunub ki, 1993-cü il təvəllüdlü Yasamal rayon sakini Əhməd Hüseynov eyni xarakterli xuliqanlıq hərəkətlərini digər xanımlara qarşı da törədib. O, ilkin ifadəsində törətdiyi əməlləri etiraf edib. İctimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, şəxslər üzərində zor tətbiq olunmasının tərkib əlamətləri olduğundan fakta görə Yasamal Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 221-ci (Xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb, iş üzrə istintaq hərəkətləri aparılır.

**Ə.Hüseynovun əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa ərazi polis orqanlarına, "102" Xidməti-Zəng Mərkəzinə və Nazirliyin sosial şəbəkələrdəki rəsmi səhifələrinə məlumat verə bilərlər.**

## *NATO bu ölkələrə hərbi qüvvə yerləşdirir*



**NATO Rumıniya, Bolqarıstan və Slovakiyaya əlavə hərbi qüvvə yerləşdirir.**

Bu barədə DPA agentliyi məlumat yayıb. Məlumata görə, NATO-ya üzv ölkələrin müdafiə nazirləri gələn həftə görüşüb bununla bağlı qərar qəbul edəcəklər. Yazda isə hərbi qüvvələrin sözügedən ölkələrə yerləşdirilməsinə başlanılacaq.

*Vaqif Bayatlı*

## Güllələyin şairləri!



*Noldu birdən-birə, Mixail Yuriyeviç,*
*İndicə gülürdünüz?!*
*İndi qəbir tüfəng lüləsitək dar,*
*Elə bilirdiniz hamının Allahı var?*

*Diz çökün, cənab Martınov, diz çökün!*
*Fələyin zülmü çox, Allahın mərhəməti!*
*Diz çökün! Bir şair də söndü -*
*Sevdalar yaşılı, ocaq kösöyü,*
*Üstündə Allahı, üstündə göyü.*
*Gözlər hədəqədə, ölüm sinədə,*
*Alın yazısına, qara günə də,*
*bazarda soğanın qiymətinə də,*
*bir bəhanə gərək, bir bayıs gərək*
*Güllələyin şairləri! Sonra diz çökün!*

**Bax: səh.3**

## Rüstəm Əbülfətoğlu MEDİA-dan getməsinin səbəbini açıqladı



**Rüstəm Əbülfətoğlu Medianın İnkişafı Agentliyində Jurnalistə Media subyektləri və jurnalistlərlə iş, media dəstək layihələri departamentinin direktoru vəzifəsindən istefa verib.**

Adalet.az xəbər verir ki, R.Əbülfətoğlu bu barədə sosial şəbəkə hesabında yazıb:

"Mənə göstərilmiş etimadın məsuliyyətindən çıxış edərək Medianın İnkişafı Agentliyindəki (MEDİA) fəaliyyətimi bu gün öz xahişimlə başa vurdum. Müəllifi olduğum layihələrin: I-ci Beynəlxalq Şuşa Media Forumunun keçirilməsi, çap və onlayn media subyektləri üçün Reklam Konsorsiumunun yaradılması, qəzetlərin satışı və abunə sisteminin yenidən qurulması ilə real işlək yayım mexanizminin tətbiqi, xüsusi təşviq siyasəti ilə region mətbuatı və yerli mətbəələrin inkişafının stimullaşdırılması kimi proyektlərin həyata keçirilməsi, habelə alçaldıcı "reket" damğasının şərəfli jurnalist peşəsinin üzərindən götürülməsi istiqamətində ictihad həqiqətən şövqləndirici idi..."

## Pərvanə Bayramqızı: «Kasıbın uğrunda ölməyə Vətəni, varlının...»



**Kasıbın uğrunda ölməyə Vətəni, varlının bir-birindən gözəl qürbət elləri var. Kasıb "bəd ayaqda" bilir ki, Vətənində dilənib gəzəcək, varlısa qürbətdəki malikanələrinin nə vaxt əlindən çıxacağından xəbərsiz olur. Kasıb gedəcəyi yerin əvvəl-axır qəbir olacağına hər an hazırdır, varlı "dirilik suyu", "cavanlıq alması" axtarıb "qurdla qiyamətə qalmaq" eşqindən vaz keçə bilmir. Kasıb yeməyib-içməyib gözəlliyə kənardan tamaşa edir, varlı gözəlliyi "yeyib" üstündən su içir. Ona görə də dünya bir dəri, bir sümük qalıb, onun da dərdini şairlər çəkir. Şairlər kasıbın problemləri qədər varlı, varlıların səxavəti qədər də kasıbdır. Onlar Vətənlərinin həm varlısı, həm kasıbıdırlar. Amma öz aramızdır, onların da ürəyindən gəzməyə qərib ölkə keçir. Sözü qoyub gedə bilmirlər, sözü... söz də onlarla getmir. Anamızın sözləri...**

## GÜNÜN LƏTİFƏSİ

Bir gün gecə saat 2 olur, Mamed evə gəlmir. Arvadı zəng vurur qaynanasıgilə. Deyir:

**- Ay qaynana, saat 2-di, amma Mamed evə gəlməyib. Bəlkə başqa arvadı var, onun yanına gedib?**

**- Ay gəlin, niyə ağlına pis-pis fikirlər gətirirsən? Bəlkə bıçaqlayıblar, bəlkə maşın vurub?**

# Prezident "Media haqqında" qanunu təsdiqlədi



**Prezident İlham Əliyev "Media haqqında" qanunu təsdiqləyib.**

Adalet.az xəbər verir ki, bu qanun media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir

# MEDİA-ya əlavə səlahiyyətlər verildi

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli 1249 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.**

Adalet.az xəbər verir ki, Fərmanla "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar qərara alınır:

- Azərbaycan Respublikası Prezidentinin 2021-cı il 12 yanvar tarixli 1249 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 19, № 3, maddə 231, № 10, maddə 1112) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.18-1-ci, 3.1.19-1-ci, 3.1.19-2-ci, 3.1.22-1-3.1.22-3-cü, 3.1.25-1-3.1.25-3-cü və 3.2.5-1-ci yarımbəndlər əlavə edilsin:

"3.1.18-1. Azərbaycan Respublikasından kənarda yerləşən media subyektlərinin fəaliyyətində "Media haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması halları aşkar edildikdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə və "Media haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tədbirləri həyata keçirmək;";

"3.1.19-1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmadıqda, redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici çap mediası məhsulunun Azərbaycan Respublikasının ərazisində yayılması ilə bağlı məsələləri həll etmək;

3.1.19-2. "Media haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda çap mediası və onlayn media subyektlərinə xəbərdarlıq etmək, habelə onların fəaliyyətinin və media məhsullarının yayımlanmasının dayandırılması, eləcə də həmin subyektlərin fəaliyyətinə xitam verilməsi barədə məhkəmə qarşısında iddia qaldırmaq;";

"3.1.22-1. Media Reyestrini formalaşdırmaq, aparmaq, idarə etmək, ondan istifadə edilməsinə və məlumatların mühafizəsinə nəzarət etmək;

3.1.22-2. Media Reyestrinə daxil edilmiş çap mediasının və onlayn medianın redaksiyasının loqotipinin (embleminin) dəyişdirilməsinə razılıq vermək;

3.1.22-3. Media Reyestrinə daxil edilmiş media subyektlərinə Media Reyestri şəhadətnaməsi, jurnalistlərə isə jurnalist vəsiqəsi vermək;";

"3.1.25-1. əhəmiyyətli tədbirlərlə bağlı siyahını hər il növbəti il üçün elan etmək, bu siyahını özünün rəsmi internet saytında yerləşdirmək və onun müntəzəm olaraq yenilənməsini təmin etmək;

3.1.25-2. media subyekti Media Reyestrindən çıxarıldıqda özünün rəsmi internet saytında bu barədə məlumat yerləşdirmək;

3.1.25-3. jurnalist Media Reyestrindən çıxarıldıqda onun jurnalist vəsiqəsini ləğv etmək və bu barədə özünün rəsmi internet saytında məlumat yerləşdirmək;";

"3.2.5-1. "Media haqqında" Azərbaycan Respublikası Qanununun 70.3-cü, 70.5-ci və 70.6-cı maddələrində nəzərdə tutulmuş hallarda jurnalist vəsiqəsinin təhvil verilməsini tələb etmək;".

## *MEDİA yeni qanunun hədəflərini açıqladı*

**"Kifayət qədər müxtəlif fikirlərin eşidildiyi və az qala bir ilə yaxın davam edən müzakirələrdən sonra "Media haqqında" Qanun artıq qüvvəyə mindi. Praqmatik fikirlər də eşitdik, sərt, bəzən barışmaz və amansız iradlar da, hətta təhqirlər, ələsalmalar da. Oxuyub danışanların da səsini duyurduq, "oxumamışam amma ittiham edirəm" ritorikasına köklənmişlərin də. Reallığın gözünə dik baxan və bu sərt reallığı bizə də açıq şəkildə ifadə edən uzun illərin media adamlarının narahatlığı qanundan daha çox belə bir niyyətin nə dərəcədə səmimi olması ilə bağlı idi. Onlar bir qayda olaraq qanunun maddələrinə yox keçmişin xoş olmayan xatirələrinə istinad edirdilər. Yəni mediamızın intellektual baqajında nə vardısa, hamısını qanunun müzakirəsi zamanı nümayiş etdirə bildi. Biz də öz növbəmizdə cavabsız sual buraxmadıq. İşimizin düz və lazımlı olduğuna inanırdıq. Eşitdiyimiz heç bir fikir bizim üçün gözlənilməz deyildi, çünki ondan da sərt fikirləri öz aramızda özümüz səsləndirirdik və saatlarla yox günlərlə sürən bu müzakirələrdə həmin sərt sualların tutarlı cavablarını da özümüz tapırdıq".**

Adalet.az xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin (MEDİA) Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli bildirib.

O, yeni qanunla Agentliyin hədəflərini də açıqlayıb:

"Bu qanunla hədəflərimiz nədir və nəyə nail olmaq istəyirik?

***- Ölkəmizin milli informasiya mühitinin sağlamlaşmasına;***

***- Milli informasiya resurslarımızın güclənməsinə;***

***- Jurnalistika üçün həyati əhəmiyyət daşıyan plüralizmin qorunmasına;***

***- Jurnalistin sosial portretinin formalaşmasına, statusunun və imicinin yaxşılaşmasına, nüfuzunun güclənməsinə;***

***- Özfəaliyyət və qeyri-peşəkarlıqla, peşəkarlığın sərhədlərinin müəyyənləşməsinə;***

***- Mediada layiqli əmək münasibətlərinin möhkəmlənməsinə;***

***- Dövlətin medianın informasiya təminatını yaxşılaşdırmasına;***

***- Medianın iqtisadi müstəqilliyini gücləndirməyə yönəlmiş dövlətin güzəşt və imtiyazların dairəsinin müəyyənləşməsinə".***

N.Məmmədli qeyd edib ki, "Media haqqında" qanunun imzalanması ilə eyni gündə dövlət jurnalistlərə güzəştli ipotekadan faydalana bilmək hüququ verib.

Onun sözlərinə görə, bu, Azərbaycan Prezidentinin media nümayəndələrinin sosial problemlərinə diqqətinin göstəricisidir:

"Dövlət hər hansı öhdəlik qoymadan özünün qulluqçusu, müəllimi, alimi, xüsusi nailiyyətləri olan idmançısı üçün nəzərdə tutduğu imtiyazları media nümayəndəsinə də şamil etdi. Bu, yalnız sosial siyasət deyil, eyni zamanda jurnalist peşəsinin və bütövlükdə medianın nüfuzunun yüksəldilməsinə yönəlmiş addımdır.

Amma unutmayaq, "Media Qanunu" dövlətin media mühitinə yanaşmasının göstəricisidir. Jurnalist üçün ən böyük dəyər onun təmiz reputasiyasıdır, sözünə olan ictimai etimaddır. Bunu jurnalist özü qazanır. Qanun isə öz şərəfli missiyasını yerinə yetirməsi üçün jurnalistin yanındadır".

# "Azərbaycan bütün enerji komponentlərinin inkişafına görə qabaqcıl ölkələrdəndir"

***Prezident İlham Əliyev Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibə verib.***

***Adalet.az müsahibənin tam mətnini təqdim edir:***

**- Salam, möhtərəm cənab Prezident, AZƏRTAC-a müsahibə üçün vaxt ayırdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Cənab Prezident, bu gün 330 kilovoltluq "Qobu" elektrik yarımstansiyası və 385 meqavatlıq elektrik stansiyası istifadəyə verilir. Bir neçə gün bundan əvvəl yenidən qurulan "Yaşma" qovşaq yarımstansiyasının açılışında iştirak etdiniz. Ölkəmizdə enerji potensialının gücləndirilməsi baxımından bu stansiyaların əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

- "Qobu" Enerji Qovşağı son illər ərzində inşa edilən ən böyük enerji obyektlərindən biridir. Nəzərə alsaq ki, həftənin əvvəlində "Yaşma" yarımstansiyası işə salındı, hər kəs görə bilər, cəmi bir həftə ərzində Azərbaycanda enerji sahəsində nə qədər böyük işlər görülüb. Əlbəttə, bu nəhəng enerji obyektlərinin inşası zaman tələb edirdi. Ancaq ən qısa mümkün vaxt kəsiyində belə nəhəng enerji obyektlərinin inşa edilməsi bizim güclü imkanlarımızdan xəbər verir.

Həftənin əvvəlində Yaşmada böyük yarımstansiyanın istifadəyə verilməsi enerji dayanıqlılığına xidmət göstərəcək. Gücü 750 meqavat olan yarımstansiya əlbəttə ki, bizim enerji sismtemimizdə önəmli yer tutacaq. Bu gün isə 385 meqavat gücündə "Qobu" Elektrik Stansiyasının açılması əlbəttə, generasiya güclərimizi böyük dərəcədə artıracaq. Bu stansiyanın yanında cəmi bir il ərzində 1000 meqavatlıq yarımstansiya inşa edilib. Onu da deməliyəm ki, bu genişmiqyaslı nəhəng layihələrin icrasında ancaq Azərbaycan şirkətləri, Azərbaycan mütəxəssisləri, fəhlələri iştirak ediblər. Yəni, bu onu göstərir ki, bizim çox güclü texniki potensialımız, kadr potensialımız var.

Bu gün hər kəs görür ki, dünyada iqtisadi, maliyyə böhranı hələ də başa çatmayıb. Buna baxmayaraq, Azərbaycanda öz vəsaiti hesabına inşa edilən bu nəhəng obyektlərin istifadəyə verilməsi həm maliyyə imkanlarımızı göstərir, maliyyə müstəqilliyimizdən xəbər verir, texniki imkanlarımızı göstərir və onu göstərir ki, son illərdə elektrik enerjisi sahəsində çox böyük işlər görülüb, bu işlərin yenə də davamı var. Çünki artan tələbat - həm daxili tələbat, həm xarici tələbat, artan ixracımız bunu diktə edir. Onu da bildirməliyəm ki, keçən il Azərbaycanda 27 milyard kilovat/saat elektrik enerjisi istehsal edilmiş və 1,6 milyard kilovat/saat ixrac olunmuşdur. Bu, rekord göstəricidir. Yəni, biz artıq çox ciddi elektrik enerjisini ixrac edən ölkəyə çevrildik. Qeyd etdiyim kimi, həm daxili tələbat, həm də xaricdə enerji gücümüzə olan tələbat bizi yeni addımların atılmasına sövq edəcək.

**- Cənab Prezident, məlumdur ki, Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir, əhalimiz hər il artır. Eyni zamanda, ölkəmizdə sənaye istehsalı da sürətlə inkişaf edir. Təbii ki, bütün bu amillər Azərbaycanda elektrik enerjisinə tələbatın artmasına səbəb olur. Elektrik enerjisinə artan bu tələbatın hansı mənbələrdən təmin olunması nəzərdə tutulur?**

-Bəli, Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir. Müstəqillik dövründə əhalimiz 7 milyondan 10 milyona çatıbdır. Bu, ölkədə gedən müsbət meyillərin təzahürüdür, sabitliyin, əmin-amanlığın, iqtisadi inkişafın, sosial rifahın təzahürüdür. Əlbəttə ki, bizdə bütün sahələrdə olan potensial bu demoqrafik artıma uyğun olmalıdır. Eyni zamanda, ölkə iqtisadiyyatı artır, sənaye potensialı artır. Keçən il biz xalqımızı gözəl göstəricilərlə sevindirə bildik. Keçən il iqtisadiyyatımız 5 faizdən çox artıb, qeyri-neft sektorunda sənaye istehsalı isə təxminən 20 faiz artıb. Yanvar ayının ilk yekunları mənə bu günlərdə məruzə edildi. Nəticələr daha da ümidvericidir. İqtisadi artım təxminən 6 faiz, qeyri-neft sektorunda ümumi daxili məhsul təxminən 9 faiz, qeyri-neft sənaye istehsalı sahəsində isə artım 24 faiz olmuşdur. Bu da rekord göstəricidir. Yəni, bu onu göstərir ki, müsbət dinamika bu il də təmin ediləcək. Yanvar ayı ilin başlanğıcıdır. Dünyanın istənilən ölkəsində yanvar ayında iqtisadi artım templəri adətən o qədər güclü olmur, o cümlədən Azərbaycanda. Amma qeyd etdiyim bu göstəricilər, necə deyərlər, özlüyündə bir nəticədir.

Əlbəttə ki, artan sənaye artan generasiya gücləri tələb edir. Məhz biz buna görə belə nəhəng obyektləri inşa edirik. Artan daxili tələbatı belə gözəl enerji stansiyaları ilə təmin edəcəyik. Eyni zamanda, qeyd etdiyim kimi, bizim enerji gücümüzə xaricdə tələbat artır. Bizim 4 qonşu ölkəyə elektrik enerjisinin ixracatı artmaqdadır - Türkiyə, Rusiya, Gürcüstan və İran. Qeyd etdiyim kimi, 1,6 milyard kilovat/saat elektrik enerjisi ixrac etmişik. Bizim həm neft, həm qaz, həm elektrik enerjisi ixracatı bu gün həm Azərbaycanın, həm qonşu ölkələrin və hətta Avropa ölkələrinin enerji təhlükəsizliyinə töhfə verir. Azərbaycan nadir ölkələrdəndir ki, bütün qonşu ölkələrə həm xam neft, həm təbii qaz, neft-kimya məhsulları, neft məhsulları və elektrik enerjisini ixrac edir.

Əlbəttə ki, bu, son illər ərzində əldə edilmiş nailiyyətlərdir. Biz hamımız xatırlayırıq ki, müstəqilliyimizin ilk illərində bizim özümüzə enerji gücü çatmırdı. Mövcud olan stansiyalar yararsız vəziyyətdə idi və yeni stansiyaların tikilməsinə pulumuz yox idi, Azərbaycan elektrik enerjisini Rusiyadan idxal edirdi. Təbii qazla bağlı qıtlıq var idi, bölgələrdə, ümumiyyətlə, qaz yox idi və neft hasilatı kəskin düşmüşdü. Bu gün isə Azərbaycan dünya miqyasında bütün bu enerji komponentlərinin inkişafına görə qabaqcıl ölkələrdəndir. Təsadüfi deyil ki, bu ay keçirilmiş 8-ci Cənub Qaz Dəhlizi Məşvərət Şurası məhz bu uğurlarımızı bir daha qeyd etdi. Orada çıxış edən demək olar ki, bütün iştirakçılar Azərbaycanın potensialından, Azərbaycanın imkanlarından danışdılar. Mən orada çıxış edərkən dedim ki, biz etibarlı tərəfdaşıq, öz öhdəliklərimizi yerinə yetiririk, buna gücümüz də çatır, iradəmiz də çatır, məsuliyyətimiz də çatır. Ona görə bugünkü mənzərə çox müsbətdir və ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı heç bir problem yoxdur, amma bu gün dünyanın bir çox ölkələrində bu problemlər var və kəskinləşir. Bəzi ölkələr, ümumiyyətlə, öz enerji balansını düzgün tərtib edə bilmirlər. Çünki xarici təchizatçılardan asılıdırlar və orada müəyyən problemlər yaranıbdır. Ona görə biz həm ölkə daxilində, həm bölgədə, həm geniş mənada qitədə çox



etibarlı enerji təchizatçısı ölkəsinə çevrilmişik. Əlbəttə ki, növbəti planlarımız da var. Həm daxildə, həm xaricdə artan tələbatı ödəmək üçün bizim böyük planlarımız var, onlar reallaşır, o cümlədən bərpaolunan enerji növləri ilə bağlı planlarımız. Əminəm ki, bu gün burada qeyd etdiyimiz açılış və buna bənzər açılışlar bundan sonra da çox olacaq.

**- Cənab Prezident siz bərpaolunan enerji növləri ilə bağlı məsələyə toxundunuz növbəti sualımız da bununla bağlıdır. Son illər Azərbaycanda bu istiqamətdə genişmiqyaslı işlərə start verilib. Bərpaolunan enerji növlərinin inkişafı istiqamətində həyata keçirilən işlər barədə məlumat verməyinizi xahiş edirik.**

- Bu sahəni mən artıq bir neçə ildir ki, prioritet sahə kimi müəyyənləşdirmişdim.

Onu da bildirməliyəm, adətən bu sahəyə o ölkələr daha ciddi fikir verir ki, o ölkələrdə təbii enerji resursları yoxdur, ya azdır, ya da ki, çatmır. Ona görə qazı və neft məhsullarını əvəzləmək üçün ölkələr məcburən bu sahəyə fikir verirlər, investisiyalar qoyurlar. Bizdə isə əksinə, biz özümüzü və tərəfdaşlarımızı bundan sonra ən azı 100 il ərzində təbii qazla təchiz edə bilərik. Buna baxmayaraq bu gün bərpaolunan enerji növlərinə sərmayə qoyuruq. Nə üçün? İlk növbədə ona görə ki, bu, ən təmiz enerji növüdür. Düzdür, təbii qaz da təmiz enerji növüdür və biz Azərbaycanda elektrik enerjisini istehsal etmək üçün hazırda ancaq təmiz enerji növlərindən istifadə edirik, mazutdan istifadə etmirik, kömürdən istifadə etmirik. Halbuki bir çox ölkələr bu məhsullardan istifadə edirlər. Biz təbii qazdan, sudan, günəşdən, küləkdən istifadə edirik. Bunu nəzərə alaraq gələcəkdə ətraf mühiti qorumaq üçün biz mütləq bərpaolunan enerji növlərini yaratmalıyıq. İkinci səbəb ondan ibarətdir ki, bizim buna imkanımız var, potensialımız var. Ölkədə o qədər gözəl investisiya iqlimi yaradılıb ki, həm özümüz, həm də xarici firmalar buna böyük maraq göstərirlər. Bu marağı biz yaratmışıq. Əgər neft-qaz sahəsində uğurlu siyasətimiz aparılmasaydı və tərəfdaşlar bizə inanmasaydılar, o cümlədən Azərbaycanın gələcəyinə inanmasaydılar, bu qədər böyük xarici sərmayə qoymazdılar. Ona görə bu gün bərpaolunan enerji növlərinin tam işə salınması istiqamətində çox ciddi iş gedir və bu işin nəticələrini biz görürük. Nədə görürük? İlk növbədə onda ki, xarici firmalar, böyük şirkətlər bu sahəyə investisiya qoyurlar.

Keçən ay bu sahədə ən böyük şirkətlərdən biri - "Acwa Power" və Azərbaycan arasında imzalanmış kontrakt əsasında təməlqoyma mərasimi keçirildi, 240 meqavatlıq külək elektrik stansiyası gələn il istifadəyə verilməlidir. Hazırda bp şirkəti ilə Cəbrayıl rayonunda 200 meqavatdan çox gücə malik olan günəş elektrik stansiyasının inşası ilə bağlı danışıqlar gedir. Birləşmiş Ərəb Əmirliyinin Mazdar şirkəti ilə danışıqlar gedir günəş elektrik stansiyasının inşası ilə bağlı, hər iki layihə haradasa 400-450 meqavat gücündədir. Üstəlik 240 meqavat qeyd etdiyim kimi "Acwa Power", ondan sonra Xudafərin və Qız qalası su anbarlarında İranla bərabər 280 meqavatlıq elektrik stansiyalarının tikintisi nəzərdə tutulur. O gücün yarısı bizə çatacaq, bu da əlavə 140 meqavat təşkil edəcək. Azərenerjinin özünün 50 meqavatlı külək elektrik stansiyası var, ondan sonra azad edilmiş torpaqlarda keçən il Güləbird, Suqovuşan-1, Suqovuşan-2, Kəlbəcərdə Lev çayı üzərində 4 su elektrik stansiyası yenidən quruldu və bu il azad edilmiş torpaqlarda 5 su elektrik stansiyasının inşası və artıq inşaatının tamamlanması nəzərdə tutulur. Orada da haradasa 25-30 meqavat gücündə bu stansiyalar olacaq və əlavə azad edilmiş torpaqlarda 30-a yaxın ermənilər tərəfindən dağıdılmış su elektrik stansiyalarının tikintisi mümkündür və olacaqdır və mən fürsətdən istifadə edərək, yerli və xarici investorları bu sahəyə dəvət etmək istəyirəm. Çünki dövlət onsuz da bu işləri görəcək və görür. Amma yaxşı olardı ki, özəl şirkətlər də bu sahəyə investisiya qoysunlar və əlbəttə ki, bizim böyük potensialımız Kəlbəcər-Laçın zonasındadır və digər azad edilmiş torpaqlarda. Mən bu rəqəmləri gətirmişdim 9 min meqavatdan çox təsdiq edilmiş enerji potensialı var, günəş və külək stansiyalarını nəzərə alaraq və ən böyük bizim potensialımız Xəzər dənizindədir və təsadüfi deyil ki, hal-hazırda dünyanın aparıcı enerji şirkətləri Xəzər dənizinə çox böyük diqqət yetirirlər, bizə artıq təkliflər gəlməyə başlamışdır. Xəzər dənizinin bərpa olunan enerji istehsalı ilə bağlı potensial 150 min meqavatdan çoxdur. Ona görə bütün bu işləri biz düzgün planlaşdırmalıyıq. Daxili tələbatı təbii ki, ödəmisik, ödəyəcəyik, ixracla bağlı öz fəaliyyətimizi genişləndirməliyik, yeni ixrac bazarlarına çıxmalıyıq. Bizim bütün dörd qonşu ölkə ilə dediyim kimi, enerji bağlantıları var, yeni bir layihə üzərində biz indi işləyirik. Zəngəzur dəhlizi üzərindən Azərbaycandan Naxçıvan Muxtar Respublikasına, oradan isə Türkiyəyə və İrana yeni xəttin çəkilişi indi artıq planlarımızdadır və mən demişdim ki, Zəngəzur dəhlizi təkcə dəmir yolu, avtomobil yolu, hava nəqliyyatlı üçün deyil, eyni zamanda, enerji növlərinin bu dəhliz üzərindən ixrac edilməsi ilə bağlı Zəngəzur dəhlizi öz rolunu oynayacaq və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi ilə təmin etmək üçün və oradan xarici bazarlara çıxmaq üçün və Türkiyədən sonra Avropaya çıxmaq üçün yeni bir xəttimiz olacaq. Bir xətt Gürcüstan-Türkiyə üzərindən keçir və ikinci xətt oradan keçməlidir.

Bunun üzərində biz işləyirik və artan ixracımız həm önəmimizi artıracaq, geosiyasi önəmimizi artıracaq, eyni zamanda, bizə əlavə valyuta gətirəcək. Biz təkcə neftdən, qazdan yox, eyni zamanda, elektrik enerjisindən də valyuta qazanacağıq və ölkəmiz daha da firavan yaşayacaq. Ona görə bütün bu layihələr bizim planlarımızdadır. Bugünkü açılış mərasimi bir daha gücümüzü göstərir, iradəmizi göstərir. Onu göstərir ki, qarşımızda duran bütün vəzifələri biz uğurla icra edirik.

**- Cənab Prezident, AZƏRTAC-ın suallarını ətraflı cavablandırdığınıza görə Sizə ürəkdən minnətdarıq və qarşıdakı fəaliyyətinizdə Sizə uğurlar arzulayırıq. Çox sağ olun.**

- Sağ olun.

# *Sadıkovun əmrinə görə 82 azərbaycanlı hərbçi tələyə salınaraq öldürülüb*

## "Çeildağ" əməliyyatının şok detalları

**I Qarabağ Müharibəsi zamanı 1993-cü il dekabrın 30-dan 31-nə keçən gecə Ağcabədi istiqamətində keçirilməsi planlaşdırılan, lakin 1 gün gecikmə ilə baş tutan və uğursuzluqla nəticələnən "Çeildağ" əməliyyatının detalları üzə çıxıb.**

Adalet.az xəbər verir ki, Hərbi Prokurorluğunun sabiq Xüsusilə Mühüm İşlər üzrə böyük müstəntiqi Kamal Əliyev "Kriminalqafqaz"a cinayət işinin istintaqı barədə arayış göndərib. K.Əliyev sənəddə qeyd edib ki, həmin vaxt Silahlı Qüvvələrin sabiq Baş Qərargah rəisi Nəcməddin Sadıkovun əmri ilə əməliyyat bir gün təxirə salınıb. Nəticədə 82 azərbaycanlı hərbçi tələyə salınaraq öldürülüb və ya itkin düşüb:

"Döyüş əməliyyatının bir gün yubandırılmaqla keçirilməsinə görə hərbçilərimiz ermənilər tərəfindən Əfqanıstanda Sovet qoşunlarına qarşı dəfələrlə tətbiq olunmuş "Oqnevoy meşok" deyilən tələyə salındı və nəticədə 82 hərbi qulluqçu öldü. Əməliyyatın nəticələri ilə bağlı Nəcməddin Sadıkov, Müdafiə nazirinin müavini Elbrus Orucov, nazirliyin Əməliyyat idarə rəisi Vasyak Aleksandr Petroviç və digərləri raportlar yazıb müvafiq izahatlar tərtib etdilər. Həmin raportda göstərilmişdi ki, "Çeildağ" əməliyyatının acınacaqlı sonla nəticələnməsinin səbəbi o zamankı N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Talıb Məmmədovun şəxsi heyət və texnikanın əməliyyatdakı iştirakını qəsdən təmin etməməsi olub".

Kamal Əliyev həmin raporta uyğun təqdim olunmuş materiallar əsasında T.Məmmədov barəsində tutulma qərarı çıxarıb. Ona qarşı dövlətə xəyanət ittihamı irəli sürülüb və Respublikanın Hərbi prokuroru Nizami Təhməzovun sanksiyasına əsasən həbs edilib.

Kamal Əliyev bildirir ki, istintaq zamanı əslində Nəcməddin Sadıkovun yazdığı raportun yalan olduğu üzə çıxıb. Müstəntiq 1994-cü ildə Nəcməddin Sadıkov, Elbrus Orucov, Vasyak Aleksandr Petroviç və digərləri barəsində dövlətə xəyanət və vəzifə səlahiyyətlərini aşma (hazırki redaksiyada Cinayət Məcəlləsinin 274 və 341-ci maddələr) ittihamını irəli sürüb:

"İstintaq nəticəsində qəti şəkildə müəyyən olundu ki, "Çeildağ" əməliyyatının məğlubiyyətə uğramasının səbəbləri Nəcməddin Sadıkov tərəfindən əməliyyatın bir gün təxirə salınması və nəticədə əməliyyat haqqında düşmənin əvvəlcədən tam və ətraflı məlumatlandırılması olub. İstintaq tam əmin oldu ki, əməliyyat N.Sadıkov və digərləri tərəfindən qəsdən düşmən tərəflə birlikdə koordinasiya olunub.

1994-cü ilin fevralında Hərbi prokurorluğun rəhbərliyinə dəfələrlə məruzə olundu. Hərbi prokurorluq cinayət işinin təcili qaydada baxılması və yekunlaşdırılaraq məhkəməyə göndərilməsini tələb edirdi. Hətta həmin vaxt Nizami Təhməzovla mübahisə etdim və bildirdim ki, qeyri-qanuni qərar qəbul edə bilmərəm. Ciddi təzyiqlərə baxmayaraq, Talıb Məmmədov barəsində cinayət təqibinə xitam verib onu həbsdən azad etdim.

Eyni zamanda, Baş Qərargah rəisi Nəcməddin Sadıkov və digərləri haqqında şübhəli şəxs qismində tutma protokolları tərtib edib, onların müttəhim kimi cinayət məsuliyyətinə cəlb olunmaları barədə qərar qəbul etdim".

Amma müstəntiqin bu qərarı Baş Prokurorluq və Hərbi Prokurorluqda narazılıq yaradıb. Kamal Əliyev Nəcməddin Sadıkova qarşı qərəzli mövqe tutmaqda günahlandırılıb:



"Bu hadisədən sonra, Hərbi Prokuror Nizami Təhməzov mənim işdən azad olunmağım barədə qərar qəbul etdi. Vəzifə səlahiyyətlərini aşmaqda ittiham edilərək həbs edildim.

Baş Prokurorluğun binasında prokurorluq orqanlarının vəzifəli şəxsləri ilə yanaşı Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Komitəsinin rəhbər şəxslərinin iştirakı ilə müşavirə keçirildi və gecə saat 11-dən səhər 9:30-a qədər izahatım alındı.

Müşavirədə qərar verildi ki, Silahlı Qüvvələrin Baş Qərargah rəisi barəsində özbaşına tutma protokolu tərtib edib cinayət məsuliyyətinə cəlbetmə barədə qərar verdiyimə görə həbs olunmalıyam ki, başqalarına dərs olsun.

Səhəri gün məsələ ölkə rəhbərliyinə məruzə olundu. Prezidentin tapşırığından sonra rəhbərlik cinayət işini mənim icraatımdan alaraq başqa müstəntiqə verdi.

Düzdür, işi təhvil alan yeni müstəntiq ittihamı məhkəməyə göndərdi. Lakin Ali Məhkəmə Talıb Məmmədova bəraət verdi. Onun "Çeildağ" əməliyyatındakı 82 hərbçinin ölümündə günahkar olmadığı sübuta yetirildi. Mənim barəmdəki işdən azad olunma və həbs qətimkan tədbiri isə ləğv edildi. Nəcməddin Sadıkovun cinayət məsuliyyətinə cəlb olunması ilə bağlı qərarlarımın sonrakı taleyindən isə xəbərim olmadı".

Bundan sonra müstəntiq Kamal Əliyev Şuşanın işğalında və vətənə xəyanətdə ittiham edilərək tutulmuş sabiq Müdafiə naziri Rəhim Qazıyevin cinayət işi üzrə istintaqı aparmaqla vəzifələndirilib.

Müstəntiq K.Əliyev Nəcməddin Sadıkovun həbsinə nail ola bilməsə də, həmin olaylardan sonra Sadıkov Müdafiə Nazirliyinin əməliyyat, kəşfiyyat və XTQ-ə müdaxilədən, həmin strukturlardan informasiya alma imkanlarından məhrum edilib.

Qeyd edək ki, Talıb Məmmədov isə bəraət aldıqdan sonra yenidən MN strukturunda çalışmağa davam edib. Nazirliyin Baş Kəşfiyyat İdarəsinin rəisi təyin olunub, general-leytenant hərbi rütbəsinə kimi yüksəlib. Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissəsinin formalaşdırılmasında mühüm rol oynayıb. Azərbaycanın Pakistandakı hərbi attaşesi olub.

**Kamal Əliyev isə Hərbi Prokurorluqdan sonra Bakı və Tərtər Hərbi Məhkəmələrində hakim işləyib. Hazırda fəaliyyətini vəkil kimi davam etdirir.**

*Vilayət Quliyev*

# Əli aşından da olmuşuq, Vəli aşından da...



***Hər şeylə maraqlanmaq lazımdırmı?***

***1995-ci ildə ilk dəfə ABŞ-na getmişdim. Vaşinqtonda bizi gəzdirən gid bərpa altındakı bir binanı göstərib məşhur "Ford" teatrı olduğunu dedi. Məşhurluğunun səbəbini izah etməyə macal tapmamş "Bağışlayın, bu Avraam Linkolnun öldürüldüyü teatr deyil?"-deyə soruşdum. (Bir neçə il əvvəl ABŞ prezidentlərinin bioqrafiyalarından ibarət populyar bir kitab oxumuşdum. Oradan yadımda qalmışdı). Gid təqdiredici şəkildə başını tərpətdi, sonra maraqlandı ki tarixçiyəm, yoxsa sənətşünas? Heç biri olmadığımı biləndə bir az təəccübləndi. Mən də Konfederasiya tərəfdarı aktyor Con Butun 1865-ci ildə Cənubla Şimal arasında vətəndaş müharibəsi bitəndən bir neçə gün sonra bu teatrdakı tamaşa zamanı prezidentin lojasına gəlib onu öldürməsindən danışmağa başladım. Gid maraqlandı ki, bəlkə amerikanşünasam? Bu sahənin də mütəxəssisi olmadığımı biləndə mənə deyəsən, başını bir xeyri olmayan lüzumsuz məlumatlarla doldurmuş anormal adam kimi baxmağa başladı.***

***Aydın məsələdir ki, Vaşinqton küçələrində keçirilən ekspress-sorğuda 100 nəfərdən 95-nin "Tokio haradır?" sualına cavab verə bilmədiyi bir ölkədə belə "ağıl nümayişi" istehzadan başqa ayrı hiss doğurmayacaqdı.***

***Bizim yetirməsi olduğumuz təhsil sistemi hər şeylə maraqlanmağa təşviq edirdi, ABŞ təhsil sistemi isə mübaliğəli olsa da deyək ki, bütöv qırxayaqla yox, hətta qırxayağın dal ayağı ilə məşğul olan mütəxəssislər yetişdirirdi. Heç bilmirsən, hansı daha yaxşıdır? Amma indi Əli aşından da olmuşuq, Vəli aşından da...***

## *Türkiyə ordusu 316 terrorçunu zərərsizləşdirdi*



**Türkiyə ordusu bu ilin əvvəlindən bölgədə keçirdiyi 18 əməliyyat çərçivəsində 316 terrorçunu zərərsizləşdirib.**

Bu barədə Türkiyə Müdafiə Nazirliyinin məlumatında deyilir.

Bildirilib ki, ümumilikdə 2015-ci il iyulun 24-dən bu günə qədər İraqın şimalı və Suriya da daxil olmaqla, regionda 33 584 terrorçu zərərsizləşdirilib.

**MEHRİBAN**

# İradə Tuncay: "Sənin gücün yalnız sənin öz yaratdığına çata bilər"

## "ƏXLAQDAN NAQİS ADAMLARIN YETİŞDİYİ CƏMİYYƏT QORXULU CƏMİYYƏTDİR"

***Budəfəki həmsöhbətim tanınmış yazıçı-sı, publisist, "Ədalət" qəzetinin baş redaktoru, Əməkdar jurnalist İradə Tuncay olacaq. Bir halda ki, çağdaş jurnalistika, onun tələbləri və mövcud reallıqlar mövzusunda söhbət etmək istəyirsən, həmsöhbətin də gərək bu peşənin peşəkarı olsun. Bu niyyətlə İradə xanımın iş yerinə - "Ədalət" qəzetinin redaksiyasına üz tutdum.***

**- İradə xanım, çağdaş jurnalistika sizin nəzərinizdə hansı mövqedədir?**

- Bugünkü jurnalistika elə olmalı olduğu ünvandadır. Bilgi çatışmır, dil bilgiləri isə ümumiyyətlə, çox aşağı səviyyədədir. Tək Azərbaycan dilini bilməklə heç bir yerə gedib çatmaq olmaz. Gərək informasiyan, xəbərin çox olsun, dünyanın gedişatından, tarixdən, coğrafiyadan xəbərdar olmalısan. Əgər kiminləsə həmsöhbət olmaq istəyirsənsə, almaq istədiyin nəticəyə çatmaq üçün çalışmalısan ki, daima öyrənəsən. Bugünkü jurnalistika ağır bir prosesin içərisindədir. Baxın, son illər nə qədər hadisələr baş verib, bir sistem dağılıb və cəmiyyət yeni bir sistemin qurulmasına doğru gedir. Təsəvvür edin, biz həm əsrin, həm də minilliyin sonunu gördük. Formasiya dəyişir, amma cəmiyyət hara gedəcək, necə olacaq, bax bunu bilmirik. Bilməmək isə insanlarda çaşqınlıq yaradır.

**- Bilməmək nədən irəli gəlir? Ümumiyyətlə, insanlar nəyə görə hər şeyin hazırına nazir olmağa çalışır və maariflənə bilmirlər, kitab, qəzet, jurnal oxumağa o qədər də meyl göstərmirlər? Sadəcə fakt əldə etmək istəyirlər, vəssalam.**

- Hazır fakta gəlib çıxmaq üçün kök araşdırılmalıdır. Araşdırılmalıdır ki, o fakt nədən doğdu, onun yaranmasına hansı səbəblər vəsilə oldu? Amma məsələ burasındadır ki, insanlar bunu öyrənməyə maraq göstərmirlər, hətta bir abzaslıq mətni belə oxumaq istəmirlər. Halbuki o bir abzasın altında müəyyən fikirlər yatır və o fikirləri araşdırıb tapmaq çox vacibdir. Bunun üçün də insanların ölkədə və dünyada baş verənlərdən məlumatı olması lazımdır. Məlumatsızlıq adamı qaçırır. İnsanlar bilmədikləri şeyi öyrənməyə cəhd göstərmirlər. Ən böyük problem də budur. Amma bir əmma da var: lap belə öyrənsə, nə olacaq ki?

**- Necə düşünürsünüz, mediada çıxan yazılarda lakoniklik ön planda olmalıdır?**

- Mütləq. Bu gün cəmiyyət böyük yazıları, böyük məlumatları, necə deyərlər, həzm etmir. Ona görə də mətləbi oxucuya yığcam şəkildə çatdırmaq lazımdır. Blez Paskal hələ XVII əsrdə bir məktubunda yazmışdı ki, bu məktubu həmişəkindən uzun yazdım, çünki daha qısa yazmağa vaxtım yoxdur. Yəni əgər sən bir mətni lokanikləşdirə bilmirsənsə, deməli, o barədə məlumatın ya yoxdur, ya da yetərli deyil. Əgər toxunduğun mətləbi oxucuya, necə deyərlər, həzm elətdirə bildinsə nə yaxşı, əks halda oxuyan olmayacaq. Çox çalışırsan ki, oxucuların sayı artsın, amma baxanda görürsən ki, bir xəbərə maksimum 400-500 baxış olur. 10 milyonluq respublika üçün bu, dəhşətli mənzərədir. Amma təəssüf ki, reallıq belədir.

**- Oxuyan təbəqə kimdir görən - dövlət adamları, rəsmi şəxslər, yoxsa daha çox gənc nəsil? Statistika ilə bağlı hansısa məlumatınız varmı?**

- Açığı, statistikanı deyə bilməyəcəyəm, amma əslində, hansısa bir idarənin, məsələn, 1000 nəfər işçisi varsa, onun, heç olmasa, 800 nəfəri oxumalıdır. Amma oxumurlar.

**- Ötən dövr jurnalistikası ilə müasir dövr jurnalistikası arasında hansı fərqlər var?**

- O vaxt oxucu kütləsi var idi. O zamanlar başqa əyləncə növləri çox olmadığından insanlar qəzet oxuyurdular. O vaxtlar qəzetlər də fərqli cəviyyələrdə çap olunardı. Moskvada çap olunan mərkəzi qəzetlər var idi, respublika miqyasında dərc olunan nəşrlər var idi. Hətta küçələrdə xüsusi lövhələr vardı, hər gün yeni qəzetləri ora yapışdırırdılar, insanlar küçədə durub qəzetləri oxuyar, məlumat alırdılar.

**- Oxucu kütləsini bir qırağa qoysaq, peşəkar jurnalist kimi fəaliyyət göstərmək istəyib yeniliyə açıq olmaqla köhnə dövrü qoysaq, bununla tariximizi, keçmişi də kənara qoymuş olmarıqmı?**

- Jurnalistika həm də mətbuatın tarixi, ölkənin tarixi deməkdir. Bu tarix ölkədə baş verən hər bir hadisəni özündə ehtiva edir. Onu məlumat bazası kimi gələcək üçün yığıb saxlayır. Ona görə də mütləq qorunub saxlanılmalıdır. Amma kim bunu qoruyub saxlayacaq? Bu, çox maraqlıdır...



**- Köhnə dövrdən söz düşmüşkən, o dövr tarixiliyi, indiki dövr isə dinamikliyi ilə seçilir. Nə tarixiliyimizi unutmaq, nə dinamiklikdən geri qalmaq üçün qızıl orta deyilən balansı necə saxlamaq olar?**

- Əgər bu dinamikliyin əsasını savadsızlıq təşkil edəcəksə, onun zəngin məlumat bazası olmayacaqsa, onda buradan nəsə gözləmək əbəsdir. Bilirsiniz indi dinamiklik nədir? - "Şok... Şok... Şok... Kim isə kimisə öldürdü...", "Filankəs kiminsə evindən skelet tapdı". Bunun axırı necə olacaq? Axı, hara kimi? Bütün xəbərlər konseptual əsasa dayanmalıdır. Proses "Filan müğənninin kiminləsə davası düşdü" şəklində getməli deyil. Təəssüf ki, bu proses təkcə Azərbaycanda yox, dünyanın çox yerində gedir. Moskva mətbuatına baxırsan, çox hörmətli Sovet ulduzudur, amma özünə və ailəsinə böhtan atırlar. Bu günün trendi budur.

**- Bəzən deyirlər ki, düzgün yol oxucunun arxasınca getmək, zamanla ayaqlaşmaqdır. Bəzənsə tam əksi ilə - oxucunu öz ardınca aparmalısan kimi fikirlərlə rastlaşırıq. Doğru olan hansıdır bəs?**

- Çalışmaq lazımdır ki, oxucu mətbuatın arxansınca getsin. Mətbuat heç vaxt oxucunun səviyyəsinə düşə bilməz. Subyektiv fikrimdir.

**- Jurnalistika peşəsinə yiyələnmək üçün əsas yaradıcılıq nəzərə alınır, yoxsa təhsil?**

- Təhsil ön planda deyil. Bu gün mühəndislik ixtisasını bitirib çox gözəl yazı qabiliyyətinə malik ola bilərsən. Jurnalistika ixtisasını bitirənlərin hamısı jurnalist olası deyil. Jurnalistika çoxşaxəli olmalıdır. Əvvəllər bu var idi. Məsələn, mədəniyyət sahəsində yazanlar bu sahənin adamı olardı, kənd təsərrüfatından yazanlar o sahənin adamı olurdu və s. Düşünürəm ki, belə ixtisaslaşmanın olması daha doğrudur. Bu gün bizə hərbi sahəni bilən jurnalistlər lazımdır. Ümumiyyətlə, yazı qabiliyyəti olan hər bir kəs jurnalist ola bilər.

**- Bu gün jurnalistikaya, jurnalistlərə münasibət, sizcə, hansı səviyyədədir?**

- Biz gələcəyin sahələrini, ixtisaslarını öyrənib onlarla maraqlanmalıyıq. Gedib hansısa bir universiteti bitirib diplom alıb savad ala bilmirsənsə, oxumağın sadəcə vaxt itkisidir. Jurnalistika bu sahələrin yayılmasına, populyar olmasına zəmin yaradır.

**- Müsahibələrinizin birində demişdiniz ki, yazmamağınızın səbəbi ümidsizlikdir. Ümid nədən yaranır?**

- İndi insanlar ümidsiz olub, sabahının necə olacağından nigarandır. Bu, həm də həyat tərzidir. Optimist adamlar da var. Son zamanlar nə qədər optimist olmağa çalışsam da, ola bilmirəm. Gənclər xüsusilə optimist olmalıdır, onların güclü, enerjili, həyata ümidlə baxan vaxtlarıdır. Həyatın bizə nə bəxş edəcəyini bilmirik. O qədər qeyri-müəyyənlik var, düşünürsən ki, ilahi, axı bunu niyə belə edirlər? Elə şeylər baş verir, düşünəndə görürsən ki, bunu edən böyük qüvvələr var və onlara yaxın olmalısan.

**- Gənc nəslin potensialını necə qiymətləndirirsiniz? Yazıları ilə diqqətinizi çəkənlər olurmu?**

- Təbii ki, var. Gənclərə ümid etmək, inanmaq lazımdır. Bunun yoxluğu ümidin itirilməsidir. Həyatı ancaq onlar irəli apara bilərlər. Yaşlı nəsillərə sadəcə hörmət etmək lazımdır, güc isə ancaq gənclikdədir.

**- "Ədalət" qəzetinin baş redaktorusunuz. Oxucular bu gün yazılı mətbuatdan daha çox, sosial şəbəkələrə meyl göstərirlər. Sizcə, bu, nədən irəli gəlir?**

- Sosial şəbəkələrdə hər hansı mövzu ilə bağlı yazılar çəkici başlıqlarla paylaşılır. Bu zaman isə insanlar özlərinə faydalı ola biləcək məlumatla maraqlanmırlar. Kimsə öz qayınanasını öldürübsə, bunu paylaşmaqla nə qazanırsan? Cinayətkarlığı təbliğ edirsən? Bu məsələdə mənim qəbul etmədiyim çox məqamlar var. Amma bunlar tək mənim deməyimlə də düzələsi də deyil. Ümumiyyətlə, əsaslı ideologiya mütləq və vacibdir. Yoxsa biz bu şəkildə hara gedirik? Trend nədir?

**- Niyə insanlar üzdə olan simaları hədəf götürməyə çalışırlar? Hansısa başlıq altında onları əzməyə çalışmaq istəyi nədən irəli gəlir?**

- Fərz edin ki, ikimiz şəhərə çıxırıq və qarşımıza bir tanınmış sima çıxır və qışqırır. İndi biz onu o şəkildə təqdim eləsək, görün ona nə qədər adam baxacaq. Məşhurdur, axı. Məşhur insan barəsində müsbət yazı yazılsa, baxış sayı az olacaq, amma onun haqqında hər hansı bir yalan məlumatı mediaya sızdırsan, çox oxunacaq.

Hələ o şəxs barədə öz düşüncələrini də əlavə edəcəklər. Bu, düşünürəm ki, insan xislətindən irəli gəlir. İnsan özü qazana bilmədiyi nələrisə kimdəsə görəndə qıcıqlanır, əsəbləşir və ona hər cür iftira atmağa meyilli olur.

**- Ölkədə mediaya nəzarət üçün aidiyyatı orqanlar var. Bəs sosial şəbəkələrə nəzarət olunacaqmı?**

- Bütün dini kitablar insanları haqq yoluna çağırır. Ona qulaq asan, əməl edən var? Xeyr. "Qurani Kərim"ə, "İncil"ə əməl etməyənlərin MEDİA Agentliyinə qulaq asacaqlarını düşünmürəm. Mədəni səviyyə artmalıdır.

**- Bu problemi cərimə yolu ilə aradan qaldırmaq olarmı? Məsələn, pandemiyanın sərt günlərində küçəyə çıxmaq, maska taxmaq, qapalı məkanlarda toyların keçirilməməsi kimi qadağalarla qarşılaşdıq. Bu şəkildə hər birimiz bir hədəfə vuraraq bu bəlanı üstümüzdən ata bildik. Bu üsul sosial şəbəkə üzərində də tətbiq edilsə, vəziyyət düzələ bilərmi?**

- Düşünürəm ki, cərimələr həyatımızda çox şeyi həll edə bilər. İndi maşın sürənlərin hər biri kəmərdən istifadə edir. Yaxud siz qeyd etdiyiniz kimi, karantin qadağaları. Cərimə insanların davranışına çox böyük təsir göstərə bilir.

**- Jurnalistika dördüncü hakimiyyət hesab olunur. Bu fikirlə bağlı nə deyə bilərsiniz?**

- Hakimiyyətin müxtəlif qolları var. Mətbuat da bu qollardan biridir. Demokratiyanın tüğyan etdiyi yerlərdə də bu var. Məsələn, hansısa bir hadisə olur və öncədən məlumat verilir ki, biz bunu edəcəyik, hansısa mətbuat orqanı da bu barədə yazacaq. Məsələn, Amerika İraqa girir və bu barədə ancaq CNN yaza bilər. Yəni hər bir toplumun öz maraqları və bu maraqlara uyğun da adamları var. Bütün dünyada bütün ideologiyalar da məhz mətbuat vasitəsilə yayılır. İndi insanlar böyük həcmli kitablar oxumağa maraqlı deyil. İlk məqam olur ki, jurnalistika dördüncü yox, hətta deyərdim ki, elə birinci hakimiyyətdir.

**- Bu hakimiyyət yaxın gələcəkdə nə kimi fəsadlar verə bilər, yaxud uğur qazandırar?**

- Fəsadlar göz qabağındadır. İnsanlar artıq doğru sözə qulaq asa bilmir. Doğru sözün maraqlı olmamasının özü elə bir fəsaddır.

**- Sosial şəbəkələrin müxtəlif qolları var - feysbuk, instaqram və bir də nisbətən daha bayağı forması - tik-tok var. Sizcə, ola bilməzmi ki, o bayağı formanı elmi formaya gətirə bilək? Məsələn, sitatlar paylaşılsın, elmi-kütləvi yazılar paylaşılsın. Bu yolla izləyicilərin bayağılığa meylini azaldıb düzgün istiqamətə kökləmək olmazmı?**

- Bununla bağlı xüsusi institutlar fəaliyyət göstərir. Bu, onların işidir və buna onlar nəzarət etməlidir. Tik-toku Çin, o biriləri Amerika yaradıb. Sənin gücün yalnız sənin öz yaratdığına çata bilər. Yoxsa ki, yalnız dilə yeni sözlər gətirməklə bu, mümkünsüzdür, "şpilka"ya "ipəzor" deməklə iş bitmir.

**- Siz xeyli müddət televiziyada çalışmısınız və bir sıra maraqlı, uğur qazanmış layihələriniz olub. Bu gün teleməkanlarda gedən verilişlər sizi qane edirmi?**

- Yazılı mətbuatda da, teleməkanda da eyni proses gedir. Ağıllı sözü eşidə biləcək tamaşaçı bu gün yox səviyyədədir. Bizim dövrdə həmişə şairə, sözə inanmaq kimi bir ənənə var idi. Bəzən nəsrin populyar olmadığı dönəmlərdə böyük elmi əsərlər şeir dilində yazılardı. Biz bu gün mədəni mühitdən uzaqlaşırıqsa, düşünürəm ki, o zaman həbsxanalar tikmək üçün vəsait ayırmalıyıq. Əxlaqdan naqis adamların yetişdiyi cəmiyyət qorxulu cəmiyyətdir.

Ona görə də mütləq şəkildə ideoloji əsaslar yaratmalıyıq. Təəssüflər olsun ki, televiziyalar şəxsi meyarları nəzərə alır. Amma birinci növbədə milyonların sevgisini qazanmaq lazımdır.

**- Söhbətimizi sevimli Xalq şairimiz Məmməd Arazın bu misraları ilə tamamlamaq istərdim:**

*Səndən mənə bir ömürlük xatirə,*
*Məndən sənə nə qalacaq, nə bilim...*

**İradə Tuncaydan jurnalistikada nələr qalacaq?**

- Bu barədə danışmaq çətindir. Özümə müəllim hesab etdiyim şəxsiyyətlər olub. Mütaliəmi beynimdə sistemləşdirə bilmişəm. Adam var ki, çox oxuyur, lakin tətbiq edə bilmir.

Amma mən hər kəsin yerinə də bir söz deyə bilmirəm. Bu gün gənclərin bir qisminin mənə meyilli olması xoşdur. Həmişə çalışmışam ki, gənclərə nəsə kömək edim. Özümüzü qorumağı bacarmalıyıq. Bunun əsas yollarından biri də mətbuatdır. Leninin gözəl bir fikri var: "Oxumaq, oxumaq, yenə də oxumaq". İstərdim ki, gənclərimiz çox oxusunlar, oxumağa ərincəklik etməsinlər. Arzu edirəm ki, hər şey yaxşı olsun.

**Şəlalə CAMAL**
**525.az**

---

*Mehman CAVADOĞLU*

# Ukrayna labirinti: vasitəçilər çoxaldıqca çıxış daralır

*Rusiya-Ukrayna münasibətlərindəki gərginlik, daha doğrusu, Rusiyanın Ukraynaya ehtimal olunan əsgəri müdaxiləsi ətrafında baş verən hərbi, siyasi və diplomatik vurnuxmalar artıq bir neçə aydır ki, beynəlxalq gündəmin prioritet mövzusu olaraq qalmaqdadır. Təhlükəli məcrada cərəyan edən hadisələr öz dramatizmiylə bəzən faşist Almaniyasının Sudet vilayəti ətrafında durquzduğu hoqqaları da üstələyir. Xatırladaq ki, faktiki olaraq ikinci dünya müharibəsinin proloqu sayılan Sudet böhranında İngiltərə və Fransanın sərgilədikləri ehtiyatlı mövqe və qorxaq davranış Hitlerin əl-qolunu daha da açmış, nəticədə proses vilayətin almanlar tərəfindən işğalını rəsmiləşdirən biabırçı "Münhen sazişiylə" yekunlaşmışdı.*

*Bu günsə hadisələri daha çox Qərbin sərt və güzəştsiz mövqeyi körükləyir. Təbii ki, indi zaman yüz il əvvəlki zaman deyil və Qərb deyəndə ilk növbədə ABŞ nəzərdə tutulur. Hazırda Avropanın ABŞ-dan müstəqilliyi təxminən keçmiş SSRİ respublikalarının Moskvadan müstəqilliyi səviyyəsində bir şey olduğu üçün Putin də yeni təhlükəsizlik sistemininin yaradılmasını Avropayla yox, ancaq ABŞ və NATO ilə müzakirə etməyə həvəs göstərir. Keçən ilin sonlarında təhlükəsizlik məsələləriylə bağlı Rusiyanın tələbləri əks olunmuş eyni məzmunlu iki məktubun, daha dəqiq desək, müqavilə mətninin Avropanın başı üzərindən yalnız Şimali Atlantika Alyansının və "Ağ ev"in başçılarına göndərilməsi də sübut edir ki, bugünkü hərbi-siyasi reallıqlar konteksində Avropa Birliyi Kremldən ötrü yalnız cəlbedici iqtisadi partnyordan başqa bir şey deyil.*

*Yeri gəlmişkən, artıq Vaşinqton və Brüssel Rusiyanın sözügedən məktubuna rəsmi cavab göndərib. Onlar Kremldən fərqli olaraq diplomatik etika qaydalarına əməl edərək cavab məktubunun mətnini ünvanına yetişməmiş mətbuatda dərc eləməsələr də, rəsmi şəxslərin diliylə açıqlanan bəzi detallardan məlum olur ki, Moskvanın heç bir istəyinə müsbət cavab verilməyib. Yəni, NATO nəinki 1997-ci illərdəki sərhədlərinə qayıtmayacaq, hətta Şərqə doğru genişlənməkdə davam edəcək və məqamı çatanda keçmiş SSRİ sərhədlərinin içinə də soxulacaq. Vaxtilə həmin sərhədləri tikanlı məftillərlə hətta Varşava paktındakı ən yaxın müttəfiqlərindən qoruyan Kreml nədənsə bu sərhədlərin öz "bakirəliyini" hələ 2004-cü ildə, yəni Baltik ölkələri Alyansa üzv olarkən itirdiyini "unudur" və hər fürsətdə israrla bunu özünün qırmızı xətti elan edir.*

*Moskvanın Avropanın yeni təhlükəsizlik düzənini onun öz iştirakı olmadan müzakirəyə çıxarmaq cəhdləri təkcə "Qədim qitə"nin yox, elə Amerika rəsmilərinin özü tərəfindən də az qala top-tüfənglə qarşılandı. Ağ evin mətbuat katibi xanım Psaki ABŞ-ın Avropanın təhlükəsizliyini şübhə altına salacaq əsas prinsiplərlə bağlı məsələlərdə kompromisə getməyəcəyini söylədikdən sonra birmənalı şəkildə bəyan elədi: "Biz Avropa müttəfiqləri və tərəfdaşlarımızın başı üzərindən Avropanın təhlükəsizliyi ilə bağlı heç kimlə heç bir danışıq aparmayacağıq". Bu sərt ritorika Avropanı öz gələcək taleyinin müəyyənləşdirilməsi prosesindən kənarda saxlamaq istəyən, üstəlik, bu hiyləgər niyyəti müttəfiqlər arasında nifaq toxumu səpməklə gerçəkləşdirməyə çalışan Moskvanın planlarının üstündən yağlı bir xətt çəkdi.*

*Ancaq ABŞ-ın müttəfiqlərinə hədsiz isti qucaq açması Böyük Britaniya və öz ölkələrinin təhlükəsizliyi ilə bağlı instinktiv bir xof yaşayan, nəinki regionun, heç idarə etdikləri məmləkətin təhlükəsizlik düzəninin qorunmasında belə xüsusi paya sahib olmayan bəzi Şərqi Avropa ölkələrinin başçıları istisna olmaqla qarşı tərəfin siyasətçiləri arasında adekvat reaksiya doğurmur. AB-nin iki aparıcı dövləti olan Fransa və Almaniyanın proseslərə fərqli yanaşması hazırkı həssas məqamda bir tərəfdən Rusiyanın maraqlarına xidmət edirsə, digər tərəfdən onun cilovlanması üçün olduqca vacibdir. Çünki sağlam düşüncədən xeyli uzaq olan Rusiyanın güclü bir nüvə dövləti olması onunla ehtiyatlı davranmağı və hər necə olursa-olsun anlaşmağı apriori zəruri edir.*

*Emmanuel Makronun Moskva səfərinin ardınca çox nikbin açıqlamalarla çıxış eləməsini danışıqların uğurlu keçməsinin əlaməti saymaq olar. "Vladimir Putinlə Moskvadakı danışıqlar öz hədəfinə çatdı, Ukrayna ətrafında yaranmış vəziyyətin bundan sonra daha da gərginləşməyinin qarşısını almağa kömək elədi. Mən vəziyyətin daha da pisləşməsinin və gərginləşməsin qarşısını almağa nail oldum. Gərginliyin qarşısını almaq və yeni perspektivlər açmaq məndən ötrü çox vacib idi. Mənim bu məqsədim gerçəkləşdi" - deyə o Fransa mediasına müsahibəsində bildirib.*

*Böyük Britaniyada nəşr olunan nüfuzlu Financial Times qəzeti də öz mənbələrinə istinadən səfərin uğurlu olduğu barədə məlumat versə də həmin məlumatdakı bir məqam olduqca maraqlı təsir bağışlayır. Putinlə Makronun Rusiyanın bundan sonra heç bir "hərbi təşəbbüsdə" bulunmayacağı və Moskvanın silahlı qüvvələrinin cəbhə boyu yerləşdirilməsiylə bağlı dialoqda iştiraka razılaşmasıyla bağlı anlaşdıqlarını yazan qəzet ardınca çox vacib məqama toxunur: "Hazırda Kremldə Makronla əldə olunan razılıqların Vaşinqton tərəfindən bəyənilməsini gözləyirlər". Belə çıxır ki, Makron-Putin razılaşmaları qüvvəyə minmək üçün Baydenin təsdiqinə göndərilib. Bunun acı bir gerçəklik, yoxsa qəzetin qara yumoru olduğunu söyləmək xeyli çətin görünsə də ən azından bir nüvə dövləti kimi Fransanın imicinə vurulan tərs zərbə olduğu heç bir şübhə doğurmur.*

*Üstəlik, hər nədirsə Putinin işinə yarayan unikal bir açıqlamadır. Yəni, böyük ehtimalla Bayden bu razılaşmaları təsdiqləməyəcək(!) və Putin Fransayla ənənəvi yaxşı münasibətlərini pozmadan Ukraynanı ram etmək siyasətini davam etdirəcək. Üstəlik, Rusiya guya hərbi təlim məqsədilə Belarusa göndərdiyi 30 min hərbiçinin çıxarılması barədə Makronla əldə olunmuş digər razılığı da pozmaq hüququ qazanacaq ki, hazırkı şəraitdə bu, Moskvaya hava-su kimi lazımdı.*

*Elə bu cür ziddiyyətli məqamlara görə Ukraynanın bir çox siyasətçiləri və ekspertləri Makronun öz səfərinin yekunları barədəki nikbin açıqlamalarını nəinki bölüşmür, hətta onu açıq-aşkar lağa qoymaqdan belə çəkinmirlər. Bu baxımdan tanınmış politoloq Yuri Romanenkonun aşağıdakı fikirləri çox maraqlıdı: "Makronun Putinlə birgə keçirdiyi mətbuat konfransındakı çıxışı müasir Fransa fəlsəfəsi sayaq mənasız söz yığınından ibarət idi. Makron bizə Avropa boşluğundan və Putinin boş təkliflərindən başqa heç nə gətirməyəcək".*

*Kiyevdə prezidentlərin görüşü uzandığı üçün dövlət başçıları jurnalistlərin qarşısına nəzərdə tutulan vaxtdan bir saat gec çıxdılar. Danışıqların yekunları barədə keçirilən mətbuat konfransını açan Zelenski dedi ki, Makronun Kiyevə gəlişi son 24 ildə Fransa prezidentinin Ukraynaya ilk səfəridir. Görüşdə əsas diqqətin Donbas ətrafındakı proseslərə və Ukraynanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsi məsələlərinə yönəldiyini söyləyən Zelenski nədənsə bu məsələlər barədə çox danışmadı, daha çox maliyyə-iqtisadi sahədə əldə olunana razılaşmalarta diqqəti çəkdi. Məlum oldu ki, rəsmi Paris Ukraynaya 1,2 milyard dollar maliyyə yardımı etməyi planlaşdırır ki, prezidentin qənaətinə görə bu da ölkə iqtisadiyyatının stabilləşdirilməsinə kömək edəcək. Daha sonra o, müxtəlif iqtisadi layihələrin gerçəkləşdirilməsiylə bağlı əldə olunan razılaşmalar haqqında da jurnalistlərə geniş məlumat verdi. Emmanuel Makronun nitqinin də Ukraynalı həmkarının çıxışı kimi daha çox iqtisadi əməkdaşlıq məsələlərinə həsr olunması, yəni hər iki liderin jurnalistləri və ictimaiyyəti daha çox maraqlandıran əsas problemin üstündən ötəri keçməsi təbii ki, təkcə Kiyevin yox, Rusiyanın və Avropanın siyasi kuluarlarında da xeyli təəccüblə qarşılandı və Romanenkonun yuxarıdakı fikirlərinin əyani təsdiqi oldu. Bu arada rəsmi Kiyevin AB-nin ikinci super dövləti sayılan Almaniya ilə də münasibətləri xeyli gərginləşib. Bu ölkədə təzəcə qurulmuş koalisiya hökumətinin Rusiya ilə münasibətlərdə öz sələfi Merkelin yolunu davam etdirməsi onun Qərbdəki bir çox müttəfiqlərində qıcıq yaradır. Özü də rəsmi Berlinin bu mövqeyi çoxlarının güman elədiyi kimi təkcə "Şimal axını-2" layihəsiylə bağlı deyil. Ümumiyyətlə, Berlin divarı yıxılandan bəri birləşmiş Almaniyanı idarə eləmiş bütün hökumətlər həmişə Rusiya ilə yaxşı münasibətlər saxlamaqda maraqlı olub, bəzi hökumət başçılarısa öz görəvini tərk edəndən sonra Rusiyada yaşayıb işləməyə üstünlük verməklə yanaşı həm də rəsmi Moskvaya açıq-aşkar lobbiçilik ediblər.*

*Son günlər Ukraynayla Rusiya arasındakı gərginliyi yatırtmaq üçün vasitəçilik etmək üstündə sanki böyük bir marafon başlayıb. İndi az qala hər yerindən duran sülh göyərçini obrazına girərək bu münaqişənin həllinə öz töhfəsini verib dividentini götürməyə çalışır. Ancaq Almaniyanın bu marafonda iştirak təşəbbüsü elə beşiyində boğuldu. Bir neçə gün əvvəl Zelenski rəsmi Berlinin məhz elə "Şimal axını-2" qaz kəməriylə bağlı mövqeyi ilə razılaşmadığı üçün ölkənin təzə xarici işlər naziri Annalena Berbokla planlaşdırılan görüşünü gözlənilmədən ləğv elədi. SNN televiziyasının aparıcısı Ceyk Tapperin Ukrayna hökumətindəki mənbəyinə istinadən verdiyi bu məlumatda deyilir ki, görüşün ləğvi rəsmi olaraq dövlət başçısının iş qrafikindəki dəyişikliklərlə əlaqələndirilsə də, əslində Zelenski bunu qəsddən edib. "Almaniya Şərqi Avropada və Kiyevdə daha çox Qərbin yox, Rusiyanın müttəfiqi kimi tanınır" - deyə C.Tapper söyləyib.*

*Hərçənd, hazırda Almaniyanın yeni kansleri Olaf Şolts da Vaşinqtonda səfərdədir və səfər proqramındakı prioritet mövzularından biri də məhz Ukrayna ətrafında cərəyan edən hadisələrin müzakirə eləməkdir. Odur ki, cənab Şolts digər Avropalı həmkarları kimi Kiyevə gəlib Zelenskiylə görüşmək istəsə Ukrayna prezidenti bu təşəbbüsü heç bir bəhanəylə bloklaya bilməyəcək. Həmin görüşün rəsmi Kiyevə konkret bir xeyri dəyməsə də dövlət başçısı bir iş gününü də alman həmkarına qurban verməyə məcbur olacaq. Onsuz da, prezident son günlər Kiyevin yolunu ağardan dürlü-dürlü vasitəçiləri rəsmi təmtəraqla qarşılayıb yola salmağa bir növ adətkərdə olub, necə deyərlər, artıq qonaqsız keçən gününü axşam eləməkdə çətinlik çəkir.*

---

*Vaqif Bayatlı*

## Güllələyin şairləri!

*Noldu birdən-birə, Mixail Yuriyeviç,*
*İndicə gülürdünüz?!*
*İndi qəbir tüfəng lüləsitək dar,*
*Elə bilirdiniz hamının Allahı var?*

*Diz çökün, cənab Martınov, diz çökün!*
*Fələyin zülmü çox, Allahın mərhəməti!*
*Diz çökün! Bir şair də söndü -*
*Sevdalar yaşılı, ocaq kösöyü,*
*Üstündə Allahı, üstündə göyü.*
*Gözlər hədəqədə, ölüm sinədə,*
*Alın yazısına, qara günə də,*
*bazarda soğanın qiymətinə də,*
*bir bəhanə gərək, bir bayıs gərək*
*Güllələyin şairləri! Sonra diz çökün!*

*Kimin günahı var, kimin ahı var,*
*Dünyanın nə qədər pis sabahı var.*
*Hamsına, hamsına şairlər bayıs!*
*Güllələyin şairləri! Sonra diz çökün!*

*Güllələyin qulaqları, oxşamayan təzə sözü,*
*Güllələyin damarlara sığmayan təzə qanı!*
*Güllələyin lirikanı, Lorkanı, Nerudanı!*
*Güllələyib güllələnmək əsridi,*
*Güllələyib güllələnin!*

*Qəbristanlıqlar ölüyə həsrət!*
*Dəlixanalar dəliyə həsrət!*
*Güllələyin şairləri!*

*Koroğlu zəncirdə, Qıratı darda,*
*Dəlləklər gəzirlər karetalarda.*
*İndi ağlayanlar güləcək gorda,*
*Gorda ağlayanlar güləcək harda?*
*Güllələyin şairləri! Onsuz da*
*Şairlər ölürlər yaz yağışından,*
*Arvad qarğışından, qız baxışından,*
*Dünyanın tələsik yır-yığışından,*
*Günahlı, günahsız şairlər ölür.*

*Güllələyin şairləri!*
*Ancaq tövbə gecəsi əynində soyxa,*
*qorxa-qorxa*
*Puşkinin yarasın öpməyə yüyürsün Dantes,*
*bir kilsə qapısında səhərəcən*
*böyürsün Dantes;*
*Bir də yol verin, yol verin cənab Martınova*
*yıxılan Lermontovu qucaqlamağa...*

---

## ABŞ hərbi gəmilərini Avropaya göndərdi



**ABŞ Hərbi Dəniz Qüvvələri NATO-nun genişlənməsi fonunda dörd hərbi gəmisini Avropaya göndərib. Bu barədə "USNI Nyus" məlumat yayıb. Məlumata görə, gəmilər ABŞ-ın 6-cı donanmasına və NATO üzrə müttəfiqlərə dəstək məqsədilə bir sıra dəniz əməliyyatlarında iştirak edəcək.**

Qeyd edək ki, Pentaqonun sözçüsü Con Kirbi ABŞ-ın Ukrayna ətrafındakı vəziyyətlə əlaqədar müvəqqəti olaraq Avropaya əlavə qüvvələr yerləşdirmək qərarını açıqlamışdı.

**MEHRİBAN**

---

## Novruz bayramı günlərində Şuşa istiqamətində avtobuslar hər gün olacaq

**Azərbaycan Respublikasının Ermənistan işğalından azad edilmiş ərazilərinin bərpası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması,**




**layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir.**

**Həmin şəhər və rayonlara Böyük Qayıdışın təmin olunması məqsədilə bütün zəruri tədbirlər görülür.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən Adalet.az-a verilən məlumata görə, bu istiqamətdə aparılan işlər çərçivəsində Azərbaycan xalqı üçün tarixi əhəmiyyəti və mədəni-mənəvi dəyəri yüksək olan Şuşa və Ağdam şəhərlərinə yanvarın 24-də ilk müntəzəm avtobus marşrutları istifadəyə verilib.

Marşrutların təhlili, həmçinin vətəndaşların çoxsaylı müraciətləri və tələbat nəzərə alınaraq mart ayında - Novruz bayramı günlərində Bakı - Şuşa - Bakı istiqamətində avtobus reyslərinin hər gün həyata keçirilməsi qərara alınıb. Biletlər artıq satışa çıxarılıb.

Qeyd edək ki, bu günə qədər Şuşa və Ağdama 27 reys uğurla həyata keçirilib. Fevral ayı üzrə bilet satışı artıq yekunlaşmaq üzrədir. Bakı - Şuşa - Bakı və Əhmədbəyli - Şuşa - Əhmədbəyli marşrutlarında isə bütün biletlər alınıb.

Bakı - Şuşa - Bakı istiqamətində fevralın 16-dan həftədə 2 dəfə deyil, 3 dəfə avtobus reysi həyata keçiriləcək. İlkin mərhələdə tətbiq edilmiş bir dəfə səfər etmək məhdudiyyəti aradan qaldırılıb.

Biletlər Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin müvafiq marşrut proqramı ilə inteqrasiya olunmaqla yaradılan www.yolumuzqarabaga.az portalı üzərindən onlayn qaydada satılır.

**Marşrutlar üzrə qiymətləndirilmələr və təhlillər davam etdiriləcək. Tələbata uyğun olaraq müvafiq qərarlar qəbul olunacaq.**



Hüsnü Mahalli

# Çoxbilmiş amerikalı

1979-cu ildə Sovet ordusu Əfqanıstanı işğal edəndə ABŞ eynilə Suriyada olduğu kimi onlarla silahlı qrupun qurulması və hər yerdə dəstəklənməsi üçün hər yola əl atdı. Bunu da Əfqanıstana qonşu Pakistan, Səudiyyə Ərəbistanı və BƏƏ-nin yardımı ilə etdi. Bu da bəs etməyincə ABŞ və müttəfiqləri əcnəbi cihadçıları Əfqanıstana yollamağa qərar verdi və bu iş üçün Usame Bin Ladinə Əl-QAİDƏ təşkilarını qurdurdu.

Daha sonra ABŞ-la İsrail mövzusunda anlaşılmazlığa düşən Bin Ladin başda ABŞ olmaqla hamının başına bəla oldu.

1989-cu ildə Sovet ordusu Əfqanıstandan çəkilən kimi cihadçı qruplar bir-birini didməyə başladı. Vəziyyəti düzəltmək istəyən ABŞ 1992-ci ildə Pakistan kəşfiyyatının yardımı ilə Talibanın qurulmasını və 1996-cı ildə Kabildə iqtidara gəlməsini təmin etdi.

Sonrası isə bildiyimiz hekayədir, çünki amerikalılar 2001-ci ildə Əfqanıstanı işğal etdilər, 20 il sonra buraxıb qaçdılar və Taliban yenidən iqtidara gəldi.

Müdhiş tamaşadır!

2011-ci ildə başladılan "Ərəb baharı" ilə bu dəfə Suriya ikinci Əfqanıstan oldu.

Qısa müddət içində onlarla ölkə və bu ölkələrin kəşfiyyatları Suriyaya girdi və yüzlərlə silahlı qrupun yaranmasına zəmin yaratdı.

ABŞ yeni şərtlərə görə yeni oyunçular tapmışdı.

Prezident Obamanın təlimatı ilə illərlə təqib edilib yeri bilinən Bin Ladin gizləndiyi Pakistanın qəsəbələrindən birində öldürüldü.

Bin Ladinin yerinə Misirin prezidenti Məhəmməd Mursinin katibi Məhəmməd Zavahirinin qardaşı Eymən Zavahiri Qaidənin lideri oldu.

O da Əbu Məhəmməd Colaniyə Qaidənin Suriya qolunu qur dedi.

Colani də daha əvvəl Əfqanıstanda Qaidənin sıralarında vuruşmuş, dünyanın dörd bir yanından terroristləri toplayaraq NUSRA təşkilatını qurdu.

O ərəfələrdə İraqda amerikan əsir düşərgəsindən çıxmış Əbu Bəkr Əl-Bağdadi İraq İslam Dövləti təşkilatını qurmuş, amerikalılara qarşı vuruşduğunu deyirdi. 2012-ci ilin sonuna yaxın Bağdadi İraqla kifayətlənməyib İraq Şam İslam Dövləti təşkilatını qurub Suriyaya yayılmağa başladı. Bir aralar NUSRA və İŞİD bir-birini diddi, amma İŞİD-in 2014-cü ilin iyununda Mosulu ələ keçirməsilə Türkiyə sərhəddinə bitişik İdlib və ətraf bölgələri NUSRA-ya qaldı.

2016-cı ildən sonra ABŞ İŞİD-dən qurtulmağa qərar verəndə NUSRA on minlərlə əcnəbi militanlarıyla güclənməkdə idi.

NUSRA-ya kömək etmək istəyən amerikalılar 2019-cu ilin 29 oktyabrında İŞİD lideri Bağdadini Türkiyəyə 7 km məsafədə NUSRA-nın nəzarət etdiyi İdlib bölgəsində öldürdü.

O dövrün prezidenti Tramp kəşfiyyatın yardımına görə PYD-yə təşəkkür etmişdi.

Üç gün əvvəl də İŞİD-in Bağdadidən sonrakı lideri Əl-Qureşi eyni ərazidə yenə amerikalılar tərəfindən öldürülmüşdü.

Türkiyə sərhəddindən 10 km aralıda, yəni türk əsgərinin və kəşfiyyatının çox aktiv olduğu bölgədə.

İraq səlahiyyətliləri Əl-Qureşinin yerinin tapılmasında ABŞ-a yardım etdiklərini dedilər, amma Bayden Demokratik Suriya qüvvələrinə, yəni PYD-yə təşəkkür etdi.

Ərəb mediasına görə ABŞ İŞİD lider və idarəçilərini təmizləyərək NUSRA lideri Colaninin yolunu açmağa çalışır. O da son zamanlarda amerikalılara mesaj göndərərək "Vallahbillaj, mən artıq ağıllanmışam və sizi çox sevirəm" deyirmiş.

On minlərlə militanı ilə Türkiyənin qorumasına olan İdlibi işğal edərək Rus və Suriya ordusuna qarşı dirənən NUSRA yeni dövrdə baş rolda ola bilər.

**Dilimizə çevirdi: Eminquey**

# Azərbaycan xalqı gənc nəsli narkomaniyadan qorumalıdır

**Bilirik ki, narkomaniya cəmiyyətin mənəvi və əxlaqi dəyərlərini iflic edən ən sarsıdıcı zərbədir. Məhz bu ictimai zəmini nəzərə alan ölkə prezidenti İlham Əliyev demişdir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və insanların sağlamlığı sosial sahədə prioritet məsələlərdən biridir. Çünki sağlam millət, sağlam cəmiyyət, əlbəttə ki, hər bir ölkənin inkişafı üçün çox vacibdir".**

Əslində, bu sözlər, ölkəmizdə həyata keçirilən sosial siyasətin milli genefondun qorunmasına istiqamətləndiyini əks etdirən və olduqca mühüm zərurət kəsb edən sözlərdir. Dövlət başçısının bu çıxışı hamının qarşısında daim bir məqama nəzər salmaq məcburiyyəti qoyur; yəni, narkomaniya ilə mübarizə bütün cəmiyyətlərin mübarizə haqqıdır və hamı bu istiqamətdə öz üzərinə düşən işi görməlidir. Əgər belə bir çətin işin öhdəsindən gəlinsə, davamlı inkişaf, həyata keçirilən siyasi, iqtisadi, sosial və mədəni islahatlarla yanaşı, cəmiyyətin sağlamlığı da normal hal alar. Bu baxımdan gənc nəsli hər cür zərərli vərdişlərə aludəçilikdən qorumaq üçün maarifləndirici tədbirlər görülməli, xüsusilə narkomaniya ilə mübarizəyə xüsusi diqqət yetirilməlidir. Heç şübhəsiz, narkomaniya cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə zərbə vurmaqla bərabər, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların sağlamlığına təhlükə yaradan, cinayətkarlığın artmasına səbəb olan amildir. Buna görə də qabaqcıl dünya dövlətləri narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını və narkomanlığın müalicəsi metodlarını daha da təkmilləşdirmək sahəsində səylərini daha da artırırlar. Bu, ölkəmizdə də vacib tendensiya kimi daim nəzarətdə saxlanılır. Bu bəşəri bəla ilə mübarizə Azərbaycan üçün əlbəttə, çox aktual ictimai və sosial məsələdir. Ölkəmizdə bununla bağlı müvafiq dövlət proqramları çərçivəsində ardıcıl siyasət, zəruri tədbirlər, o cümlədən maarifləndirmə işi həyata keçirilir.

Bəllidir ki, narkomaniya ilə mübarizədə ilk addım maarifləndirmədir. Əhalinin, xüsusən gənclərin narkomaniya və onun törətdiyi xəstəliklər haqda məlumatlarının, biliklərinin az olması ağır nəticələrə yol açır. Bunu qismən də olsa aradan qaldırmaq üçün təbliğat və profilaktika işlərinin daha düzgün, effektiv aparılması çox vacibdir. Bu baxımdan tədris müəssisələrində həyata keçirilən tədbirlər xüsusi önəm kəsb edir.

Narkomaniyanın fəsadlarının cəmiyyətin, özəlliklə yetişən nəslin diqqətinə çatdırılması, bununla bağlı yaradıcı meyillərin təşviq edilməsi məqsədilə bütün istiqamətlər üzrə təbliğat işlərinə start verilməlidir. Ən azından, yetişən nəsillərin diqqətini bədii ədəbiyyata, mədəni verilişlərə, teatr və tamaşalara, kitofilmlərə, bir sözlə, həyati zərurət kəsb edən məsələlərə yönəltmək daha məqsədəuyğun sayılır.

Narkomanlığın gətirdiyi bəlalar barədə ictimai maarifləndirmənin, xüsusilə yeniyetmə və gənclər arasında təsirli təbliğat işinin aparılmasında həyata keçirilən tədbir və layihələrlə bərabər, onların kütləvi informasiya vasitələrində işıqlandırılması da mühüm əhəmiyyət kəsb edir, yəni bu istiqamətdə medianın da rolu çox önəmlidir.

Təəssüflər olsun ki, xəstəliklər kimi narkomaniya da "gəncləşib". Yəni, artıq 9-14 yaşlı uşaqların da narkomaniyaya qurşanması adi hal alıb. Bu, sadəcə, ürək ağrıdır. Biz dəfələrlə demişik ki, narkomaniya ilə mübarizə ən birinci olaraq ailədən başlamalıdır, ancaq yenə də bunun bir faydası olmur. Bəzən azyaşlı uşaqlar nəzarətsiz qalır, pis vərdişlərə tel aludə olurlar. Bunun üçün də əlbəttə ki, valideyinin üzərinə böyük məsuliyyət düşür. Valideyinlər körpə yaşlarından öz uşaqlarına narkotikanın - "ağ ölüm"ün nə olduğunu başa salmalı, onlara faktoloji materiallar təqdim etmlidirlər. Heç olmasa, bununla onlar uşaqlarının pis vərdişlərə erkən qurşanmanın qarşısını almış olarlar. Təbii ki, bu gün narkomaniyanın yayılmasında internetin də rolu az deyil. Nəzərə alsaq ki, bu gün hər beş uşaqdan dördü internetdən istifadə edir, faciənin qaçılmazlığı çılpaqlığı ilə diqqət çəkir. İnternet təkcə uşaqları deyil, yeniyetmə və gəncləri, hətta orta yaşlı insanları da narkomaniyanın əsirinə çevirir. Əslində, biz internet üzərindən narkotik vasitələrin satışı ilə bağlı demək olar ki, hər gün nə qədər cinayətin üstünün açıldığını görürük. Bu, o anlama gəlir ki, internet narkotik vasitələrin satışı üçün əlverişli məkana çevrilib. Digər bir təhlükə isə son dövrlərdə daha çox gündəmə gələn psixotrop maddə - "patı" və "şüşə" adlanan metamfetaminin və heroinin yayılmasıdır. Çox təəssüf ki, bu maddələrin təsirindən gənclər ölür, ailələr faciə yaşayır. Bu da vacib bir nüansa diqqət yetirməyi tələb edir ki, biz cəmiyyət olaraq narkomaniya ilə mübarizədə fəal olmalıyıq. Narkotik maddələrin gənclər və yeniyetmələr arasında daha çox yayılma təhlükəsini nəzərə alaraq, bir çox ölkələrdə "Narkotiksiz gələcək naminə" milli proqramların qəbulu da, təbii ki, sağlam gələcəyimiz üçün məsuliyyət hissindən yaranan vətəndaş borcudur. Bu gün biz hamılıqla dünyanı ağuşuna alan narkomaniyaya, "ağ ölüm"ə yox deyib, bu ölüm kabusuna qarşı birgə mübarizə aparmalıyıq. Müasir dövrümüzdə narkomaniya insanlığa bir bəladır. Təəccüblüdür ki, bu bəlaya ilk olaraq uşaqlar yoluxur. Narkotik maddə alverçiləri uşaqları asanlıqla öz girovlarına çevirməyə nail oldular. Beləliklə, gəncliyin məhvi və ölümü üzərində özlərinə kapital toplamaq narkomafiya üçün əsas məqsədə çevrilir. Bu zaman nəinki bir ölkənin, eyni zamanda, dünyanın gələcəyi təhlükə qarşısında qalır.

Narkomaniyanın daha çox yayıldığı dövrü araşdırarkən məlum olur ki, hələ keçən əsrin 60-cı illərində gənc sənət adamları arasında narkotik maddələrin qəbulu özünəməxsus həyat tərzinə çevrilmişdi. Dəbə "uğramış" insanlar bunu cəmiyyətdən heç də gizlin saxlamır, əksinə, bəzən sənət uğurlarını narkotik maddələrin qəbulu ilə əlaqələndirirdilər. Bu sənətçilərin pərəstişkarları da özlərini onlara oxşatmağa çalışaraq narkotik maddə qəbul edirdilər. Həmin dövrdən xeyli vaxt keçməsinə baxmayaraq, hələ də narkomaniya ilə məşğul olanlar bu aludəçiliyin insanı ağır problemlərdən xilas etməsi kimi zərərli xülyalarını yaymaqda davam edirlər. Bəşəriyyət isə sanki "ağ ölümlə" mübarizədə acizliyini göstərməkdədir.

Narkotik maddələrin gənc nəsil arasında yayılmasının qarşısını almaq məqsədi ilə dünyanın bir çox ölkələrinin qəbul etdiyi milli proqramlarda nəzərdə tutulan müddəalar uğurla yerinə yetirilir, həyəcan təbili səsləndirirlər.

Qəbul edilən milli proqramlara əsasən, təhsil ocaqlarının, ictimai təşkilatların əsas vəzifələrindən biri narkomaniyaya qarşı maarifləndirmə və təbliğat işinin aparılmasıdır. Bu mübarizə işi kütləvi informasiya vasitələri, o cümlədən internet şəbəkəsi vasitəsi ilə həyata keçirilir.

Narkomaniya bəşəriyyətin ən qorxulu və təhlükəli bəlasına çevrilib. Eyni zamanda, bəşəriyyətin ən qorxulu xəstəliklərinin mənbəyi də elə narkomaniyadır. Ona görə qorxulu ki, bu bəlaya mübtəla olanlar əksər hallarda onu dəf etməkdə aciz qalırlar.

Bir anlıq narkomaniyanı Sibir meşələrindəki bataqlıqlara bənzədək; orada yaşayan heyvanlar o bataqlığa düşür və sonra oradan çıxmaq üçün çırpınır, amma, əksinə, hər hərəkətində daha da batırlar. Narkomaniya da elə bir bataqlıqdır - belə deyək, narkotikadan istifadə insan həyatı üçün həmin o bataqlıqdan heç də az təhlükəli deyil.

Tibbi təcrübələr göstərir ki, narkomaniya ilə mübarizə aparmaq çox çətindir. O bəladan xilas olmaq çox az insana qismət olur. Narkotikə qurşanmış əksər insanlar isə bu bataqlıqda məhv olub gediblər.

Narkomaniyaya aludəçilik orqanizmin zəifləməsi, bədənin arıqlaması və fiziki gücün düşməsi ilə nəticələnir. Orqanizmin zəhərlənməsi daxili orqanların - qara ciyər və böyrəyin zəhərlənməsinə gətirib çıxarır. Narkomaniyanın yaratdığı ən geniş yayılmış xəstəlik də "Hepatit B"dir.

Narkotik maddələrin qəbul edilməsinin əsas dəhşətli faktı bir neçə dəfə ondan istifadə edən insanın asılılıq yaratması faktıdır. Narkotik maddəni daim qəbul edən şəxsin bədənin tələb etdiyi vaxtda qəbul etməməsi həmin şəxsdə psixoloji gərginlik yaradır və əsəbləşdirir, onu narkotik maddənin tapılması və qəbul edilməsi üçün vəsait və ya imkanlar axtarmağa vadar edir. Bu şəxsin özünü əsəbi aparması və psixoz durumunda olması ətrafda olan insanlarda qorxu və diskomfort hissi yaradır. İnsan artıq heç bir işlə məşğul ola bilmir, növbəti "doza" üçün hər növ alçalmağa, iyrənc hərəkət etməyə məcbur olur. Narkotik qəbul etdikcə ədəbsizlik və yalançılıq başlayır. Bütün maraqları, ümidləri və qarşısına qoyduğu məqsədləri getdikcə sönür.

**Azərbaycan xalqı gənc nəsli narkomaniyadan qorumalıdır.**

**Rövşən Əmrahov,**
**Sabirabad rayon prokurorunun müavini, kiçik ədliyyə müşaviri**

Emin Piri



# Radioda bir saat

*Aylar öncə radioların birindən zəng etdilər ki, Emin bəy, həm şair, həm də müharibə iştirakçısı kimi istərdik verilişimizin qonağı olasınız. Şou, ailə-məişət mövzulu verilişlərə getmədiyimdən hansı veriliş olduğuna önəm verirəm. Bir saat olacaqdı. Yeganə qonaqsa mən. Özüm-özümə düşünürəm ki, bir saat nə danışacam?*

*Nə isə, getdim, veriliş başladı. Saat tamamı olduğundan öncə saatın xəbərləri təxminən beş dəqiqə çəkdi. Bundan sonra aparıcı Vətən müharibəsi, şeir, ədəbiyyat və.s haqqında 6-7 dəqiqə danışdı. Daha sonrasa "bu gün bizim gözəl qonağımız var və.s.i. amma qonağımızı sizə reklamlardan sonra təqdim edəcəyik"dedi.*

*Reklam da bir neçə dəqiqə çəkdi. Baxdım ki, artıq verilişin 20 dəqiqəsi bitib. Bu dəfə aparıcı nəhayət məni təqdim etdi. Daha sonra bildirdi ki, qonağımıza suallarımız olacaq, inanırıq ki, verlişimiz gözəl keçəcək. Ardıyca bir neçə vətənpərvərlik şeiri oxudu. Hardasa beş dəqiqə bu çəkdi. Sonrasa bildirdi ki, əməkdaşları hanısa muzeydən reportaj hazırlayıblar, onu dinləyək. 4-5 dəqiqə də bu sujet çəkdi.*

*Nəhayət, verilişin yarsında mənə çönərək Emin bəy, "qələbə necə hisdir?" sualını verdi.*

*Mənsə ağzımı açıb nəsə demək istəyirdim ki,aparıcı anidən, "Emin bəy, gözəl müğənnimiz filankəs telefon bağlantısına qoşulub" dedi.*

*" Bildiyiniz kimi müğənnilərmizin müharibə dövrü böyük fəaliyyəti olub, istər təbliğat fəaliyyəti, istərsə hərbi vətənpərvərlik mövzularda mahnılarıyla xalqımıza, ordumuza dəstək olublar" deyimləri.*

*Beləcə xanım müğənni ilə 10 dəqiqə telefon bağlantısı oldu.*

*Bunun ardıyca aparıcı bildirdi ki, sponsorlar olmadan belə gözəl verilişlər ərsəyə gəlməz və.s. Sponsorlar haqqında bir neçə dəqiqə bəh-bəhli təqdimatdan sonra verilişin bitməsinə 15 dəqiqə qalmışdı.*

*Aparıcı bildirdi ki, növbəti saatda radionun qonağı bir müğənni olacaq. Onun haqqında, onun dəyərləri,əxlaqı, möhtəşəmliyi haqqında verilişə necə qoşalmaq olar, sual vermək olar və.s mövzusunda beş-altı dəqiqə danışdı.*

*Mənsə gözləyirəm nə vaxt ağzımı açıb danışmaq bir yana salam deyəcəm.*

*Növbəti 4-5 dəqiqəni isə artıq dinləmədiyim mövzuda danışdı. 55dəqiqədən artıq vaxt keçmişdi...*

*Aparıcı:*

*-Emin bəy, dəvətimizi qəbul edib gəldiyinizə görə təşəkkür edirik. İnanıram ki, həm sizin, həm də dinləyicilərin ürəyincə oldu. İndisə reklamlara bağlanırıq, ardıyca isə həm Azərbaycan, həm də dünyada baş verən ən son xəbərləri dinləyə bilərsiniz...*

*İki gün sonra həmin aparcı zəng etdi:*

*-Emin bəy, sizə hörmət etdik,qonaq çağırdıq. Zəng demirəm, heç olmasa Allahın bir çox sağolunu belə yaza bilərdiniz...*

## Qondarma "ombudsman"dan qıpqırmızı Qırmızı bazar və Taqavard yalanı: "Azərbaycan Ordusu..."

**Xankəndidə separatçı-terrorçu rejimin qondarma "ombudsmanı" Qeqam Stepanyan iddia edib ki, bu gün səhər saatlarında Azərbaycan hərbçiləri mülki əhalinin evlərini atəşə tutub.**

Adalet.az erməni mediasına istinadən bildirir ki, Stepanyan bu haqda öz Facebook səhifəsində məlumat verib.

Onun sözlərinə görə, hadisə cümə günü saat 05:50 radələrində baş verib:" Azərbaycan bölmələri Dağlıq Qarabağın Martuni (Xocavənd) rayonunun Qırmızı bazar və Taqavard kəndlərində dinc əhalinin evlərinə atəş açıb".





Qeyd edək ki, bu oyuncaq "ombudsman"ın ilk yalançı hay- həşiri deyil... Ötən il o, "Taqavard sakinləri qohumlarının məzarını ziyarət edə bilmirlər. İnsanların öz yaxınlarının xatirəsini ehtiramla yad etmək, həmçinin məzarlarını ziyarət etmək ixtiyarı var. Lakin Azərbaycan tərəfi anlayış nümayiş etdirmir və icma sakinlərinə imkan vermir"- deyərək belə bir status paylaşmışdı. Halbuki dinc əhali qəbiristanlığı da ziyarət edir, müxtəlif ayinlərdə həyata keçirirdilər. Sadəcə silahlı, terrorçu ermənilər mövqelərimizi atəşə tutduqda Azərbaycan ordusu buna laqeyd qalmır cavab atəşi ilə onları susdurur.



***P.S.** Buradan haqlı bir sual meydana çıxır: Mən 28 il ermənilərin işğal etdiyi Ağdam rayonunun Baş Qərvənd kəndindənəm. Kəndimiz işğalda qəbiristanlığımız bizdə idi. Hər dəfə doğmalarımız ziyarətə gedəndəyaxınlıqdakı erməni postlarından ziyarətçilər güllə, mərmi yağışına tutulurdu. Dəfələrlə insan itkisi və xəsarət alanlar oldu. Hətta xalam Dilşad Allahverdiyeva ziyarət zamanı baş nahiyyəsindən güllələndi və həkimlərin səyi nəticəsində həyatda qaldı.İndi Azərbaycan Ordusuna böhtan atarkən, 30 ildir Azərbaycanın doğma torpaqlarında etdiyiniz vəhşilikləri yadınıza salırsınızmı? Salmırsınızsa, mən xatırladım: Həyat bumeranqdı, heç kəs yaşatdığını yaşamadan ölməyəcək!*

**Əntiqə Rəşid**



İlhami Cəfərsoy

# KAXETİDƏKİ UCAR QALASI...

*Gürcülərin Kaxeti adlandırdırdıqları mahalın sakinlərindən biri Ucar türkləri idi. Onların qalası xristian salnaməçilərin əsərlərində Ucar, Uçar, Ucarma formalarında yazıya alınmışdır. Ucarlar Kür, Qax, Çolak nəsilləri ilə birlikdə İveriyanın baqrationla qədərki mədəniyyətini yaratmışlar.*

*Bu tarixi gerçəkliyi indiki gürcülər dansalar da, XIX əsrdə yaşamış bir çox tarixçilər təsdiq edirlər.*

*Yazırlar ki, Tiflislə Bərdə arasında Kür çayı boyunca kəndlərin, Qara yazı çölünün qədim sakinləri albanlar və türklər olmuşdur (İoseliani Platon. Rod knəzey Çolakaevıx. Tiflis, 1866; Xantadze Ş.A. Akademik Mari Brosse i Evropeyskoe qruzinovedenie. Tbilisi, 1970; Xaxanov A.S. Oçerki po istorii qruzinskoy slovesnosti. Moskva, 1895).*

*Kaxetidəki Ucar qalasında xristianlıqdan qabaq Ucarma adlı məbəd var idi. Xristianlıq dövründə həmin məbədi söküb yerinə kilsə tikdilər. Ucarma Ucar nəslinin ziyarətgahı deməkdir. Ucarma qalası 262-265-ci illərdə Bakurun nəvəsi Asparuxun, 456-464-cü illərdə İveriyanın Kimer əsilli hökmdarı Vaxtanq Qorq Aslanın iqamətgahı olmuşdur (Ançabadze Z.V. İz istorii srednevekovoy Abxazii. Suxumi, 1959; Şopen İ.İ. Novıe dannıe o Kavkaze i eqo drevnix obitateley. Sankt-Peterburq, 1866).*

*Bakur, Asparux, Qorq Aslan İveriyanı baqrationlarlardan əvvəl idarə edən türk hakimləridir. Bakur qaraçay və balkar dillərində qırmızı misə deyilir. Asparux börüdən, yəni qurddan böyük yırtıcı bir heyvanın adıdır.*

*Ucar isə Nuhun gəmisinin 4 adından biridir. Bizim babalarımız Nuhun yelkənli gəmisinə uçar, yəni uçar deyirdilər. Quşlar qanadları ilə göydə uçan kimi Nuhun gəmisi yelkənləri ilə sularda uçurdu.*

*Biz Qafqazda yaratdığımız xristian mədəniyyətinə yiyə durmalıyıq. Nə qədər ki, yiyə durmamışıq, ermənilər Dədəvəng kilsəsinə, gürcülər David Qaraca mağara-monastırlarına sahiblik iddialarından əl çəkməyəcəklər.*

## Şagirdlərin elektron yerdəyişməsinə başlanılır

**14 fevral saat 11:00-dan etibarən məktəbəhazırlıq qruplarına cəlb olunmuş uşaqların və I-X siniflərdə təhsil alan şagirdlərin elektron yerdəyişməsi prosesinə yenidən start verilir.**

Təhsil Nazirliyindən verilən xəbərə görə, şagirdlərin yerdəyişməsi prosesi www.sy.edu.az portalı vasitəsilə həyata keçirilir.

**Qeyd edək ki, buraxılış imtahanlarına görə XI sinif şagirdlərinin yerdəyişməsi tədris ilinin sonunadək aktiv edilməyəcək.**

# "VƏHŞİ YAŞMA" VƏ ƏSİRLƏR...

**Hər zaman əsirlər məsələsi müharibədən sonranın müzakirəsi və ya sənət mövzusu olub. Adətən erməni tərəfinin vəhşi kimi təqdim etdiyi, Azərbaycan tərəfdən isə az qala başkəsən, qəddar kimi qorxunc ifadə olunan "Yaşma". Bəli, əsir söhbəti, onlara davranış deyəndə adətən yada onlar düşər. Hər bir problemli məsələdə də, onlara yanaşmaqda da.**

Əsl mahiyyət nədir?

Qıraqda nə yaşanıb deyə bilmərəm, amma özünə, öz şahidliyinə cavabdeh kimi deyə biləcəyin, vicdanına sığanacağın bir şeyləri olur adamın.

Əvvəla, kimin nə deməyindən, bölmələrdən aslı olmayaraq bu kimi insani yanaşmalar vicdan məsələsidir.

Eyni zamanda bütün sahələrdə olduğu kimi nizam-intizamdan doğan nəsnələrdir. Vicdanla bərabər isə əsas məsələ təhsildir. Bəli, məhz təhsil.



Fərqi yoxdur, hansı sahədə, ixtisasdasan. Bu hərbiyə də aiddir.

Cəbrayılda toplanış yerindəyik. Təbii ki, müharibədən sonra ora-geriyə qayıtmışıq. Dedilər üç erməni əsir gətiriblər. Müharibədən sonra da tez-tez əsir düşənlər olurdu ki, bu da sürətli müharibə zamanı qaçmağa imkan tapmayanların gizləndiyi yerlərdə məlum olması, həmçinin yol azmaq və.s ilə əlaqəli idi.

-Komandir, adam döymək istəmirsiniz-dedi X.

-Döyülmək istəyirsən?-zarafatyana cavabladım.

-Üç erməni gətiriblər bəlkə keyfinə düşə, hirsini çıxasan.

Əsgərlərimin məchul baxışlarını gördüm. Sanki bir cavab gözləyirdilər.

-Heç nə deyə bilmərəm, amma onların yanında elə hissə düşə bilərsiniz ki, sonradan edə biləcəyiniz hərəkətə, əmələ görə ömür vicdan əzabı çəkə bilərsiniz...O vicdan əzabı sizi heç zaman rahat buraxmayacaq. Sonradan soruşdum, dediklərimin heç biri getmədi...

Bu məsələdən çıxaraq, bunun altını çizərək demək istərdim;

Bizim XTQ-mizə əsir düşən ermənilər gedəndən sonra qurban kəssinlər ki, yaxşı ki, XTQ-yə əsir düşüblər, digər bölmələrə yox. XTQ-yə əsir düşənlər xoşbəxt ermənilərdir. Sözün əsl mənasında hamınızın başkəsən, erməni tərəfinin vəhşi dediyi, beynəlxalq təşkilatlara kimi şikayət etdiyi bu bölmələr daha humanist, daha insancıl idi.

Səbəb psixoloji, nizam-intizam və hərbi təhsil və.s ola bilər, amma hər hansı nəticəni dəyişmir.

Bir çox hallardasa dediyimiz xüsusi təyinatlı qüvvələr o erməni əsirləri bizim digər bölmələrdən hətta qoruyub ki, onlara nəsə olmasın.

Əgər müharibəni idman və ya futbol oyunu kimi götürsək erməni əsirlərə qarşı davranışlara görə feyr-pleyr mükafatı əslində onlara(xtq) düşür, ermənilərin əks arqumentlərindən fərqli olaraq...

Bildiyim odur ki, müharibədə əlil olmaq olar, ölmək də olar, Allah düşmənimə də əsir düşməyi nəsib etməsin...

***P.S.** Şəkil simvolik olaraq seçilib.*

**Emin Piri**

## Türkoloq Melkonyandan proqnoz:

# "Ermənilər Türkiyənin "Bayraktar"ını unutmasın..."

**Ötən il Ermənistan və Türkiyə yaxınlaşmasının başlanğıc mərhələsində bədbin proqnozlar verib. Xalqını çaşdıran İrəvan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin dekanı, türkoloq Ruben Melkonyan tipik erməni əxlaqına məxsus həyasızlığına davam etməkdədir. Yadınızdadırsa, o, "Türklər bizdən "soyqırım"ın beynəlxalq səviyyədə tanınması ideyasından imtina etməyimzi və Türkiyənin ərazi bütövlüyünü tanımağımızı da tələb edirlər.**

"Türkiyə Ermənistanın dövlət institutlarının zəifləməsindən, hər şeydən öncə hərbi məğlubiyyətdən istifadə etməyə və fürsətkən həm də Ermənistanla erməni diasporunun münasibətlərini pozmağa, "soyqırım"ın beynəlxalq səviyyədə tanınması prosesinin üstündən çarpaz xətt çəkməyə çalışır"-deyə yalanla qidalanan xislətinə məxsus fikirlərlə gündəmi məşğul etmişdi. Nəinki dünya siyasətçilərinə, eləcə də siyasətlə məşğul olmayan adi insanlara da məlumdur ki, erməni xalqının bəlalarının kökündə müstəsna olaraq, elə Türkiyə və Azərbaycanla əlaqələrin qurulmasına daima əngəl olan diaspor dayanır.





Qaldıda ki, "Türklərin ermənilərdən "soyqırım"ın beynəlxalq səviyyədə tanınması ideyasından imtina etmə və ərazisini tanıma" prinsipinə, bunu hətta uşaqlar da anlayır ki, diplomatik və dostluq münasibətlərində nifrət, şiddət, ədavət olarsa, bu münasibətlər uzun sürməyəcək, az bir zaman sonunda iflasa uğrayacaq, gərginliyə çevriləcək. Professor Melkonyanın belə adi, sıradan olan qaydaları, yazılmamış qanunları bilməməsi mümkün deyil, sadəcə bilmək istəməsi xəstə təfəkkürə malik olmasının təzahürüdür.

.Adalet.az Sputnik Armenia-ya istinadən bildirir ki, erməni türkoloq Ermənistan hökümətinin Türkiyə ilə yaxınlaşma, diplomatik və ticari əlaqələr qurmaq cəhdlərini müşayət etdikdən sonra Paşinyanı yolundan döndərmək mümkün olmayacağını anlasa da, növbəti dəfə ədavət və yalan üstündə qurulmuş məntiq və xislətinə uygun açıqlama verib. O bildirib ki, ermənilər Ankaranın nəzakətindən təsirlənməməlidir, çünki Türkiyə "Bayraktar" məntiqinə çox tez qayıda bilər:"Türkiyə yumşaq gücdən istifadə edir və tədricən öz arsenalını genişləndirir və bu, Ermənistan tərəfi üçün problemlər yaradacaq. Ankara hələ də erməni maraqları ilə heç bir əlaqəsi olmayan mövqeyini gizlətmir. Çünki Ermənistanın xüsusi nümayəndəsi və bütövlükdə ölkənin indiki hakimiyyətində Türkiyənin addımlarını hesablamaq üçün peşəkarlıq və təcrübə çatışmır".

P.S. Mövzudan azacıq aralanıb bir misal çəkmək istəyirəm: Bilirsiniz, peşəkarların çəkdiyi köhnə Azərbaycan filmlərində istifadə edilən sözlər , cümlələr , məşhur frazalar hazırda el arasında atalar misalı kimi bir statusdadır. Çətinliyə düşəndə, fikrimizi tam ifadə etmək istəyəndə həmin məşhur frazalar yada düşür və yerində işləndikdə, sözün həqiqi mənasında atalar söz ola bilir. İndi bu İrəvan Dövlət

Universitetinin Şərqşünaslıq fakültəsinin dekanı, türkoloq Ruben Melkonyanın fikirlərinə reaksiya verməyə çalışdım. Amma söz tapa bilmədim. Bu vaxt yadıma "Yol əhvalatı" filmi düşdü. Sevimli aktyorumuz Siyavuş Aslanın o məşhur monoloqu: "Mənim sizi bura yığmaqda məqsədim odurki, sizinlə işləmək çox çətindir, sizdən adam olmayıb olmayacaq da", "Sən qələtivi elə söz verəndə danışarsan" .

Məncə, professora bu sözlər yetər.....

**Əntiqə Rəşid**

## Xankəndi - Şuşa yolunda avtomobil qəzası, Kiçik Qaladərəsində partlayış

**Xankəndi - Şuşa yolunda avtomobil qəzası baş verib. Adalet.az SputnikArmenia-ya istinadən bildirir ki, bu barədə oyuncaq "dqr"inoyuncaq daxili işlər nazirliyinin fövqəladə hallar üzrə dövlət xidməti məlumat yayıb.**



Hadisə fevralın 9-da, saat 17:35 radələrində baş verib. Yolun 10-cu kilometrliyində avtomobil Rusiya sülhməramlı qüvvələrinin zirehli texnikasına çırpılıb, ölən var.

Hadisə yerinə xilasedicilər və təcili tibbi yardım qrupu gəlib. Qəza nəticəsində Kəlbəcər şəhərində qeydiyyatda olan 35 yaşlı N.X. bədən xəsarətləri alıb və "respublika tibb mərkəzi"nə yerləşdirilib.

Bundan başqa sosial şəbəkələrin erməni seqmentinin məlumatına görə Xankəndi şəhərini qazla təmin edən magistral kəmərdə boru partladığından, şəhər qazsız qalıb. Partlayış nəticəsində bir yerli sakin həlak olub, dağıntılar var.

Xankəndidə yaşayan sosial şəbəkə istifadəçiləri bildiriblər ki, qəzaya KiçikQaladərəsi (Kirov) qəsəbəsindəki qaz kəməri hissəsində boru kəmərinə icazəsiz və qanunsuz qoşulma səbəb olub.

**Əntiqə**

# Elçin İsgəndərzadənin şeirlərində mənəvi dəyərlər və ya insan psixologiyasında poetik təsvirlər

**Mətn və onun ötürdüyü informasiya insan düşüncələrinə, davranışlarına və idarəetmə qabiliyyətinə birbaşa təsir etmiş olur. Mətn -yaddaş, qavrama, müşahidə və nəticə çıxarma baxımından çox önəmlidir. Poeziyada yaddaş, qavrama, müşahidə kimi meyarlar həm alt, həm də üst düşüncə səviyyəsinə görə dəyişir. Hegel poetik düşüncə tərzini ildırım vuran ağaca bənzədirdi. Burada ağacın keçirmiş olduğu sarsıntı insan poetikası ilə müqayisə olunur. Yəni şeir insanın ildırım vurmuş halından sonrakı mərhələsidir.**

Müasir Azərbaycan poeziyasında Elçin İsgəndərzadənin yaradıcılığı öz spesifikası, bütövlüyü və pafosdan, standart tərzdən uzaq əlamətləri ilə seçilir. Şeirin müasir ölçüləri və mexanizmləri texnologiya, informasiya və qloballaşan dünya ilə ayaqlaşmalıdır. Yəni bu gün əgər texnika, geyim, məişət cihazları necə gündəlik tələbata uyğunlaşdırılırsa, bu gün poeziya da, ümumən ədəbiyyat da bu prosesə qoşulmalıdır.

Elçin İsgəndərzadə öz müşahidə və yazı üslübu ilə diqqət çəkməyi bacarır. İfadələr dolğundur, sadədir, təsvirləri rəngli və canlıdır. Aşağıdakı şeirdən bir nümunəyə baxaq:

***Xatirələrin içində ölür adam...***
***Bir əl qapayır gözlərini.***
***O əli tutub saxlamaq istəyirsən,***
***istəyirsən ki,***
***açıq qalsın gözlərin***
***öləndən sonra da.***
***Amma gücün çatmır,***
***gözlərin qapanır.***

"Xatirələr içində ölür adam..." Xatirələr insan həyatının keçmişlə bağlı sistem halında formalaşan ömür kadrlarıdır. Bu kadrları istənilən vaxtı geri qaytarıb baxmaq, təhlil etmək, yaddaşa vermək, yaxud yaddaşdan silməyə çalışmaq istəyirik. Elçin İsgəndərzadə xatirələrin içində ölən arzularını, ümidlərini diri saxlamağa çalışır. O, arzularını, ümidlərini xatirələrin caynağından sağ çıxarmaq üçün, özünü qurban verir... "Bir əl qapayır gözlərini." Burada Füzulinin bir qəzəli yada düşür. "Olur qəddim düta eşqin yolunda hər bəla görcək". Əl-bəla anlamında işlənə bilər. Bəla isə Füzulinin təbirincə desək nemətdir. Gözlər günah və savab əməllərin şahididir. Əl Tanrı, İlahi qüvvə kimi düşünülə bilər. İnsanın gözlərini( bəsirət gözünü də) İlahi bağlayıb, aça bilər...

Elçin İsgəndərzadə yaradıcılığına nəzər saldıqda psixoloji və sosioloji təzadların, polemikaların-tale, qismət, alın yazısı kimi anlayışlarla fokuslandığını görmək mümkündür:

***Və səni xatirələrə gömürlər,***
***bilmirlər ki,***
***sən çoxdan gömüldüyün yerdəsən.***
***Amma onda gözlərin açıq baxırdın***
***bütün ayrılıqlara,***
***bütün gedişlərə,***
***indi gözlərin qapalı baxacaqsan***
***sonraya...***
***Sonraya baxmaq varmı qədərdə,***
***sonra nə var qədərimizdə, -***
***xatirələr varmı?...***

Ayrılıq, həsrət, tərk olunma... Bu üçü ifadə fəlsəfi aspektdən şairin şeirlərində tez-tez rast gəlinən nəsnələrdi. "İndi gözləri qapalı baxacaqsan sonraya..." Sonra-zamanın naməlum gedişində yaşanan həyat elementlərini işarə edir. Sonra-nə vaxt? Sonra-Harda?, Sonra-Kim? Bu kimi suallar şairin oxuculara ünvanlanan ritorik suallarıdı...



Dekartın "düşünürəmsə, varam" fəlsəfi yanaşması Elçin İsgəndərzadənin poetik aləmində bu cür nümyiş olunur: "düşünmək, həm də ölümə qarşı çıxmaqdır..." Düşünmək, həm də ölümü qəbul etməməkdir. Beləcə şair düşüncənin özünəməxsus fəlsəfi mahiyyətini axtarmağa çalışır. Axtarışları onu bu şeiri yazmağa vadar edir:

***Göyüm göyündən keçmirsə,***
***külüm külündən keçmirsə,***
***bütün yollar***
***sənin yolundan keçmirsə...***
***keçmirsə, sevgi deyil.***

"Sevgi" adlı şeirdə bədii təyinlər, təşbehlər və təzadlar oxucunu düşünməyə sövq edir. "Göy" burada mövcudat, kainat, materiya, ilkin başlanğıc, Yaradılış anlamında qəbul oluna bilər. Yollar yaşam, yaşantı və mövcüdat anlamında əsas ortaq nöqtə hesab olunur. "Sevgi" ən sadə anlamda ruhla bağlı olduğu kimi, yol da sevginin hərəkət, var olma qaynağıdır. Antik yunan fəlsəfəsində insan öz təbiətinə uyğun şəkildə yaxşılığa doğru can atan varlıq olaraq qəbul edilir. Bu fəlsəfənin mənbəyində insanın qüsurlu, yəni kamil olmaması ilə bağlı varlıq düşüncəsi dayanır. Sokrat, Platon və Aristotel kimi antik filosoflar insanın özünü müəyyən etik prinsiplər vasitəsilə kamil şəxsiyyət kimi formalaşdıra biləcəyini vurğulayırlar. Elçin İsgəndərzadə şeirlərində estetik zövq və etik qaydaların insanın kamillik dünyasına bir pəncərə açdığını göstərir. Bu estetika və etika "sevgi" dən keçir, ancaq hər zaman yox... Ona görə də, şair ayrılığı labüd hesab edir, onu zərurət bilir, əsla təsadüf bilmir...

***Sevgi söz yarasıdı,***
***göz yarasıdı.***
***Sevgi ürəkdə köz yarasıdı,***
***buludu yandırır,***
***göyü yandırır.***
***Ən isti yağışlar sevgili***
***buludlardan yağır,***
***sevgili göylərdən gəlir.***

Mişel Fukoya görə insan təbiəti sevgini anlamır, ancaq onu tanıyır, dərk etmir, ancaq onu həzm edir...

Bu o anlamdadı ki, insan bir ömür boyu kamilləşməyə, müdrikləşməyə meyil etmirsə, yolun başlanğıcını ifadə edə bilmir, yəni"sevgi"nin aliliyini qavraya bilmir...

Elçin İsgəndərzadənin yaradıcılığında diqqəti çəkən məqamlar biri diə "mən" konsepsiyasıdı. İn və Yan fəlsəfəsində əsas tezis olan insan fenomeni bütün dövrlərin ictimai sferalarında böyük maraq kəsb edib.

Bu şərq fəlsəfəsində də özünü biruzə verən əsas faktorlardan biridir. Təsəvvüf fəlsəfəsində"mən"-in əsasını təşkil edən nəfsin tam silinməsi deyil, bilinməsi və nəfsin cilovlanması təlqin edilir. Məhz sosial mənada nəfsin ölümü qəbul edilməzdir. Bunu təsəvvüf fəlsəfəsini sistemləşdirən və həyatlarında tətbiq edən İbn Ərəbi, Sadrdəddin Konəvi, Cəlaləddin Rumi və digər böyük sufilərin həyatlarında müşahidə etmək mümkündür. Təsəvvüfdəki "xəlvət dər əncümən" (cəmiyyət içərisində Haqqı unutmama) məfhumu birbaşa cəmiyyət fenomeninin qəbuludur. Məhz bu düşüncə Quranda Nur surəsinin 37-ci ayəsinə istinad edilərək şərh və təfsir olunur: " Elələri var ki, onlar üçün nə ticarət, nə də alış-veriş Allahı zikr etmələrinə, xatırlamaqlarına maneə yaratmır"

***Ən yaxından keçir hər şey,***
***gözəl günlərin də,***
***xoşbəxtliyin də.***
***Sevincin dodağından gülüş kimi***
***qaçır harasa,***
***bir uşağın əlindən qopub***
***göyə uçan üfürcək kimi...***

Elçin İsgəndərzadə sözün içində söz axtaran, sözün içində itən düşüncələrini tapmağa çalışan şairlərdəndi. Niderland filosofu Spinozanın təbiət fəlsəfəsindəki "insan psixikası" kimi Elçin İsgəndərzadənin də şeirlərindəki insan psixikası mürəkkəb axtarışlardan ətarfı seyr edir, araşdırır, yenilikləri qəbul etməyə hazırlaşır... Bu da oxucuların həm mənəvi ağrılarını azaldır, həm də yeni fikir dünyalarını kəşf etməyə kömək etmiş olur...

***Ən yaxından keçir bədbəxtlik də,***
***ha özünü görməzliyə qoyursan,***
***boynuna sarılıb sənə qısılır...***
***Kədər də onun kimi,***
***uzaqdan üstünə yüyürür,***
***ayrılıq da onun kimi***
***qollarının arasına sığınır.***

Elçin İsgəndərzadə şeirlərində tale və həyat sözlərini sintez edərək, insanın yeni yaşam modelini təqdim etməyə çalışır.

**Bu yaşam modeli həm təzadlı təsvirlərlə əks olunur, həm də qarışıq hisslərin çulğalaşması nəticəsində anlaşılmaz izahlara yol açır...**

**Tural Cəfərli**

*__Emin Piri__*

# Nəyinə güvənib xoruldayırsan?

***Günü-gündən iş, tələbə həyatına görə böyüyən Bakıda ictimai nəqliyyat ayrıca probleme çevrilməkdədir. İstər yollarda maşın tıxacları, istərsə nəqliyyat içindəki insan tıxacı...***

***Bütün bunları anladıq da, bəs, insanlar niyə bir-birinə belə mane olur?***

***Məsələn, metroda, avtobusda...***

***Ay qardaş, sən də hamı kimi 30 qəpiklik metroya, avtobusa minmisən də. Sən Allah, imkan ver, evimizə, işimizə gedək.***

***Ya elə sevgilisi ilə metroya minərkən basabasda ayaqlarıyla dövrəyə alaraq sanki sevgilisini əlindən alacağıq kimi 3-4 nəfərin yerini də tutmaq nədir?***

***Belə qısqanırsan, ovcunda götür, evə apar. Nə kimsə görməsin, nə də insanların yerini dar etmə.***

***Qardaş, sevgilin var, bildik. Bu basabasda vaqonda ayaqlarını iki metr aralayıb. Sol tərəfə pependikulyar, sağa da paralel konusvari. Bədən qıza doğru əyilmiş trapesiya formasına çevrilib. Əllər at üstündə qaçan hun döyüşçüsü kimi ox atmağa hazır, qapıya söykənib hədəfini möhkəm sıxıb. Bir növ qız aypara şəklində mühasirədədir. Qardaş elə bil türklərin turan taktikasını həyata keçirir. O qardaş əlləri boşaltsa, ayaqlarını yığsa mənim kimi 6-7 cılız bəndəniz də qatara minə bilər. Az qalırsan maşinistlə əlaqəyə çıxasan ki, sən bu sevgililəri apar,evlərinə ötür, sonra gəlib bizi apararsan.***

***Ya da əyləşərək ayaqlarını genələ-genələ açıb, sanki hansısa imperator kimi iki nəfərlik yeri zəbt etmək nədir?***

***Hə, bir türk əhvalatı var. Rayonlar arası marşrutda "konduktor" xoruldayan sərnişini insanları narahat etdiyinə görə oyadır. Sərnişənsə bir az zaman keçdikdən sonra yenidən yuxulayır. Xoruldamağa başlayır. Sərnişinlə davaya çıxan sürücü köməkçisi axırda onu avtobusdan endirmək qərarına gəlir. Bundan sonra sərnişin "konduktor"u da döyür, onları aralamağa çalışan sürücünü də.***

***Sürücünün digər dostu onlara kömək istəyəndə sərnişin onu da döyür. Avtobusdan enəndəsə boksçu olduğunu bildirir.***

***Başqa səfər zamanı yenə bir sərnişin xoruldamağa başlayır. Bu dəfə sürücü köməkçisi onu mədəni şəkildə oyadır.***

***-Qardaş, boksçusan?***
***-Xeyr.***
***-Karateçisən?***
***-Xeyr.***
***-Taekvanduçusan?***
***-Xeyr.***
***-Kunqfuçusan?***
***Sərnişin təəccüblənir və yenə yox deyir.***
***-Yaxşı, qardaş, hansı...güvənib xoruldayırsan?***

***İndi qardaşım, sən də onsuz əsəb içində olan, tıxac içində ayrıca niyə belə yerimizi dar edirsən?***

# AZƏRBAYCAN QADINI YAZIÇISINI ANLAMIR?!

**Azərbaycan qadını-ağzını açıb bu sözü deyən kimi bilirsən ki, elə təzəcə torpaqdan boylanıb cücərən Azərbaycanın gənc yazarıdır. Yaxşı ki, Azərbaycanda arvadını döyən kişilər var, ara-bir sevgili münasibətindən danışan bir-iki qlamurka var. Yoxsa gənc yazarların 90%i işsiz, qonorarsız, maaşsız qalardı. Yazmaq olar e, hamımız yazırıq, amma işi -gücü qadın paltarından boylanaraq nə qədər gileylənmək olar? Qınadığınız "Bu şəhərdə"dən fərqiniz nə oldu?**

Mövzu yoxdu? Var, həm də boldur. Sadəcə kasad olan ayrı şeydir.

Azərbaycan qadını Azərbaycan yazıçısını anlamır, başa düşmür və.s. Bu tipli statuslara, yazılara, açıqlamalara "n" qədər rast gəlirik. Bu, yazıçı həssaslığı, ərköyünlüyündən, hər hansı haqsızlığa məruz qalmasından, uğursuzluğa haqq qazandırmaq təhtəlşüurundan irəli gələ bilər. Bəs, Azərbaycan yazıçısı nə istəyir? Sanki əsərlərimizlə qalaktikaları aşacaqdıq, onlar imkan vermir. Nə istəyirik? Sevgi, qayğı, yataq,mətbəx, ütülü paltar, ev işləri, möhtəşəm analıq, əzab-əziyyətə sinə gəlmək,sadiqlik, üstəgəl yazdıqlarımıza, yerli-yersiz vərdiş və ərköyünlüyümüzə anlayış. Bu qədər ideal. Absurd olmadımı?

Bu qədər ideallıq yalnız Tanrıya məxsus ola bilər.Bəlkə axtardığımız məhz Tanrıdı? Elə isə bütün bunları qadından niyə gözləyək? Sanki bunlar(oxu: Azərbaycan yazıçısı) magik realizmlə oxucunu tilsimləyəcəkdilər, amma yazı masasının yanından keçən yoldaşının ayaq tıqqıltısıbu hipnozu pozdu. "Patriarxın payızı"ndakı kimi qırılmış yumurtaları kimin hesabına yazmağı düşünürdülər, amma Markes kimi 90-lı yaşlarda hüznlü fahişələri dadmağa bu cəmiyyət, bu cəmiyyətin qadınları mane oldu deyə alınmadı. Qırılmış yumurtaların taleyisə naməlum qaldı.

Əmin olun, bunlar Dostoyevskidən də böyük əsərlərini ehtiyatda saxlayırlar. Sadəcə bir maneə var. O ədib kimi arvadlarının nişan üzüyünü qumara, içkiyə yatırmaq. Bizim yazıçıların arvadları buna könüllü razı olmadığına görə biz də "Cinayət və cəza", "İdiot" kimi əsərlərdən məhrum olmuşuq. Əsər var, sadəcə, üzüyü qumara, içkiyə yatıra bilmirlər deyə alınmır.Bəlkə də yatırırlar, sadəcə, bundan sonra əcəb etmisən alqışını görmürlər deyə ədəbiyyatdan küsür bu yazıçılar.

"Qoca və dəniz"i yazıblar, hətta ondan da yaxşı əsərləri. Sadəcə Azərbaycan xanımı bizim yazıçıların morfi qəbul etməsini istəmir deyə bu yazıçılarımız da küsüb o əsərləri çapa vermir.



Şeiriyyatda Bayrondan daha ötəsi kimi özlərini dünyada təsdiqlədə bilərlər.Amma bir əmma var. Onun kimi bir ildə 300-dən artıq sevgili dəyişmək. Azərbaycan xanımı bunu anlamır deyə dünya bizim böyük dahilərdən məhrum olub.

Əsərlərlə deyil, qeyri-sağlam yaşam tərzinin müqayisəsi ilə yazıçı həssaslığı insani hiss deyil, sadəcə xəstəlikdir. Sadəcə içlərində yatan əyyaş, narkoman, qumarbaz obrazını ədəbiyyat adıyla sığortalamaq, müqayisəni mətnlə yox, yaşam tərziylə götürmək ikrah doğurur.

Azərbaycan kişisi heç olmasa, bacara bildiyi sahədə-mətnində Azərbaycan xanımına necə toxunub? Istisnaları kənara qoyaq. Yaşlı qadınlarımız əsasən küpəgirən,deyingən, evlər yıxan obrazdı. Xarici mətnlərdəsə o qoca nənələri sadəcə sevə bilirsən. Bəzi "cadı"-sehrbazları çıxmaqla.

Gənc xanımlardansa, əksər hallarda başı batmış əğyara yar olan, vəfasız və.s. Bircə gözəlliyindən danışılır.

Daxili dünyasına, ruh aləminə böyük hallarda keçid edilmir.Uzaqbaşı özü gözəl, daxili dünyası olmayan hərəkət edən "ət" kimi. Nə qədər incələsəniz də aşağı-yuxarı mətnlərimizdə faiz çoxluğu belədir. Hə, yarada bilinən müsbət obrazların böyük əksəriyyəti isə mətn kimi uğursuzdu.

Heç nə yox, "Gombul" da yazıçının bir fransız fahişədən necə qəhrəman obrazı yarada bilməsini düşünsək biz mətnlərimizdə xanımlarımıza nə qədər haqsız yanaşmağımızı görə bilərik. Əlbəttə, bu əsərdə əxlaqın əslində həyat tərzivə.s ilə əlaqəli olmaması, bəzi vətənpərvərlərin əslində necə işbaz olması mənalanmalarını müzakirə etmirəm. Bu ayrı mövzunun müzakirəsidir. Amma nəticə ortada.

Ilişib qalmışıq Milenalarda, Dianalarda. A kişi,şeirimizdə belə Azərbaycan xanım adlarını çəkməyi onlara çox bilirik. Ya da bizim şairlərin düşüncə tərzində Azərbaycan qadınının adı ya bayağıdır, yada bu həsr edilməklərə layiq deyil. Ona görə həsr etdiyimiz şeirlər avropalı xanım adlarına müraciətlədir. Bunun Günelləri, Aynurları, Könülləri, Günayları, Aytəkinləri, Aynurları hanı?! Guya inteqrasiya edirik də, biz müasir avropalı şairlərik, axı. Əmin olun ki, bizə gözəl görünən bir çox əcnəbi xanım adları vaxtilə onların Tükəzbanları,Fatmanisələri olub. Adı sevdirən adın məxsus olduğu insanın özünün necə uğur qazanması və məlum əsərlərlə necə sevdirilməsidir.

Azərbaycan qadını olmasaydı Azərbaycan yazıçısı ən yaxşı halda bomj olardı. Özümdən bilirəm. Göydən uydurmuram e, elə öz təcrübəmdən, tanıdıqlarıma əsasən deyirəm.

**Heç zad, Azərbaycan qadınının daşı düşsün təpənizə.**

**Emin Piri**

# <u>Zatikyan:</u> "Daha çox rus öldürərək erməni xalqının qisasını ala bilərik"

**Bu gün Rusiyada erməniləri müdafiə edən güclər unudurlar ki, onların tarixində ilk terror aktını məhz ermənilər törədiblər. Fotoya diqqətlə baxın: Akop Stepanyan, Zaven Baqdasaryan və Stepan Zatikyan adlı terrorçular SSRİ-dövründə ən böyük terror hadisəsinin müəllifləridir. İndi isə daha ətraflı..**

"Digərlərinə də çatdırın ki, bizə yalnız qisas, qisas, bir daha qisas qalır!" Bu sözlər 1977-ci il yanvar ayının 8-də Moskvada metroda terror hadisəsi törədən erməni Zatikyana aiddir ."Sizin məni mühakimə etmək ixtiyarınız yoxdur, çünki rus və yəhudilərin idarə etdiyi imperiya hüquqi dövlət deyil! Bunu möhkəm yadda saxlamaq lazımdır". - deyən erməni terrorçu Zatikyan beynəlxalq ictimaiyyətin təzyiqini və təpkisini görməyən erməni terrorizminin bir üzvü idi.

Erməni terrorunun SSRİ dövründə həyata keçirdikləri ən böyük və dəhşətli hadisə 1977-ci il yanvar ayının 8-də Moskvada həyata keçirildi. Həmin dövrdə Moskvadakı terror aktı ilə bağlı SSRİ-də yayılan rəsmi məlumatlara görə, erməni terrorçular Akop Stepanyan, Zaven Baqdasaryan və Stepan Zatikyan tərəfindən Moskva metrosunun "İzmaylovskaya" və "Pervomayskaya" stansiyaları arasında, Bauman rayonundakı 15 saylı mağaza və oktyabr küçəsində 3 terror aktı həyata keçirilmişdir. Bu terror aktları nəticəsində 7 nəfər həlak olmuş, 37 nəfər isə yaralanmışdır.

Terror hadisəsinin təşkilatçsı Stepan Zatikyan 1966-ci ildə Yerevan Politexnik İnstitutunun tələbəsi olarkən rəssam Aykanuz Xaçaturyan və Şagen Artunyanla birgə ""Erməni Milli Birlik Partiyası" yaratmışdılar. Tələbələrin yaratdığı bu qurumun əsas məqsədi Türkiyədən Ermənistan "torpaqlarının" geri alınması və müstəqil Ermənistan dövlətinin yaradılması idi. Bu qruplaşmanın gizli mətbəələri var idi və onlar"Paros" ("Fənər") qəzeti nəşr edirdilər.

Onlar "Rus şovinizmi"nə etiraz etmək, Yuxarı Qarabağ və Naxçıvanın Ermənistana verilməsi üçün siyahılar paylayırdılar".

Zatikyan 1968-ci ildə sovet rejimi əleyhinə təbliğat apardığına görə həbs edilmişdir. 1972-ci ildə həbsxanadan çıxmış və fəhlə kimi fəaliyyətə başlamışdır. 1975-ci ildə sovet vətəndaşlığından çıxmaq üçün ərizə vermiş, lakin buna nail ola bilməmişdir. O, Ermənistanın Rusiyadan ayrılmasını təbliğ edirdi.



O zaman cinayətkarların axtarışına Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) ən yaxşı müstəntiqləri cəlb olunmuşdur. Onların səmərəli fəaliyyəti nəticəsində bu gurultulu terror aktlarında nüfuzlu erməni partiya liderlərinin iştirakı faktı üzə çıxıb. Terror aktlarının törədildiyi yerlərdən götürülən partlayıcı maddə qəlpələri onların harada istehsal olunması və daha çox hansı şəhərlərdə satıla bilməsinə dair şübhəli şəhərlərin dairəsi barədə materiallar əldə etməyə imkan yaradıb. Həmin şəhərlər arasında da başda İrəvan dayanırdı.

Sonra terror aktlarının ukraynalılar və erməni millətçiləri tərəfindən törədilə bilmə ehtimalı ortaya çıxıb. DTK əməkdaşları tərəfindən Daşkənd aeroportunda sərnişinlərdən birinin əlində terrorçular tərəfindən istifadə olunan çanta ilə eynilik təşkil edən çanta diqqət cəlb edib. Araşdırmalar bu çantaların məhz İrəvanda tikildiyini ortaya çıxarıb. Və bu fakt axtarışlar dairəsini son dərəcə məhdudlaşdırıb, DTK əməkdaşlarının əsas diqqətinin Ermənistana yönəlməsinə səbəb olub.

Beləliklə, aşkar olunan bombanın elektrik qaytanağı xüsusi elektrodla aparılıb ki, bu da yalnız hərbi sənaye kompleksi müəssisələrində istifadə olunur. Nəticədə məlum olub ki, terror qruplaşma üzvlərindən biri müdafiə sənayesi müəssisəsində işləyir. Bu ərəfədə terrorçu qruplaşma üzvləri yeni cinayət hazırladıqları zaman səhvə yol veriblər. Beləki Kursk vağzalına içərisində partlayıcı qurğu olan çanta qoyublar və bomba partlamadan əməliyyatçıların əlinə keçib. Və bu da DTK əməkdaşlarının sözügedən bandanın izinə düşməsi ilə nəticələnib. Çantaya istintaq baxışı nəticəsində sim və saat mexanizmi, həmçinin üzərində İrəvan nişanı olan göy olimpiya gödəkçəsi tapılıb. Belə ki, terrorçular çantanın partlayacağını zənn edib, öz şəxsi əşyalarını da çantada qoyublar.

Nəhayət Gürcüstan-Ermənistan sərhədində 55 saylı Moskva-İrəvan qatarının 3-cü vaqonundan şübhəli şəxs qismində saxlanılan və üzərində heç bir sənədi və şəxsi əşyaları olmayan, eyni zamanda əynində həmin göy olimpiya gödəkçəsindən olan 1949-cu il təvəllüdlü Akop Stepanyan saxlanılıb. O, saxlanılan zaman tələbə yoldaşı Zaven Baqdasaryanla (1954-cü ildə anadan olub) bir yerdə olub. Onlar Moskvaya səfərlərinin məqsədini polis əməkdaşlarına açıqlaya bilməyiblər. Onların hər ikisi İrəvana göndərilib. Sonradan Stepanyanın anası oğlunun çantasında bomba aşkarlayıb. Əməliyyatçıların onun evindən Moskvada törədilən partlayışlar zamanı istifadə olunan bombanın eynisini aşkar ediblər. Akop Stepanyan və Zaven Baqdasaryanın həbsindən sonra qrupun üçüncü üzvü Stepan Zatikyan da yaxalanıb.

Moskva metrosunda 1977-ci ildə baş vermiş partlayış onu yenidən məhkəmə kürsüsünə çıxardı. İstintaqa görə, metro partlayışına o, rəhbərlik edib. Partlayışı həyata keçirən erməni terrorçular - fəhlə Akop Stepanyan və rəssam Zaven Baqdasaryan əməliyyata rəhbərliyin Stepan Zatikyan tərəfindən edildiyini bildirmişdilər. Terrorçuların dediyinə görə, Zatikyan ruslara nifrət etdiyinə görə, onları təhdid edərək bu əmələ vadar edib.

Terror hadisəsinin iştirakçıları olan Baqdasaryan və Stepanyan dindirmə zamanı bildiriblər ki, Zatikyan onlarla birgə həbsxanada olanda millətçilik ideyası təbliğ edirdi və deyirdi ki, erməni zülmünə görə rusları cəzalandırmaq lazımdır. XX əsrin əvvələrində erməni xalqının başına gətirilənlərdə rusları günahkar görən Zatikyan qisas almağın əsas yolunu Rusiya ərazilərində çoxsaylı patlayışlar törədilməsi və daha çox rusun öldürülməsində görürdü. Onun ətrafında olanlar qorxu altında Zatikyanın dediklərinə əməl edirdilər. Moskva metrosunda partlayışdan sonra həmin cinayətkarlar 1977-ci il oktyabrın sonunda daha bir terror aktı törətməyi qərara alıb və bu məqsədlə Kursk vağzalından bilet alaraq Moskvaya gəlib. "Moskva İrəvanı" qatarına biletlər götürmüşlər. Qatara minən zaman vağzalın gözləmə zalında bombası ilə çantanı qoyub. Bir neçə dəqiqədən sonra yiyəsiz əşya sərnişinlərdən birinin diqqətini cəlb edir və hadisə yerinə gələn poislər orada məftillə və saat mexanizmi ilə işləyən dəhşətli nəticələr verə biləcək partlayıcını aşkar ediblər.

SSRİ hüquq müdafiəçiləri kimi qələmə verən bəzi şəxslər, o cümlədən Andrey Saxarov iddia edirdi ki, guya erməni terrorçuların günahı yoxdur və etmədikləri günahlarını zorla onların boyunlarına qoyurlar və bunun arxasında siyasi məqsədlər dayanır. Saxarov 1979-cu il yanvar ayının 30-da SSRİ KP MK Baş katibi L. Brejnevə ünvanladığı məktubunda yazırdı: "Biz bu işdə ( terror aktında) məhkəmə səhvinə yol verildiyi və ya qəsdən baş verən hadisənin saxtalaşdırıldğı qənaətindəyik. Ona görə də məhkəmə prosesində aşkarlığın pozulduğunu və onun əsl həqiqəti üzə çıxara bilməyəcəyini düşünürük".

Ermənistan hakimiyyət orqanlarının - Ermənistan SSR KP MK-nın I katibi Karen Dəmirçiyanın və Ermənistan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbəri Yüzbaşyanın terrorçuları açıq şəkildə himayə etdikləri faktı üzə çıxdı. Adı çəkilən hər iki şəxs terrorçular üzərində aparılan istintaqa mane olmağa cəhd etdi. Buna nail olmayanda isə Dəmirçiyan açıq şəkildə SSRİ xüsusi xidmət orqanlarından Ermənistan vətəndaşları üzərində özbaşınalığı dayandırmağı və onlardan ölkə ərazisini tərk etməyi tələb etdi.

**Saxarov iddia edirdi ki, partlayış zamanı isə Zatikyan İrəvanda olub. 1979-cu ildə keçirilən məhkəmədə Zatikyan terrorçular tərəfindən irəli sürülən bütün iddiaları rədd etmişdir. Lakin buna baxmayaraq məhkəmə onun qətlinə fərman vermiş və o, 1979-cu il yanvarın 24-də güllələnmişdir.**

**Zaur Əliyev,**
**dosent**

# FƏDAKAR İNSAN

**İnsan ömrü onun yaşadığı illərlə deyil, Vətən, xalq naminə gördüyü işlərlə, eləcə də nəcib və xeyirxah əməlləri ilə ölçülür desəm, yanılmaram. Ömrünü el yolunda fəda edənlər heç vaxt yaddaşlardan silinmir, həmişə yaddaşlarda qalaraq sevilirlər. Belə xeyirxah, saf qəlbli insanlardan biri də Fərrux Məhəmməd oğlu Haqverdiyevdir.**

Fərrux Haqverdiyev 6 yanvar, 1962-ci ildə Gürcüstan Respublikasının Marneuli rayonunun Qaçağan kəndində ziyalı ailəsində anadan olub. Orta məktəbi əla qiymətlərlə başa vuraraq, 1980-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Mexanikləşdirmə fakültəsinə daxil olmuş, 1985-ci ildə ali təhsilli mütəxəssis kimi məktəbi bitirmişdir. Elə həmin ildən Abşeron rayon Şurabad Südçülük Sovxozunda baş mühəndis, 1989-cu ildən 1990-cı ilə kimi Abşeron Qoyunçuluq Aqrar İstehsalat Birliyində baş mühəndis kimi, 1990-1995-ci illərdə Xızı rayon I çağırış üzrə deputat, 1990-91-ci illərdə isə Xızı rayon Maddi-Texniki və Mexanikləşdirmə İstehsalat Birliyinin baş mühəndisi vəzifəsində işləmişdir.



O, 1991-ci ildən Xızı rayon Suvarma Sistemləri İdarəsinin rəisi vəzifəsində işləyir. 2001-2006-cı ildə YAP Xızı rayon təşkilatının sədr müavini, 2006-cı ildən YAP Xızı rayon təşkilatının sədridir. 2008-ci ildə müqəddəs Həcc ziyarətində olan Hacı Fərrux mömin bir müsəlman olmaqla yanaşı, həm də əsl xeyirxah insandır. Hacı Fərruxun gördüyü işləri saymaqla qurtarmaz, eyni zamanda onun şəhid və əlil ailələrinə, müxtəlif xeyriyyə işlərinə verdiyi ianələri qeyd etmək yerinə düşər. Elə son iki ildə Xızı rayon Suvarma Sistemləri İdarəsinin yeni inzibati binası bilavasitə onun təşəbbüsü və xeyirxahlığı ilə bünövrədən tikilərək, istifadəyə verilmişdir. Yeni istifadəyə verilən binada texniki avadanlıqlar quraşdırılmış, otaqlar kompüterlə təchiz olunmuşdur. O həm də Yeni Azərbaycan Partiyası Xızı Rayon Təşkilatının sədri kimi şərəfli işi layiqincə yerinə yetirir. İctimai işlərdə fəal iştirakına görə 2009-cu ildə "Tərəqqi" medalı ilə təltif olmuşdur.

**F.Haqverdiyevin 6 yanvar 2022-ci ildə anadan olmasının 60 illik yubileyi tamam olur. Fərrux müəllimi anadan olmasının 60, əmək fəaliyyətinin 40 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirik. Bu təbrikə "Cabir Novruz" Mədəniyyət Fondu da qoşularaq, Xızı rayon YAP təşkilatının sədri Fərrux müəllimi yubileyi münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, işlərində müvəffəqiyyətlər arzulayırlar.**

**Elşad Dağlı**
**"Cabir Novruz" Mədəniyyət**
**Fondunun mətbuat xidmətinin**
**rəhbəri, AJB-nin üzvü**

## *Yollar buz bağlayacaq - Sürücülərə xəbərdarlıq*

**Fevralın 12-nə avtomobil yollarındakı vəziyyət açıqlanıb.**



Adalet.az Milli Hidrometeorologiya Xidmətinə istinadən xəbər verir ki, fevral ayının 12-də gecə və səhər saatlarında Bakı-Quba, Bakı-Şamaxı-Yevlax, Bakı-Ələt-Qazax, Quba-Xaçmaz, Quba-Qusar, Masallı-Yardımlı, Lənkəran-Lerik, Şəmkir-Gədəbəy, Ağdam-Ağdərə, Füzuli-Cəbrayıl-Mahmudlu, Ucar-Zərdab-Ağcabədi, Göyçay-Ucar, Gəncə-Daşkəsən, Gəncə-Samux, Hacıqabul-Şirvan, Salyan-Neftçala, Bərdə-İstisu, Ağsu-Kürdəmir-Bəhramtəpə, Xankəndi-Xocavənd, Həkəri-Zəngilan, Qubadlı-Xanlıq, Gəncə-Kəlbəcər-Laçın, Şuşa-Füzuli, Xaldan-Mingəçevir, Naxçıvan-Sədərək magistral avtomobil yollarının bəzi hissələrində duman ilə əlaqədar olaraq görünüş məsafəsi 300-800 m-dək məhdudlaşacaq.

Gecə və səhər dağlıq ərazilərdə yolların buz bağlayacağı ehtimalı var.

# AŞIQ ƏLƏSGƏR FƏLSƏFƏSİNDƏ KAMİL İNSAN TƏRBİYƏSİ



*Vidadi Orucov, pedaqogika üzrə elmlər doktoru, Lənkəran Dövlət Universiteti "Pedaqogika, psixologiya və incəsənət fənləri" kafedrasının professoru*

**(əvvəli ötən sayımızda)**

Bu dünyalar içində bir fani dünya da var. Dədə Qorqud, Qurbani, Qaracaoğlan, Yunus Əmrə kimi, Aşıq Əlsgər də "Aldanma dünyanın bu fənasına" - deyərək, Uca Tanrıya aparan yolları hər şeydən üstün tutur, qalanları isə fani bilir. Allaha olan sonsuz inam və sevgisini xüsusilə "Allahın adı ilə" şeirində və ümumilikdə əksər əsərlərində ən çox "Allah", "Allahu-əkbər", "Xaliqi-ləmyəzəl-Allah", "Allahimmə səlli", "Vallahül-əzim belədi", "Maşallah", "Şükür eylə Allaha", "Sən Allahı sevərsən", "Sən Allah", "İnşallah" və s. kimi müraciətlərlə ifadə edir:

***Tut orucun, qıl namazın,***
***Şükür eylə Allaha;***
***Gül olma dünya malına,***
***Qalacaqdı dünyada.***

Bir dünya da sirr olaraq qalmaqdadır: Var olanın varlığına münasibət. Şübhəsiz ki, Aşıq Ələsgər kimi bir dahini də bu fikirlər düşünməyə vadar etmişdir. Onun ontoloji düşüncələri dövrünə bəlli elmi biliklərə əsaslanırdı. Elm aləminə bəllidir ki, Aristotelin ontologiyası var olanı var olduğu kimi, ilk öncə olanın nə olduğunu öyrənməkdən ibarətdir. Bu baxımdan ontologiya elminin ən önəmli sualları; "İlk olan nədir?", "Hər şeyin başlanğıcı nədir?", "Bütün varlıqların ilk tozu-zərrəciyi nədir?" - Aşıq Ələsgər yaradıcılığında da özünəməxsusluğu ilə ən çox rast gəlinən (daha çox bağlamalarda) fikirlərdəndir:

***Yerin, göyün, ərşin, kürsün, insanın***
***Künhü, bünövrəsi ay nədən oldu?***
***Və ya:***
***Altı gündə dünya neçə don geydi,***
***Nə üstə əyləşdi, bərqərar oldu?***
***Əvvəli kim oldu ərşin bənnası?***
***Ulduzlar nə təhər yerbəyer oldu?***

Aşıq Ələsgərin yaradıcılığında daha sıx rast gəldiyimiz möcüzəli bir dünya diqqəti cəlb edir. Bu, könül dünyasıdır. Onu dolduran sevincin, həyəcanın, kədərin, qəmin duyulmasında, dərkində və şərhində elmin gücu yetərli deyildir. Bu sirli-sehirli insan dünyansının əngilliklərindən xəbər verməyə yalnız incəsənətin, poeziyanın - bədii təfəkkürün gücü qadirdir. Öz düşüncəsində buna tam əmin olan Aşıq Ələsgərin istedadı, gücü adi adamların görə bilmədiklərini görməsində, deyə bilmədiklərini isə fəlsəfi-lirik dildə, qaydada deməsində idi. Bu baxımdan onun yaratdığı əsərlərin mahiyyətinin, ideyasının daha çox hər kəs üçün əl çatan və qəlbəyatan olmasıdır. Məsələn, "Yazıq" rədəfli qoşmasında bir adamı başqasından fərqləndirən psixi hallar və ya vəziyyətlər elə ilk cümlədən səmimiyyətilə diqqəti cəlb edir. Gözəllik, insanlıq ondadır ki, bu könlü qəmli, müşkül hallı insana böyük şairin özü həmdəm də olur, məlhəm də:

***O qəmli könlünü, müşkül halını***
***Düşünən də yazıq, bilən də yazıq!***
***Ağlasan, ağlaram mən səndən betər,***
***Dağladın sinəmi güləndə, yazıq!***

Bildiyimiz kimi, ünsiyyət insanlar arasında qarşılıqlı əlaqənin ilkin forması olmaqla, həm də onun insanlar arasında qarşılıqlı münasibətlərin tənzimlənməsində və inkişafında böyük rolu vardır. İnsanların bir-birini qavraması və anlamasını ümumilikdə sosiallaşmağa doğru atılan ilkin addım kimi də başa düşmək olar. Hər cəmiyyətdə insanların bir-birini düzgün anlaması siyasi gücə, dəyərə çevrilir. Cəmiyyət tərəfindən qəbul edilmiş bu dəyərlərin gənc nəsil tərəfindən mənimsənilməsi, sosiallaşma prosesində böyük əhəmiyyətə malikdir. Aşıq Ələsgərin əsərlərində bu önəmli sosial-ictimai xarakterli hadisələrin həlli yolları ustalıqla göstərilir, insanlar səmimiyyətə, humanistliyə, qarşılıqlı anlaşmaya dəvət edilir:

***"Can" deməklə candan can əskik olmaz,***
***Məhəbbət artırar, mehriban eylər.***
***"Çor" deyənin nəfi nədi dünyada,***
***Abad könlü yıxar, pərişan eylər.***

Belə əsərlər hər bir adamın hisslərinə ustalıqla sığal çəkir, oxşayır, hakim kəsilir, oxucusunu öz təsirinə salaraq onu istqamətləndirir, dünyadan əlini üzənlərin "əlindən tutaraq" dünyaya qaytarır, daha inamlı və güvənli bir həyata səsləyir. Elə buna görə də, insanların inam və güvən məbədinə çevrilmiş Aşıq Ələsgər məktəbinin oxucularının-sevdalılarının sayı günbə-gün artmaqdadır.

İnsanların kamilliyə dəvət olunmasında, tərbiyəsində səmavi dinlərlə yanaşı, Tanrıdan payı olan şairlərin də rolu çox böyük olmuşdur. Xüsusilə, Şərq aləmində - cəmiyyətində şairlər daha çox hörmət sahibi olmaqla yanaşı, həm də təsir gücünə malik olmuşlar. Avestanın yaradıcısı Zərdüştə peyğəmbər kimi baxmışlar, Əfzələddin Xaqaniyə, Nizami Gəncəviyə, İmadəddin Nəsimiyə və başqalarına da el məhəbbəti böyük olub.

Məhəmməd Füzuli "Mətlə ül-etiqad" əsərində müqəddəs Quranın "Yasin" surəsindən 69-cu ayəni xatırladaraq: "Biz ona (Məhəmmədə) şeir öyrətmədik" - deyərək, "məni öyrətmişdir"- deyir. Məhəmməd Füzuli qürurla belə bir yüksək dəyərin peyğəmbərlərə yox, Allah tərəfindən şairlərə nəsib olmasını vurğulayır. Bu sevdalarla yaşayan Aşıq Ələsgər də şairləri peyğəmbərlərə, onların şeirlərini də Quran ayələrinə bənzər, Uca Tanrının payı bilirdi:

***Firdovsi, Füzuli, Hafiz, Nəsimi-***
***Onlar da yazdığı ayə məndədi.***

Əslində, yaradıcılıq yeni maddi və mənəvi dəyərlərin, gerçəkliyin modelinin yaranmasının canlı prosesidir. Fəlsəfi-poetik üslubda yaranmış bədii əsərlə tanışlıq zamanı bədii dərketmə yolu ilə yeni bir həqiqəti dərk edirik, qəbul edirik.

Digər bir baxımdan, bu əsərlərin pərvazlanmasında fəlsəfə və poeziya qoşa qanaddır. Bunların hər ikisi dil hadisəsidir, hər ikisi dilin köməyi ilə reallaşır. Dil yeni bir əsərin yaradılması üçün əsas material, əsas vasitədir. Bədii əsərin səviyyəsi dilin inkişafı ilə birbaşa əlaqəlidir. Dil həm də düşünmə fəaliyyətinin ümumiləşmiş formasını oxucuya çatdırmaq üçün də əsas vasitədir. Yaranan əsərin estetik idealın zirvəsinə can atması, cəmiyyətin tələblərinə uyğun olması birbaşa dillə bağlıdır. Bu işdə dil əsas amildir. Xüsusilə, fəlsəfi-poetik dil müəyyən ideyaları gündəlik danışıq tərzindən daha çox işıqlandırmağa qadirdir. Məsələnin belə qoyuluşu təlim-tərbiyə prosesində qoyulmuş məqsədə çatmaqda xüsusi əhəmiyyət kəsb edir, onu asanlaşdırır. Bu baxımdan Aşıq Ələsgərin yaradıcılıq dili obrazlı, çoxçeşidli, daha mükəmməl dildir. Fikirlərin sadəliyi, təbiiliyi, anlamlığın geniş olması, insanların bir-birinə yaxınlaşması, bir-birini başa düşmələrində maqnit təsirinə bənzəyir. Onun dili deyilmə tərzi ilə obrazlara nəfəs, can verməklə, əhval ruhiyyə yaratmaqla, həqiqəti diqqət mərkəzinə çəkir. Aşıq Ələsgərin dili dialektlərdən yüksəkdə olmaqla, daha qədim və daha müasirdir: Dədə Qorqud, Xəstə Qasım, Qurbani, Tufarqanlı Abbas, Yunus Əmrə, Qaracaoğlan, Vaqifin dili olmaqla yanaşı, həm də onun coğrafiyası çox genişdir, müasir türk dünyası üçün çox mühüm əhəmiyyət kəsb edir.

Aşıq Ələsgərin oxuduğu kitablar sırasında Quranla, insanla yanaşı bir də təbiət var idi. Təbiətdəki ənginlik və zənginlik onu sehrləmişdi, təbiət vurğunu etmişdi. Ana təbiətin gözəlliklərindən doymaq bilmirdi. Hər an təbiətdəki min bir gözəlliklərə heyran olmaqla yanaşı, onları duymağa, öz dilində danışmağa, onlara qovuşmağa can atırdı. Azərbaycanın Xalq şairi Zəlimxan Yaqubun yazdığı kimi: "Təbiət Allahın şah əsəridir... Hamısı ilham çeşməsi, şeir qaynağı, poeziya bulağı, müqəddəslik beşiyi, duruluq, təmizlik, halallıq mənbəyi!". Gözünü-könlünü təbiətin belə gözəllikləri ilə doyuran Aşıq Ələsgər, yaratdıqlarını da "Allahın şah əsərinə" bənzər, bənzərsiz yaratmışdır. Xüsusilə, insanı - dağa, qızı, gözəli, göyçəyi - çiçəyə, mənəvi saflığı - ucalığa, ağılı, düşüncəni dərin dəryalara bərabər tutmuşdur. İdeal qadın obrazı zaman-zaman dəyişsə də, Aşıq Ələsgərin vəsf etdiyi gözəllərin gözəlliyi bu gün də dəbdən və dillərdən düşmür. Onun gözəlləmələrində Maral, Ceyran, Tərlan, Yaxşı xanım, Gülxanım, Sarıköynək, Səlbi, Salatın, Güllü, Gülpəri, Gülən-dam, Leyli Bəyistan, Kəklik, və s. vəsf olunan gözəllərdə qadın xarakteri gözəlliyin əsas şərtidir. "Hər yetən gözələ "gözəl" demərəm",- deyən Aşıq Ələsgərin məqsədi sadəcə zahiri gözəllikləri vəsf etməklə bitmir, daxili gözəllikləri də gözəlliyin əsas şərti bilir, daxili və zahiri gözəlliyin vəhdətini qəbul edir. O, əsərlərində insani dəyərləri təbiətdəki gözəlliklərlə müqayisə edir və önəmli olanı diqqət mərkəzinə gətirir. Lakin bu əsərlərdə insani dəyərlərlə bağlı fikirlərlə tanış olduqca gözlərimizin önündə zəngin və əzəmətli, kamil bir insan obrazı canlanır.

**Aşıq Ələsgər Peyğəmbər Əfəndimizin "Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim" hədisini meyar tutaraq vəsf etdiyi insanları kamilliyə yönəldir. Bu yolda kamala çatmaq üçün onlara faydalanmağın yollarını göstərir. Allaha doğru cəhdi kamilliyə gedən yolun başlanğıcı hesab edərək, onun sonunu Qurani Kərimin "Şəms" surəsindəki "And olsun nəfsə və onu yaradıb kamilləşdirənə" ayəsində görür.**

# BARAT VÜSALLA ONLAYN SÖHBƏT

*Bəlli olduğu kimi ötən il uzun və məcburi fasilədən sonra ədəbiyyat adamlarının Vaqif Poeziya Günlərində yenidən bir araya gəlmək istəyi çin oldu! 30 ilə yaxın yuxularımızda gördüyümüz Şuşada keçirilən bu bayramda iştirak etmək mənə də nəsib oldu. Təbii ki. Burada ürəyimə, ruhuma doğma olan sənət və könül dostlarımı görmək özü də bayrama bir növü bayram qatmışdı...Mən həmin günlərdə Ruh DOSTUM, Ustad Şairim Barat Vüsalla çox xoş və ömrümüzə yazılan zaman yaşamaq fürsətini yaşadım...dərləşdim...bölüşdüm...Bu günlərdə isə onunla bir növü onlayın qaydada söhbətləşdik .Və Azərbaycan Yazıçılar BirliyiQazax bölməsinin sədri,Əməkdar İncəsənət xadimi Barat Vüsalla söhbət zamanı şair dostumdan kiçik bir müsahibə yazmaq istəyimi də reallaşdırmaq imkanı qazandım...İndi həmin müsahibəni diqqətinizə təqdim edirəm:*

**- Barat, bəlkə xatırlayasan , AYB-nin Qazax bölməsi nə vaxtdan fəaliyyət göstərir?**

-Yazıçıların Qazax bölməsi 1989-cu ildə yaradılıb. İlk sədri 1993-cü ilin fevralına qədər yazıçı Saday Budaqlı olub. Bölmə Qazax, Agstafa, Tovuz, Gədəbəydə yaşayan ədəbi qüvvələri özündə birləşdirir.Bölmə ətrafında fəaliyyət göstərən "Vurgun bulağı" (Qazax), "Hüseyn Arif ədəbi məclisi" (Ağstafa) "Varislər" (Tovuz) və s ədəbi məclislər ilə yanaşı BDU-nun Qazaxdakı filialında yaradılmış"İsmayıl Şıxlı adına "Dəli Kür" poeziya Klubu"da istedadlı qələm sahiblərinin,istedadlı gənclərin üzə çıxarılmasında mühüm rol oynayır. Bölmədə mütamadi olaraq bölgədə yaşayan yaradıcı adamların kitablarını nəşrə hazırlamış, nəşr olunmuş kitabların təqdimatlarını təşkil etmişik.Onların Azərbaycan Yazıçılar Birliyinə üzvlüyə qəbul olunmaları üçün zəmanətlər hazırlayıb vermişik. Klassik şair və yazıçılarımızın yubileyləri qeyd olunmuş, dünyasını dəyişmiş qələm sahiblərinin xatirəsi unudulmamış, anım günləri keçirilmişdir. Bölmədə yaradıcı gənclərin yaradıcılığına həmişə xüsusi diqqət və qayğıyla yanaşılmışdır.Belə ki, Ədəbi



gəncliyin ən istedadlı nümayəndələri AYB nəzdində fəaliyyət göstərən "Gənc Ədiblər Məktəbi" nin üzvləri və müdavimləri olmuşlar, oradan da birbaşa AYB üzvlüyünə qəbul edilmişlər.Həmin gənclərdən 7 nəfəri eyni ildə müddətli Prezident təqaüdünə layiq görülmüşlər. Onlardan bir neçəsi İdman və Gənclər Nazirliyinin xüsusi mükafatını da almışlar.Ümumiyyətlə, bölməmiz ətrafında təmsil olunmuş yazrlardan 19 nəfərin Prezident təqadünə layiq görülməsini işimizə verilən qiymət kimi dəyərləndirmək olar. Bölməmiz başqa bölmələrlə sıx əlaqələr saxlayır. Eləcə də AYB-nin rəhbərliyi altında hazırlanıb həyata keçirilən bir çox maraqlı layihələrin bas tutmasında biz də yaxından iştirak edirik. Bu layihələrdən pandemiyadan əvvəlki illərdə reallaşmış "Şairlər günü" (lahiyə rəhbəri Xəyal Rza)," Cəbhəni qarış-qarış "(Lahiyə rəhbəri Elçin Hüseynbəyli) və s. lahiyələri göstərə bilərik.Son vaxtlar məlum pandemiya üzündən yaranmış məhdudiyyətlərə baxmayaraq onlayn şəkildə tədbirlərlə fəaliyyətimizi nizamlayır və davam etdiririk.

**- Deyə bilərsənmi ötən il nə ilə yadda qaldı?**

- Ötən il bizim də yaddaşımızda çox mühüm ədəbi hadisələr və tədbirlər ili kimi qaldı.

Prezident İlham Əliyevin tarixi sərəncamı ilə 2022-ci il "Nizami ili" elan olundu.Avqustun 30-da Şüşada Heydər Əliyev fondunun bərpa etdirdiyi "Vaqif Məqbərəsi" nin açılışında mən də iştirak etdim. Möhtərəm Prezidentimiz "Vaqif Poeziya günləri"nin iştirakçıları sırasında məni də görəndə "Salam, qazaxlı şair, necəsən?" deyəndə ürəyim Prezidentimizə ehtiram və qürur hissilə doldu.Ötən il Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Ağstafa Regional İdarəsi ilə birgə bölməmizi əhatə edən rayonlarda yaşayan şairlər arasında Nizami Gəncəvinin 880 illiyi münasibətilə şeir müsabiqəsi keçirdik, qaliblər mükafatlandırdıq.Azərbaycan Yazıçılar Birliyi rəhbərliyinin və katibliyinin qərarına əsasən "Nizami Gəncəvi" mükafatı təsis edildi. Mənə də mükafat verildiyinə görə AYB rəhbərliyinə və katibliyinə öz təşəkkürümü bildirirəm.Nəhayət, ötən il bizim bölməyə aid şair və yazıçıların yaddaşında 44 günlük Vətən müharibəsində çaldığımız şanlı Zəfərlə bağlı Qazax rayon icra hakimiyyətiylə birgə keçirdiyimiz şeir müsabiqəsi kimi də iz qoydu.



**-Barat Vüsala görə bölmə özünü nədə ifadə edir, əhəmiyyəti nədir?**

-Mərkəzdə keçirilən müxtəlif ədəbi tədbirlərdə iştirak etmək üçün bölgələrdəki ədəbi qüvvələrin imkanı məhdud olur.Bu məhdudluğun yaratdığı imkansızlığı aradan qaldırmaq baxımından bölmələrin fəaliyyəti mühüm əhəmiyyətə malikdir.

**-Yəqin ki, xəbərin var , artıq Azərbaycan Yazıçılar Birliyinə qəbul başlayıb. Bu işdə bölmənin üzərinə nə kimiişlər düşür?**

-Azərbaycan Yazıçılar Birliyinə üzvlüyə qəbulun başlanması ilə bağlı onu deyə bilərəm ki, əvvəllərdə olduğu kimi, indi də üzərimizə böyük məsuliyyət hissi düşdüyünü anlayırıq. Nazim Hikmət qeyd edirdi ki, "Sənətlərin ən qorxulusu şairlikdir.Sirlərin sirrini öyrənmək üçün ürəyini yeyəcəksən, yedirəcəksən."

Sənətə bu baximdan yanaşırıq, çalışırıq ki, inkişafımızın və həyatımızın elə dövrünə qədəm qoymuşuq ki, təsadüfi adamlar, sənətə dəxli olmayanlar Azərbaycan Yazıçılar Birliyinə yol tapmasınlar, tapa bilməsinlər.

**- Sirr deyilsə, deyə bilərsən , AYB-nin növbəti qurultayından nə gözləyirsiniz?**

-Azərbaycan Prezidenti İlham Əliyev deyir ki, "Biz müstəqilliyimiz üçün dinimizə, dilimizə, tariximizə, Ədəbiyyatımıza, elitar ziyalılarımıza və siyasi xadimlərimizə borcluyuq."

Hesab edirəm ki, qurultaya qədər AYB öz üzərinə götürdüyü vəzifələri indiyə qədər müstəqilliyimizin əldə edilməsi, dövlətimizin möhkəmləndirilməsi baxımından neçə yerinə yetiribsə qurultaydan sonra da həmin yüksək səviyyədə yerinə yetirəcəkdir.

**-Çox sağ ol, Ustad! Allah Sənə və çevrəndə olanlara can sağlığı və təbii ki, həm də daha böyük uğurlar qismət etsin!**

**Söhbətləşdi:**
**Əbülfət MƏDƏTOĞLU**

# Nuh gəmisinin son limanı

*Ramiz Qasımov AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent*



**Şair, jurnalist və publisist Əbülfət Mədətoğlunun kitabı haqqında**

**İstedadlı jurnalist, şair və publisist Əbülfət Mədətoğlunun "Nuh gəmisinin son limanı" adlı kitabı adından tutmuş məzmununa qədər sanballı, səmimi və məharətlə yazılmış, özündə aktual olan Naxçıvan mövzusuna həsr edilmiş qiymətli bir əsərdir. Bir səfər təəssüratı daşıyan və özündə Naxçıvanın müasir inkişaf səviyyəsi və müxtəlif məsələlərini əhatə edən kitabda ciddi məsələlər əks edilmişdir. Əsərdə həm müasir Azərbaycanın inkişaf simasını təzahür etdirən uğurlu bir nümunə kimi Naxçıvan modeli və bu uğurlara nail olmanın sirləri konkret fakt və çoxsaylı nümunələrlə göstərilmişdir. Bakıda "Adiloğlu" nəşriyyatında 2021-ci ildə çap edilmiş 200 səhifəlik kitabda Naxçıvanla bağlı bir şair və ya ziyalının təəssarütləri yer almaqla bərabər, çox böyük əxlaqi əhəmiyyəti olan mənəviyyat məsələlərindən də söhbət açılmışdır.**

Kitab "Giriş"lə başlayıb, 19 məqalə ilə davam etdirilir. Kitabın redaktoru Naxçıvan ədəbi mühitinin istedadlı nümayəndələrindən olan Hüseyn Əsgərov, "Naxçıvana sonsuz sevginin, məhəbbətin sədası" adlı ön söz və rəyin müəllifi isə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigardır.




Kitabda "Əlincəyə gedən yol", "Batabata gəlmişəm", "Naxçıvanda açdığım səhər", "Naxçıvanın sirlər dünyası", "Masazırdan Naxçıvana", "Bir addım da dünyaya yaxınlaşdım" və başqa məqalələrdə Naxçıvanla bağlı ən müxtəlif məsələlər publisistik məharətlə səmimi, obyektiv və dolğunluqla əks edilmişdir.

Azərbaycan ədəbiyyatı tarixində səfər təəssüratları kontekstində səfərnamə janrı olaraq çox qiymətli əsərlər yazılmışdır. Adıgedən bu əsərdə də, xüsusilə başlıq olaraq qeyd edilən məqalələrdə Naxçıvan haqqında əhatəli, konkret, dolğun və inandırıcı faktlarla bədii-publisistik mənzərə yaradılmışdır. Əsərdə sanki Naxçıvanı ziyarət ehtiyacının əhəmiyyəti və səbəbi, ziyarət edilməli yerlərin xəritəsi və zamanlama tövsiyəsi, əhalinin sosial durumu, infrastrukturun vəziyyəti, mənəvi dəyərləri və s. çoxsaylı konkret fakt, nümunə və örnəklər vasitəsilə dəqiq, obyektiv və inandırıcı şəkildə təqdim edilmişdir. Əsərin özünəməxsusluğu və digərlərindən zəruri fərqi və əlamətdar fərqi boş mübaliğələrdən qaçınmaqla konkret faktların təsviri və təqdim edilməsi ilə fikir və təəssüratın yaradılmasıdır. Real təsvir tapan konkret faktlar oxuculara sanki zərrəbinlə Naxçıvanı müşahidə etmək imkanı bəxş edir. Müəllfin öz sözlərilə deyilsə, əsər "ovqat yazısı" olmaqla bərabər "ağlın kəsdiyi", təhkiyə şirinliyi və sadə, anlaşıqlı üslubda yazılmışdır.

Əsərdə müəllif real və konkret faktlar təqdim və təsvir etməklə obyektivliyə, vicdan və həqiqətə sədaqət göstərmiş, tərəfsizlik nümayiş etdirmişdir. Əsərin özündəki çoxsaylı müəllif fikirləri: "qayıdıb gələn cismimdi, ruhum orda qalıb", "Bu da Naxçıvanın hava limanı: ...Hava limanı binasında, həm kassaların önündə, həm gözləmə zallarında kiminsə çıxarıb siqaret çəkdiyini görmək mənə nəsib olmadı", "Hamı vətəndaşdı və hamı da öz vətəndaş missiyasından çıxış edir", "...onu yaşamq və onun içərisində də özünü yaşatmaq, mən bunun nümunəsini Naxçıvanda görürdüm", "Bu bağda Azərbaycanın milli məişətinin, milli mədəniyyətinin sənət nümunələri də müştəriləri qarşılayır", "hərdən mənə elə gəlir ki, bu mənzərə reallıq deyil. Eləcə rəssam işidi və yaxud hansısa bir maketlərdi, gətirib yerləşdiriblər", "Cənnətin özünü görmək istəyən Naxçıvana gəlsin!!!", "vallah, bu, birmənalı tarix sevgisidir, Vətən sevgisidir, torpaq sevgisidir. And olsun Allaha ki, bu, özünə, keçmişinə, gələcəyinə ehtiram deməkdir", "yaradanlara, bu tarixi yaşadanlara içimdən bir dua keçdi", "İdarə edənin özünün münasibəti artıq Muxtar Respublikada bir ənənəyə çevrilib", "sürücülər yolu keçmək istəyən piyadanı görəndə 20-30 metrlikdən maşını əyləməyə başlayırlar", "mən burda ucadan danışan, başqasına öz səsiylə, davranışıyla problem yaradan bir kimsəyə rast gəlmədim", "onları ya əllərindəki kisəyə qoyur, ya da yaxınlıqdakı zibil qutusuna atırdılar", "kəndarası yolların səviyyəsi adamı məmnun edir... bu gözəlliyə, bu səliqə-sahmana ürəyimdə bir həsəd hissi də baş qaldırır" kimi çoxsaylı müəllif fikirləri konkret faktların dili və təsvirilə reallığa haqq qazandırmaq və onu oxucusuna inandırıcı şəkildə təqdim etməsinə vəsilə olur. Bütün bu fikirlərin fonunda isə müəllif Naxçıvanın "ləyaqətli və idarətmə peşəkarlığı olan insanlar tərəfindən" idarə edildiyini fəxarətlə qeyd edərək qənaətini "Ölkənin məsul işçilərini, rayon rəhbərlərini Naxçıvanda təcrübə keçməyə göndərməyin zamanı gəlib çatıb!" fikrilə tamamlaması da müəllifin şəxsi mövqe və imzası kimi çıxış edir. Naxçıvanın ümumi vəziyyətinə olan heyranlığını müəllif həm də böyük Azərbaycan şairi Nizaminin ideal cəmiyyəti ilə müqayisələndirərək təqdim edir və müəllif bunu da cəsarət və vicdanla yazır ki: "Mən Naxçıvanın indiki durumunu Şeyx Nizaminin ideal cəmiyyətinin bir görüntüsü kimi müşahidə etdim". Əsərin ikinci hissəsində Naxçıvan ədəbi mühitinin istedadlı nümayəndələrilə şəxsi münasibətlər və onların yaradıcılıq işlərindən bəhs olunur. Müəllif şəxsən tanıdığı, dostluq etdiyi Naxçıvandan olan insanların münasibətləri nümunəsində buradakı əxlaqi-mənəvi dəyərləri, dostcanlılıq və qonaqpərvərlik, sadəlik və mehribanlıq kimi keyfiyyətləri təqdim və tərənnüm etmişdir. Eləcə də bu məqalələrdə Naxçıvanın istedadlı qələm sahibləri Asim Yadigar, İbrahim Yusifoğlu, Fərəc Fərəcov, Əbülfəz Ülvi, Firudin Süleymanoğlu və b. kimi söz adamlarının yaradıcılığından, burada yaradıcı adamlara göstərilən qayğıdan və xeyirxah münasibətlərdən ağızdolusu, həm də nümunə olaraq danışılır.

Əsərdə müəllif həm də bir vətəndaş təəssüübkeşliyini ortaya qoyur. O məqamda bir ziyalı-vətəndaş səsini bildirir ki, bəzən Azərbaycanın bu inkişaf nümunəsi olan bölgəsilə bağlı müxtəlif yerlərdə qərəzli fikirlər səsləndirilir. Bu məqsədlə müəllif müəyyən qeydləri sırasında Naxçıvanda gedən inkişaf proseslərinə, abadlıq, quruculuq tədbirlərinə duyduğu heyranlıq, məmnunluq və razılıq kontekstində Bakı və digər ərazilərlə müqayisələr də aparır, bəzi KİV-lərdə Naxçıvana qərəzli münasibətlərlə bağlı fikir səsləndirmələrinə münasibət ifadə edərək müəllif obyektivliyi və səmimiyyətindən başqa bir vətəndaş mövqeyi ilə də çıxış edir, hər kəsə əlini vicdanına qoymağı, blokadada olan bir bölgənin inkişaf və tərəqqisinə xor baxmamağı tövsiyə edir: "Bakıda, ölkənin paytaxtında eşitdiklərim, iqtidar-müxalifət mətbuatından oxuduqlarım düşüncələrimdə bir xaotiklik, yaratmışdı" (s. 15), "bu olanları necə qara rəngdə təqdim etmək olar?" (s. 21) və s.

**Ümumiyyətlə isə, şair, publisist və jurnalist Əbülfət Mədətoğlunun "Nuh gəmisinin son limanı" əsərini Azərbaycanın alınmaz qalası və ən dilbər guşələrindən olan Naxçıvanın müstəqillik dövründəki inkişafına, blokadanın çətinliklərini məharətlə aşaraq tərəqqi etməsinin təsvirinə və sirrinə, uzaqgörən idarəçilik məharətinə, əhalinin mübarizə əzmi və qurub-yaratmaq eşqinə və s. həsr olunan, müəllif, ziyarətçi obyektivliyi ilə nəzər salan ən sanbalı əsərlərdən biri hesab etmək olar. Əsər boş təəssübkeşlik duyğularının hiperbolik ifadə sözçülüyü deyil, obyektiv və real faktların vicdan və həqiqət işığında təsvirilə yazılmışdır.**

# Mabel Matizin "Gözlərinə" baxanda...



**Mabel Matiz Türkiyədə ən sevdiyim və ən çox dinlədiyim sənətçilərdəndir. Oxuduğu mahnılar, seçdiyi üslub, qeyri-adiliyilə milyonların sevimlisinə çevrilib. Onun son zamanlar dinlədiyim "Gözlərinə" mahnısının klipinə baxdım.**

Mabeli giriş səhnəsində bütün inancları özündə əks edən simvolların olduğu dünyəvi və müqəddəs bir məkanda görürük. Onun mahnılarında, kliplərində zaman-zaman bu cür alt mesajlar çox olub. Mahnının sözlərində də deyildiyi kimi Mabel mələk xarakterində dua edir. Mabel dua edərkən ondan çıxan işıq görürük. Klip boyunca bu tərz işıqlar, bir-birindən fərqli ortamlardakı insanların üzündə tez-tez hiss edilir. Klipin sonunda da bütün insanların bir araya gələrək rəqs etdikləri bir səhnəni görürük. Tam o məqamda klipin

Məhz bu məqamda, klipin əvvəlində biz Mabeldən çıxan işığın əmələ gəldiyini, onların üzərində yüksəldiyini, onları ilahi və mütləq bir sevgi ilə qanadları altında birləşdirdiyini görürük. Buradakı mələk fiqurunun üzünün də Mabelə aid olduğu görünür. Bütün bunları klip boyu edərkən Mabel həmişəki kimi simvollardan və bir çox vizual detallardan dəstək alır. Namaz səhnəsində mistisizmdə vav-elif mövzusunu görmək, dünya gözəlliklərini simvolizə edəntovuz quşu, Elvisin geniş yaxalıqları, Zeki Mürenin geniş dikdabanları, 90-cı illərin bizləri heyran edən qəşəng, nazlı kliplərindəki ümumi ifadəsi, hətta rəsm əsəri. Fatih Sultan Mehmet, doğumundan sonra... İlk baxışda diqqətimi çəkən detallar bunlar oldu.

Və Mabelin mahnılarını dinləməklə yanaşı, kliplərinə baxmağı da özümə söz verdim.Minlərlə pul xərcləyib mənasız kliplər çəkən, bir bahalı maşın və hansısa rayondan ibarət olan kliplər sənət deyil. Sənət Mabelin gördüyü işdir.

**Eminquey**

# Dünya, məkan, ailə

**Ailə, ailə həyatı qurmaq məncə insan oğlunun etdiyi ən böyük, dahi kəşflərdəndir. Bu, o qədər beynəlmiləl, rəhmdil, xeyirxah bir mərasimdir ki, dünyanın bütün nöqtələrində, bütün xalq və tayfalar milli mənsubiyyət və dinlərindən asılı olmayaraq sözsüz buna əməl edirlər.**

**Dəqiq bilən yoxdur, bəlkə də dünyanın yarandığı ilk gündən sonra yüz illərlə insanlar bir-biri ilə əlaqə qurmur, ünsiyyət vasitəsi olan dildən yan keçirdilər. Sonralar insanlar kimin və ya nəyinsə göstərişi, istiqaməti ilə danışmağa başlamışlar. Burada fikir mübadiləsi, vəhdət şəklində eyni amal, məqsəd, təfəkkür uğrunda düşünmək ehtiyacını ortaya çıxıb. Bu da artıq hərtərəfli təkamül demək idi. Adamlar, onlar arasındakı əlaqənin inkişafı dünyanın inkişafına böyük təsir göstərdi. Ünsiyyət vasitəsi olan dil də inkişafa əsas təkan verən vasitələrdən biri oldu. Çünki dilin inkişafı olmasa həyatın, dünyamızın inkişafı qeyri-mümkündür.**

...Çarlz Darvinin təkamül nəzəriyyəsi də həqiqətdən uzaqdır. Ç.Darvin sübut etməyə çalışırdı ki, insan meymundan əmələ gəlib, insanı guya əmək yaradıb. İnsan əgər meymundan əmələ gəlibsə, burada iki sual ortaya çıxır.

O zaman meşələrdən meyvə, toxum, yarpaq, yabanı bitkilər (meymundan ötrü qida məhsulu) istənilən qədər idi. Meşələr indiki kimi qırılmır, hər yan əkilib becərilmirdi. Meymun da o qədər işləmir, çalışmırdı.

Çünki onun yaşam mövcudluğu üçün lazım olan hər şey lap yaxında, əlinin altında idi. İndi isə meymun bir parça qida məhsulu əldə etməkdən ötrü saatlarla əlləşir, minbir əziyyət çəkir.

Yəni meymun səhərdən axşama qədər fiziki işlə məşğul olur.

Və nədənsə, bu qədər əlləşib, vuruşan meymundan indiki zamanda insan əmələ gəlmir? Və bir də görəsən insan hansı meymun cinsindən əmələ gəlib? Əgər bir meymun cinsindən əmələ gəlibsə, bu qədər milli mənsubiyyətlər hardan peyda olub? Suallar çoxdur, dəqiq cavab isə mövcud deyil.

Demək zahirən çirkin olan Ç.Darvin öz eybəcərliyinə haqq qazandırmaq üçün meymunla insanın qohumluq əlaqələrinin olduğunu söyləmişdir:

***Darvin uydurub***
***öz fərziyyəsini,***
***Atıb ortaya***
***Təkamül nəzəriyyəsini.***
***Darvini demirəm,***
***mənim meymunla***
***əlaqəm yoxdur.***
***Amma, öz aramızdır,***
***dünyamızda meymuna oxşayan***
***adamlar çoxdur...***

**Adil Misirli**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# DÖRD ÇAY ARASI

**Azərbaycanın cənub-qərb bölgəsində yerləşən Zəngilan rayonunun özünəməxsus təbiəti, coğrafiyası, həm də maddi-mədəni özəlliyi ilə seçilən dünyası var. Yəni bu rayon həm Qərbi Azərbaycan torpaqları, həm də Qubadlı və Cəbrayılla həmsərhəd olduğundan Zəngilanda həyat səviyyəsinin inkişaf tempi, eləcə də iqtisadi resursları həmişə diqqəti çəkib. Bu isə Zəngilanın coğrafiyasının ona verdiyi üstünlüklə yanaşı, həm də zəngilanlıların özlərinin əməksevərliyi, qurub-yaratmaq məharətlərinin yüksəkliyindən xəbər verir.**

Biz ölkəmizin Regionlarının İnkişafına Dair Dövlət Proqramı çərçivəsində Zəngilan rayonuna səyahət etməyi qərarlaşdıranda təbii ki, öncə bu bölgənin tarixinə diqqət yetirdik. Onda məlum oldu ki, Zəngilan rayonu bir ərazi vahidi kimi sovet dönəmində, yəni 1930-cu ildə təşkil edilib. Və bu rayon yaradılarkən, hətta Qubadlı və onun 18 kəndi də eyni ərazi vahidində birləşdirilmişdi. Lakin 1933-cü ildə Qubadlı və onun 18 kəndi Zəngilan rayonundan ayrıldı və həmin vaxtdan etibarən Zəngilan Azərbaycanın cənub qərbindəki ən böyük rayonlarımızdan biri kimi formalaşmağa başladı, rayonun tarixi özəlliklərinə diqqət yetirəndə onda görmək olur ki, hələ XIV əsrdən adı elmi ədəbiyyatda keçən Zəngilan şəhəri əslində Pircavan şəhəriymiş. Yerli sakinlər bu gün də Zəngilan sözünün kökündə dayanan Pircavan anlamını yaxşı xatırlayır. Söylənilən fikirlərə görə, "pir" sözü sovet bolşeviklərini rahatsız etdiyindən onlar 1930-cu ildə Pircavanı Zəngilan kimi adlandırmışlar. Və 1957-ci ildən bu ad rəsmiləşmiş, 1967-ci ildə isə rayon mərkəzinə şəhər statusu verilmişdi. Rayon ərazisində qədim abidələr, maddi-mənəvi nümunələr kifayət qədərdi. Onların arasında Məmmədbəyli türbəsi, Yenikənd sərdabəsi, Bartaz qız qalası, Koroğlu daşı, Hacallı dairəvi bürcü, eləcə də Zəngilan şəhərinin özündəki qədim məscid bu coğrafi ərazinin həm məskunlaşma tarixinin qədimliyinin, həm də burada memarlığın, arxitekturanın inkişaf səviyyəsinin göstəricisidir. Bu daş abidələrlə həmsöhbət olub tarixə baş vuranda həm Zəngilan ərazisinin, həm də bütövlükdə Azərbaycan coğrafiyasının zənginliyi insana qürur hissi bəxş edir. Çox təəssüf ki, 1993-cü ilin oktyabr ayının 29-da Ermənistan silahlı qüvvələri Azərbaycanın bu rayonunu da işğal edərək buradakı tarixi abidələrimizə, maddi-mənəvi sərvətimiz olan ziyarətgahlara, arxitektura nümunələrinə, hətta bu ərazidəki həyat əlaməti olan hər şeyə faşist təfəkkürü ilə yanaşaraq məhv etmişlər.



Elə bugünlərdə həmin bölgəyə səfər edən ölkəmizdəki xarici səfirliklərin nümayəndələri, media təmsilçiləri talanmış Zəngilanın real mənzərəsinin şahidi oldular. Düşmənin yerlə yeksan etdiyi Zəngilan böyük qələbəmizin hesabına işğaldan azad edildikdən sonra bu rayonun bərpası, yenidən qurulması üçün Azərbaycan prezidentinin verdiyi tapşırıq və sərəncamlar artıq işə düşüb. Yəni əlaqədar qurumlar Zəngilanda yolların, işıq və su xətlərinin yenidən qurulmasına, bərpasına başlayıblar. Böyük Qayıdışın tərkib hissəsi olan Zəngilanda əvvəlkindən də yüksək səviyyədə quruculuq işlərinin gerçəkləşdirilməsi qarşıda duran ən böyük vəzifələrdən biridi. Bu vəzifələrin icrası həm dövlət qurumlarının, həm də özəl sektorda çalışanların bir növü qayəsinə çevrilməlidi. Çünki Zəngilanın özünün həm təbii, həm də coğrafi imkanları burada müasir şəhər-kənd salma üsullarından istifadəyə geniş meydan açır. Əgər Zəngilan ərazisindən 4 çay keçirsə, deməli, bu özü-özlüyündə bu regionda balıqçılığın inkişafına imkan yaratmış olur. Yəni Araz, Oxçuçay, Həkəri və Bəsitçay sularından yararlanaraq burada süni balıq yetişdirmək zənnimcə, həm bölgənin, həm ölkənin, həm də bu sahə ilə məşğul olacaq hər kəsin rifahına müsbət təsir edər. Bundan başqa, Zəngilan ərazisində bağçılığın, üzümçülüyün inkişaf etdirilməsinə də real şərait var. Hətta sovet dönəmində məşhur olan "Ağ Oyuq"un üzüm plantasiyalarının səsi-sorağı ətraf rayonlara da gedib çatmışdı. Zəngilan ərazisində dənli bitkilərin, tütünün yetişdirildiyi də tarixi bir gerçəklikdi. Burada heyvandarlıqla yanaşı, ağac emalı sahəsinin də daha geniş miqyasda təşkilinə imkanlar var. Çünki planetin ikinci ən böyük çinar meşəsi məhz Zəngilan rayonu ərazisində yerləşir. Məhz Zəngilanın çinar meşəsinin ərazisini genişləndirmək və bərpa etməklə media istehsalı sahəsində uğurlar qazanıb ölkə hüdudlarından kənara da çıxmaq mümkündü.

Bu gün Zəngilan rayonunun işğaldan azad olunmuş torpaqlarında bostan-tərəvəz məhsullarının yetişdirilməsi, quşçuluğun inkişafına meydan verilməsi yəqin ki, iqtisadçılarımızın diqqət mərkəzində olacaq. Çünki planlaşdırılma aparılanda regionun həm xüsusiyyətləri, həm də burada yaşayanların özlərinin illərlə formalaşdırdığı təsərrüfat modelləri nəzərə alınmalı və məhz yerli modeldən çıxış edərək daha müasir modelin yaradılmasına dəstək verməklə bahəm nümunələr də ortaya qoymaq işin xeyrinə olar.

Əgər biz "ağıllı şəhər" və "ağıllı kənd" modellərilə işğaldan azad edilmiş bölgələrimizin inkişafını dəstəkləyiriksə, bu quruculuq işləri özü-özlüyündə kənd təsərrüfatının, iqtisadiyyatın, bütövlükdə sosial həyatın həmin bölgəyə uyğunluğunu nəzərə almağı da tələb edir.

Bir anlıq Zəngilanın işğaldan öncəki təsərrüfat həyatına nəzər salsaq, görərik ki, rayonun dağətəyi ərazisində daha çox kənd təsərrüfatı sahəsinə üstünlük verilmişdi. Yəni dənli bitkilərin əkini, üzümçülük, bağçılıq, tütünçülük, heyvandarlıq, eləcə də həmin heyvandarlığın inkişafında önəmli məqam olan yemçilik və örüş sahələrinin də nəzərdə tutulması xarakterik cəhədlərdən idi. Yeri gəlmişkən, onu da qeyd edim ki, Zəngilan rayonunda arıçılıq təsərrüfatı da fəaliyyət göstərirdi. Ümumiyyətlə, rayon ərazisindəki çayların suyundan istifadə etməklə, burada quşçuluğun inkişafına da geniş imkanlar açmaq olar. Bu da öz növbəsində quş ətinin və quş tükünün tədarükü baxımından diqqəti çəkir.



**Doğrudur, sovet dönəmində rayon ərazisindən keçən dəmiryolu xətti həm sakinlərə iş yeri, həm də dəmir yolunun imkanlarından istifadə etmək baxımından çox sərfəli idi. Həmin dövrün faktlarına üz tutanda məlum olur ki, rayon ərazisində 21 dəmir yolu müəssisəsi və 6 dəmir yolu vağzalı fəaliyyət göstəribdi. Bu gün həmin dəmir yolunun bərpası təbii ki, daha böyük imkanların yaradılmasına səbəb olacaq. Eləcə də Zəngilandan Naxçıvana quru sərhəddinin açılması da gələcəkdə bu rayonun inkişaf perspektivini daha da artıracaqdı. O ki, qaldı rayonda aparılacaq tikinti işlərinə, qeyd etmək lazımdır ki, hələ sovet dönəmində rayonun qum, çınqıl və daş təminatı baxımından imkanları yetərincədi. Deməli, Zəngilanın, yəni dörd çay arasında olan bu ərazinin inkişaf imkanları daha genişdir.**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



***SABİR YUSİFOĞLU***

*Fevralın 10-da Şair dostum Sabir Yusifoğlunun 60 yaşı tamam olur!*

*1962 - ci ilin fevralında Cəlilabad rayonunun Adnalı kəndində anadan olub. Bu gün Sumqayıtda yaşayan Sabir müəllimin maraqlı və düşündürən poeziyası onun İlhamlı və Ağrılı ÜRƏYİNİN pıçıltılarıdı... Doğum GÜNÜN mübark, ŞAİR Sabir YUSİFOĞLU!*

*"Ədalət"*

## KİTAB SÖHBƏTİ

**"Kitabların niyə balacadı?" soruşanlara...**

*Mənim kitablarım çox balacadı,
uşaq pencəyinin cibinə sığar.
Sıxıb gözlərini suvara bilsən,
cücərib içindən kitablar çıxar.*

*Boy-buxun sarıdan sən deyəndi...
Hə,-
kitablar içində boyu görünməz.
Nə təhər istəsən vərəqlə, çevir,-
heç bir tərəfindən "dayı" görünməz.*

*Mənim kitabımın üzü nazikdi,
qapı döyə bilmir, yol kəsə bilmir.
Bir az utancaqdı, bir az əfəldi,
pul çıxara bilmir, "pul kəsə bilmir".*

*Özüm çox sıxıntı çəkmişəm deyə,
sözümün də yeri darısqal olub.
Qalın kitablar var, yaxşı sıxsalar,
görərsən yerində qabığı qalıb.*

*Şişib böyüdükcə
balacaların
hər yerdə haqqını yeyən kitablar,
Ürək tərəfdəki yerləri tutur,
gözünə balaca dəyən kitablar!*

## VƏTƏNƏ SOYUĞ DƏYMƏSİN

*Ürəyimin saatını
düzəldib qurdum divara.
ovuclayıb dərdlərimi
ürəknən vurdum divara.*

*Bu divar durub neyləsin,
bircə belini əyməsin.
Vətənə soyuğ dəyməsin,-
çiynimi verdim divara.*

*Dünyanın başı çatışmır,-
ağlı, ya yaşı çatışmır?!
Gördüm ki daşı çatışmır,
özümü hördüm divara.*

## QARLI NAĞIL

*Gəraylı yaşında bir qız sevərsən,
qoşmaya çevrilib çıxar əlindən.
Ovcunda od tutar qar topası da,
Əriyə-əriyə axar əlindən.*

*Səni həsrət sevər, ayrılıq seçər,
köhnənin tanışı yolundan keçər,
"gəraylı yaşlı qız" qolunda keçər:
"Bu da xanımımdı"...
Sıxar əlindən.*

*... Ömür körpü kimi ortadan sındı,
sındı, qadan alım, çox qadın sındı!..
Gözləri onsuz da başqasınındı,
əlləri boylanıb baxar əlindən.*

## QANIMI SORUR ÜRƏYİM

*Ağlım nəsə düzüb-qoşur,
dağıdıb, qırır ürəyim.
Yenə düşüb sol əlimin
içində vurur ürəyim.*

*Tələsəndə dala çəkir,
guya doğru yola çəkir.
Ayağlarım sola çəkir,
tərsinə burur ürəyim.*

*Hərdən mənimlə öyünür,
hərdən baxmıram,- deyinir.
Bəlkə boş yerə döyünür,
özünü yorur ürəyim?!*

*Hərdən gözünü qan tutur,
üzün məndən də yan tutur.
Səhərəcən divan tutur,
məhkəmə qurur ürəyim.*

*Dost olmazdım belə bilsəm,
dərdi nədi?-
bilə bilsəm.
Üzə düşüb gülə bilsəm,
üzümə durur ürəyim.*

*Daşa çırpır yaddaşımı,
tutur dizimi, başımı.
Daha məndə qan daşımır,-
qanımı sorur...
Ürəyim!*

## QAN ÇƏKİR

*Vaxtilə vaxt var idi,
indi çox vaxt an çəkir.
Salam qaytarmağa da
adam var ki can çəkir.*

*Adamda vicdan varsa,
bir az təmiz qan varsa,
hansı tərəfdən vursan
ağrısın vicdan çəkir.*

*Yağışda da, qarda da,
bu üzdə də, orda da,
bir adsız məzarda da
vallah yenə QAN çəkir!..*

## XƏBƏRİM YOXDU...

*Yenə düz işləmir ömrün saatı,
gah qabağa qaçır,
gah da ki, yatır.
Gecə tıqqıltıynan başımı qatır,
gündüz sürünməyi
gözümə durur.*

*Halımı soruşma, təhərim yoxdu,
bəxt üzümə gülüb?!
Xəbərim yoxdu...
Yalandan ha deyim
dərd-sərim yoxdu,-
cizgilər...
güzgülər üzümə durur.*

*Yolumda hərdən dost,
düşmən əllərim,
işim yox minüzlü işnən,
əllərim.
Göydən boş qayıdan
peşman əllərim
qaldırıb hirsini dizimə vurur.*

## VARSAN...

*Hər tərəfdə varsan,
niyə
batdığımız yerdə yoxsan?!
Susuzluğda ilğım kimi
çadığımız yerdə yoxsan.*

*Hürkütdün şeytandan, cindən,
de, yapışağ hansı dindən,
bəs hardasan,
ətəyindən
tutduğumuz yerdə yoxsan?!*

*Düşüb bura da gələrsən,
hamını bir-bir ələrsən...
Eh!..
bir də...
özün bilərsən:
harda varsan, harda yoxsan!*

## SÜRÜŞÜB OVCUNDAN ŞƏKLİM DÜŞƏCƏK

*Quruyan dənizəm, batıram sənsiz,
gözdən yaş düşdükcə yaşın üstünə.
Vursan-çıxsan ömür cəmi beş gündü,
uzağı il də gəl, beşin üstünə.*

*Niyə tək gəlmədin son görüşə, tək?!
Bir-bir barmağını qatla beşədək...
Sürüşüb ovcundan şəklim düşəcək
bir divar həsrətli daşın üstünə.*

*Nəsə ağır gəldi, daş, bir balaca,
yola gec düşəydik, kaş, bir balaca!..
Hayıf!..
qol saatım donub qalacaq,
Əliboş gedirəm qışın üstünə...*

## SÖKÜLƏN, TİKİLƏN ŞƏHƏR...

*Daha çökür bu şəhərin
mənimlə yaşıd evləri.
Rəngi-ruhu öləziyir,
saralır yaşıl evləri.*

*Qocalıb əldən düşəni
saxlaya bilmir bu şəhər.
Özünə də fərli bir gün
ağlaya bilmir bu şəhər.*

*Divarların daş üzündə
qırışları yağış yumaz.
Bu dünyanın çıxışların,
girişlərin yağış yumaz.*

*Çökən evlərin dalınca,
köçən evlərin dalınca
düşüb qaçar xatirələr.
Diksinərik...
Başımıza,
üstümüzə evlər kimi
birdən uçar xatirələr?!
Gələndən haqq-hesab sorub,
gedənləri ötürmədi.
Ömrümüzü rüşvət verdik,
dərdimizi götürmədi.*

*Indi bizi ayaqlayıb,
göyə dırmaşır evləri.
Mənimlə qocalan deyil,
nəvəmlə yaşıd evləri.*

*Buludların ayağından
tutub yapışan bu evlər.
Ayaq üstdə, boş-boşuna
yatan, yatışan bu evlər.*

*Oturub kimi gözləyir
bu şəhərin boş evləri?!
Evlənməyə yaşı düşən
oğlumla tay-tuş evləri.*

*Divarların daş üzündə
qırışları yağış yumaz.
Bu dünyanın çıxışların,
girişlərin yağış yumaz...*

## BUZ TƏKİ RAHATDI ÖZÜM SARIDAN

*Allah bilmir məni harda saxlasın,
Yaxşı ki yer tapdım öz ürəyimdə.
Ölüm də sevəcək nə vaxtsa məni
Vurulub öləcək düz… ürəyimdə.*

*Bu payız ömrümün qışı da yetər,
Ağac basdırsam da, daha dərd bitər.
Haqsız cəza çəkən məhbusdan betər
Göynəyir nə qədər söz ürəyimdə.*

*Bir də göyərdərmi yaşı qurudan?-
Eh, bu yaşda kimdi məni yarıdan.
Buz təki rahatdı özüm sarıdan,
Bir az da qalıbdı köz, ürəyimdə...*

## ÖLÜM

*Köhnəldib çox təzələri,
özü qalıb təzə ölüm.
Minib saat əqrəbinə
gəlir gəzə-gəzə ölüm.*

*Hamının vaxtını bilir,
dəftərindən bir-bir silir.
Nə rüşvətə yaxın gəlir,
nə də baxır sözə ölüm.*

*Ağ libası nəmər verir,
dost-tanışa kədər verir,
nə kimsəyə xəbər verir,
nə alır icazə ölüm.*

*…uzaq deyildim ölümdən,
yenə də çıxdı əlimdən.
Dünyanın ən gözəlindən
gözəl imiş...
gözəl ölüm.*

## ALLAH,

*vermədiklərini
axtar öz cibindən çıxart.
Göyün yeddinci qatından,
lap yerin dibindən çıxart.*

*Bir lal qəbirqazan kimi
öz əlinlə qaz qəbrimi.
Tapmasan deyim çəmini
özün də qəbrimdən çıxart.*

*Apar, apar uzaqlara,
nağıl olum uşağlara.
Bu günü, bu üzü qara
ölkənin qəlbindən çıxart!..*

## DÜNYA İLƏ HEÇ-HEÇƏYƏM

*Məni yaxınlar öldürür,
qırağa ehtiyac yoxdu.
Biri də sənsən, ay zalım
yarağa ehtiyac yoxdu.*

*Heç bilirsənmi necəyəm?-
Dünya ilə heç-heçəyəm.
Ovcu günəşli gecəyəm,-
çırağa ehtiyac yoxdu.*

*Bu qara günlünü ağa
büküb verərlər torpağa.
Ölüdən xəbər tutmağa,
sorağa ehtiyac yoxdu.*

## Qoşa dayanan beşlər

**"Yenisəs.az" saytının baş redaktoru Fəridə Rəhimliyə**



***Bu bir həqiqətdir ki, insan özünə son dərəcə doğma, əziz olan şəxs barəsində yazmaqda həmişə çətinlik çəkib. Xüsusilə, bu şəxs qadın olanda. Çünki bu, sənin özün haqqında öz yazındı!***

***Və yazını yazdıqca min dəfə sözləri qaralayır, vərəqləri əzib atırsan... İstədiyin kimi ifadə edə bilmədiyin fikirlərdən əsəbləşirsən... Və yaxud da yazıb bitirəndən sonra oxuduqca yeni əlavələr, düzəlişlər... qaralamalar... yenə rahat olmursan. İlk yazı ilə növbəti yazı bir-birindən Yerlə Göy qədər uzaq, fərqli...***

***Saatlarla düşünüb, günlərlə götür-qoy etdikdən sonra özümü toparlayıb sürpriz etmək qərarını verdim. Doğrudur, bu qərarda da tərəddüdlü idim. Yazanda da, elə indi də əminəm ki, onun barəsində burada təbrik yazmağım xoşuna gəlməyəcək. Nostalji duyğuoardan, reklamdan huç xoşu gəlmir, amma ürəyimin hökmü ilə bu təbrikə daxilən özümü hazır bildim. Ona aid təmtəraqlı heç nə yazmadım. Axı əvvəldə demişdim ki, mən onun barəsində yazmayacağam. Yalnız həyatımın, düşüncə və duyğularımın ən əziz adamı barəsində bu konkret fikirlərimi sıralayacam:***

***- o, çox gözəl İnsandır;***
***- o, çox gözəl Anadır;***
***- o, çox gözəl Nənədir;***
***- o, çox gözəl Qohumdur;***
***- o, çox gözəl Vətəndaşdır;***
***- o, çox gözəl Redaktordur;***
***- o, çox gözəl bir Qadındır;***
***- onun mələk, ipək ürəyi, sərt xarakteri var.***

***O, doğum gününü qeyd etməsə də 14 fevral onun Günüdür. Günün mübarək, Fəridə Rəhimli!***

*Əbülfət Mədətoğlu və sənin əzizlərin, sevənlərin...*

# Əli Əmirli: "Teatr məni elə cəzb elədi ki, nə yazmaq istəyirdimsə , pyesə çevrilirdi "

## "Bütün sirr də elə hasarın görünməyən tərəfindədir"

***Bu dəfəki həmsöhbətim Azərbaycanın görkəmli yazıçısı, ssenarist, dramaturq, 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 1998-ci ildən Azərbaycan Teatr xadimləri ittifaqının üzvü, Azərbaycanın əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kinoşünaslıq və ekran dramaturgiyası kafedrasının müdiri, professor Əli Əmirlidir. Onunla söhbətim Azərbaycan Dövlət Mədəniyyət və incəsənət Universitetində oldu. Elə isə söhbətimizi sizə çatdırıram.***

**- Xoş gördük, Əli müəllim. İlk sualı belə ünvanlamaq istəyərdim ki, Əli Əmirli üçün yazmaq nə deməkdir?**

- Bu suala dəqiq cavab verməк çətindir, bununla belə, yazmaq mənim üçün mənəvi ehtiyacdır, özünü ifadədir, ruhi və fiziki rahatlıqdır. Bir sözlə, yazmaq həyat tərzimdir. Bir müddət yazmıramsa, narahat oluram, özümü qınayıram, danlayıram, etiraf etmək çətin olsa da, indiki yaşımda bir yazıçı kimi tükəndiyimi düşünürəm. Hər yeni əsərin son nöqtəsini qoyanda isə prosesdən zövq alır, məmnun oluram, özümü xoşbəxt hiss edirəm.

**- Yazmaq vərdişdir, ya istedad?**

- Əgər yazıçı, indiki halda dramaturq, özündə yazmaq vərdişi tərbiyə edə bilməsə, heç bir istedad ona kömək edə bilməyəcək. Yaradıcı proses dramaturq üçün təbii həyati vərdişə çevrilməlidir. Əks halda süjet üzərində ciddi nəzarətin, xarakterləri dərindən anlamağın, dialoq və replikaları həssaslıqla duymağın, işgüzar səriştənin belə xeyri olmayacaq. Odur ki, istedadla vərdişi üz-üzə qoymaq doğru deyil, onlar bir-birini tamamlayırlar.

**- Dramaturgiyamızın gələcək taleyini necə görürsünüz?**

- Dramaturgiyanın gələcək taleyi haqqında proqnoz vermək, fikir söyləmək, ümumiyyətlə, gələcək haqqında düşünmək mənlik deyil. Peyğəmbərimizə aid edilən bir hədisi yada salmaq istəyərdim: " Sabahın dərdini bu gün çəkmə ". Bu günü düşünmək daha məqsədəuyğundur. Bununla belə arxayın olmağa əsasımız var. Çox istedadlı, fəal, işgüzar, kreativ gənc nəsil dramaturqlar yetişir. Onların əsərlərini artıq teatr səhnələrində görürük. Təəssüf, bir ara dramaturgiyamızda bir nəsil boşluğu əmələ gəldi. İnanıram, bir 5 - 10 ilə çox parlaq imzalar çıxacaq meydana.

**- Dramaturgiyamızı ayaqda saxlayırsınız. Özünüz də əsas simasınız. Çətin və şərəfli mövqedəsiniz. Sizin üçün çətin deyil?**

- Dramaturgiyaya mən gec gəldim. İlk pyesim 1990 - cı ildə tamaşaya qoyulanda iyirmi illik nasir təcrübəm vardı, yaşım da 40 - dan yuxarı idi. Buna baxmayaraq dramaturgiyada özümü o qədər rahat hiss elədim ki, bir də nəsrə qayıtmadım. Teatr məni elə cəzb elədi ki, nə yazmaq istəyirdimsə , pyesə çevrilirdi. Bu otuz il içərisində cəmi iki nəsr əsəri yazdım: "Ağdamda nəyim qaldı" və "Mələk əmi".

**- Mədəniyyət və İncəsənət Universitetində kafedra müdirisiniz, professorsunuz, bu yaradıcılığınıza mane olmur?**

- İyirmi ildən çoxdur gələn il 100 yaşı tamam olacaq Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğulam. Hər cəhətdən gözəl bir kollektivdə işləməyimdən çox razıyam. O da yaxşıdır ki, tədris etdiyim fənlərin birbaşa yaradıcılığımla əlaqəsi var. Yəni, universitetdə də sevdiyim işlə məşğulam. Yaradıcılığımla müəllimliyim bir - birinə mane olmur, əksinə bir - birini tamamlayır.

**- Maraqlıdır, yazıları ilə diqqətinizi çəkən tələbələriniz olurmu?**

- İstedadlı, öyrənməyə həvəsli tələbələrimiz az deyil. Onların sonrakı fəaliyyətlərini də izləyirəm. Bu gün kinoda, ölkənin televiziya məkanında çalışan mütəxəssislərin əksəriyyəti bizim universitetin məzunlarıdır. Onların arasında artıq istedadını sübut eləmiş ssenaristlər, dramaturqlar, rejissorlar az deyil.

**- Yaradıcı insanların ruhu bir az fərqli olur deyirlər. Ruhunuzdan danışaq.**

- Ruh mənim üçün insanın mənəviyyatıdır. Onun haqqında danışmaq elə də asan məsələ deyil, bir halda ki, Peyğəmbərimiz özü belə ruh haqqında konkret bir şey deməyib, hətta ruh haqqında sorğuya cavab verməyi münasib bilməyib. Bu çox örtülü məsələdir.



**- Əli Əmirli deyərkən ağıla nədənsə "Hasarın o üzü" gəlir. Hasarın o üzündə nə var, nə yox? Niyə məhz hasarın o üzü?**

- Əsərin adı gələndə müəllif yada düşürsə, bu yaxşı əlamətdir. Hasarın o üzünə gələndə isə, cavab verməyə çətinlik çəkirəm, çünki hələ hasarın bu üzündəyəm, hamının tanıdığı üzündə, o biri üzünü görməmişəm. Bütün sirr də elə hasarın görünməyən tərəfindədir. Bu suala pyesin özündə də birbaşa cavab yoxdur. O dünya haqqında təsəvvürüm çox dumanlıdır.

**- Dini mövzuya toxunan əsərdir, maraqlıdır Əli Əmirlinin dinə münasibəti necədir?**

- Doğrudur, "Hasarın o üzü" bir ailədə dinə ikili münasibət üzərində qurulub. İnanan qadın və inamında tərəddüd edən kişi. Kişinin prototipi çox güman mən özüməm. Elə bununla da sualınıza cavab vermiş oldum. Təfərrüata varmayacam.

**- Pyesləri ən çox tamaşaya qoyulan müəllifsiniz. Deməli, teatra yaxın adamsınız. Teatrlarımızın çağdaş durumu sizi qane edirmi?**

- Yaşıma, əlli illik teatr təcrübəmə əsaslanıb deyə bilərəm ki, heç vaxt teatr mütəxəssislərinin çağdaş teatrdan razı qaldığını görmədim. Yaxşı teatr deyəndə həmişə keçmişə boylanır, keçmişi ideallışdırırlar.

Halbuki, o keçmişdə də teatrı danlayıblar, yamanlayıblar. Bu gün böyük rejissor kimi tez-tez xatırlanan Tofiq Kazımovun tamaşaları müasirləri tərəfindən ən kəskin hücumlara məruz qalmamışdımı? Və yaxud elə Tofiq Kazımovun özü bu gün də sevilən "O olmasın, bu olsun" filmini sərt tənqid atəşinə tutub, filmi "eybəcər oyunbazlıq" adlandırmamışdımı? Həmin film haqqında Abbas Zamanovun haqsız tənqidini demirəm. Deməli, ən ədalətli hakim zaman özüdür. Teatrdan gileyli münasibət tək Azərbaycanda deyil, çox uzağa getməyək, bizə həmişə nümunə göstərilən Rusiya teatrlarında da elədir, Gürcüstanda da. Onlar da öz teatrlarından narazıdırlar. Rus mətbuatını izləmək kifayətdir. Bir teatr adamı kimə mənə gəldikdə isə, yaxşını görməyə vərdişliyəm.

Azərbaycan teatrını küll halında götürəndə müsbət məqamları daha çox görürəm. Bununla belə yaxşıya, yeniyə, müsbət tendensiyalara, bir sözlə, inkişafa açıq olmalıyıq.

**- Yaradıcılıq qurban tələb edir deyirlər, bu yolda nələri qurban verdiniz?**

- Üzr istəyirəm amma heç bir əsası olmayan yanlış fikirdir, bu günə isə heç dəxli yoxdur. Nə yaradıcılıq, nə də incəsənət qurban tələb edir. Sənətkar Allahın verdiyi istedadla nəsə yaradırsa, onun yaratdığını insanlar qiymətləndirirsə, bu böyük xoşbəxtlikdir. Qurban verməkdənsə söz ola bilməz. Konkret mənə gələndə, nə qurban vermişəm, nə itkim olub. Mən sevdiyim, necə deyərlər, ləzzət aldığım işlə məşğulam. Xalqa da minnət qoymaq lazım deyil, hər bir yaradıcı adam seçilmək, tanınmaq, ilk növbədə özünə, mənafeyinə xidmət üçün yaradır. Nəticədə, xalq da onun yaratdığından məmnun qalırsa, nə gözəl!

**- Əli Əmirli nəyi itirmək istəməz?**

- İnsan istəsə də, istəməsə də son mənzilə doğru itirə-itirə gedir, bu qorxulu deyil, qorxulu olan ləyaqəti itirməkdir.

**- Olubmu ki, yazmaqdan usanasınız?**

- Tənbəlliyə meyilli olsam da, heç vaxt yoruldum, bezdim demirəm. Əgər yazmaq istəyim, yaratmaq ehtiyacım varsa, usandım, bıkdım sözləri ağlıma gəlməz. Amma bir şey var ki, yazmağa çox çətin başlayıram. Elə ki, işə girişdim, onun ləzzətini duydum, hər şey yoluna düşür.

**- Bu il üçün sizdən hansı yeniliyi gözləyə bilərik?**

- Yaradıcılıq tək pyes yazmaq deyil, məqalələr, təəssüratlar, müsahibələr, televiziya verlişlərində iştirak da yaradıcılıq işidir. Tədris etdiyim fənnlərlə bağlı dərs vəsaitlərinin hazırlanması, elmi işlərin yazılması, proqramların tərtibi, rəhbərlik etdiyim kafedranın idarə edilməsi də yaradıcı yanaşma tələb edir.

Əlbəttə, bütün bu işlər çox vacib, çox məsuliyyətli işlərdi, amma yeni bir bədii əsər, pyes yazmadığım ili özüm üçün uğursuz hesab edirəm. Ötən il iki pyes yazdım, onlardan biri möhtəşəm qələbəmizin şərəfinə yazıldı. Hər iki pyes - " Pərdəsiz " və " Bircə addım " , " Azərbaycan " jurnalında dərc olundular. Ötən ilin sonlarında " On beş pyes " və " Hasarın o üzü " adlı pyeslər kitabımdan sonra on bir pyesdən ibarət " Pərdəsiz " adlı üçüncü pyeslər kitabımı nəşr etdirdim. İnanıram, 2022 -ci il də mənim üçün səmərəli olacaq, inşallah!

**Söhbətləşdi:**
**Şəlalə CAMAL**

## Ədəbiyyatımızda yarpaq tökümü





**Şairlərimiz Şöhlət Avşar və Əli Vəkil Haqqa qovuşdu.**
**Allah rəhmət eləsin!**

## "Yarpaq tökümü" serialının balaca "Ayşə"si illər sonra: Gözəlliyi ilə göz qamaşdırdı



**Bir zamanların reytinqli layihələrindən olan "Yarpaq tökümü" serialının balaca aktrisası, Ayşəsi Şebnem Ceceli illər sonra ortaya çıxıb.**

Adalet.az "Sabah" qazetinə istinadən xəbər verir ki, Halil Ergün, Güven Hokna, Gökçe Bahadır və Bennu Yıldırımlarla rol alan Ayşə obrazını tamaşaçılara sevdirən Şebnem Ceceli böyüyüb gözəl bir gənc qız olub. Gənc aktrisanı görənlər onu tanımaqda çətinlik çəkib. Artıq kino sahəsindən uzaqlaşan Ceceli hazırda Özyeğin Universitetində hüquq ixtisası üzrə ali təhsil alır

Qeyd edək ki, Ceceli məşhur serialda 2006-2010-cu illərdə çəkilərkən onun 11 yaşı olub. Hazırda isə Ceceli 21 yaşındadır.

## Boşanma qərarı alan Alışan od püskürdü: "Biz rahat buraxın!"



**Bir müddətdir evliliklərində böhran yaşadığı deyilən türkiyəli müğənni Alişanla aktrisa həyat yoldaşı Buse Varol boşanma qərarı alıb.**

Adalet.az HaberTürk istinadən xəbər verir ki, qızları Elizin ilk ad gününü ayrı qeyd edən cütlük artıq ayrılmaq üçün gizli şəkildə prosedurlara başladığı məlum olub. Onlar artıq məhkəməyə də müraciət ediblər. Bu söz-söhbətlərdən sonraAlişan mövzu ilə bağlı susqunluğunu pozub. Tanınmış müğənni "Ərizələr verildi, qərarlar verildi...

Yox haqsızdı, yox haqlıdı... Xahiş edirəm, qardaş itkisinin acısını yaşayarkən, hələ yeni-yeni özümüzə gəlməyə çalışarkən, hər gün göz yaşı tökən anamı, həyat yoldaşımı, rəhmətlik qardaşımın həyat yoldaşını, övladlarımı və qardaşım uşaqlarını rahat buraxın!

Xahiş edirəm, özünüzdən ssenarilər yaratmayın! Şərh verməyin, bizə buraxın. Biz qərar verək. Onda nə istəsəniz danışıb şərh verə bilərsiniz"-deyə vurğulayıb.

Qeyd edək ki, Alişan və Buse Varolun iki övladı var.

## Savadsız, təhsilsiz şou-biznes nümayəndələri: "Lüks" həyat, evdə qulluqçu,sürücü, pradüsser, mühafizəçi...

**Yəqin ki, xatırlayarsınız: 2 -3 il əvvəl ARB TV-də yayımlanan "Hüseynova bacıları" verilişində "Avropada dörd ölkə" sualına "Amerikanın özü, İtaliya" cavabını verən müğənni Şəbnəm Tovuzlu izləyiciləri qarşısında gülünc duruma düşmüşdü. İzləyicisinin "özünüzü biabır etməyin, ayıbdır" sözlərindən sonra Şəbnəm belə reaksiya göstərmişdi:"Bilirəm Avropa ölkələri hansılardır və Amerikanın paytaxtı haradır, Nyu-Yorkdur. Kimlərsə reytinq xatirinə mənim koryerama zərbə vurur".**

Şou-biznes nümayəndələrinin bir çoxu kimi savadı kəm olan, auditoriya görməyən Şəbnəm Tovuzlu Amerikanın paytaxtının Vaşinqton olmasından xəbərsiz olaraq, göz düzəldən yerdə, vurub qaşı da partlatdı.Yeri gəlmişkən, "karyera" sözününəvəzinə isə "koryera" işlətməsi isə onun ədəbi dildən bixəbər olduğunu ortayaqoyub.

Adalet.az xəbər verir ki, təxminən eyni nüans müğənni Vəfa Şərifovanın da başına gəlib. ARB televiziyasında yayımlanan verilişdə qonaq olan müğənni Vəfa Şərifova Türkiyənin paytaxtının adını səhv deyib. O, Gürcüstan və Rusiyanın paytaxtını düzgün desə də, Türkiyənin paytaxtının İstanbul olduğunu söyləyib. Daha sonra səhvini düzəldərək Türkiyənin paytaxtının Ankara olduğunuvurğulayıb.

"Biz Türkiyənin paytaxtını İstanbul bilirik, çünki ən böyük şəhər hesab olunur"deyərək özünü "suya çəkməyə, təmizə çıxartmağa" çalışıb.

Qeyd edək ki, ötən il yazıçı Kəramət Böyükçölün müğənni Damla ilə baş tutanmüsahibəsi böyük səs-küyə səbəb olmuşdu.

Müsahibə zamanı dadsız olaylar yaşanmışdı. Belə ki, müğənni Kəramətin "Hansı alimləri tanıyırsınız?" sualını cavabsız qoyaraq verilişin dayandırılmasını istəmişdi.

***P.S.** Hər 3 müğənninin böyük izləyici və pərəstişar kütləsi var. Ən primitiv biliyə malik olmayan bu şou-biznes "nəhəngləri" lüks həyat yaşayır, evində qulluqçu, işində prodüsser, mühafizəçi, sürücü saxlayır. Amma tanıdığım alim var ki, siyası elmlər üzrə fəlsəfə doktorudur, ayda 450-500 manat maaş alır, 20 ilə yaxındır ailəsi ilə birgə 2 otaqlı "Xruşşovka"da ömrünü çürüdür, işə də avtobusla gedib - gəlir. Halbuki həmin alimin ayaqqabısının bildiyini şou-biznesin topası bilmir.*

*Əziz oxucularım, indi bilirsinizmi, cəmiyyətdə niyə balans pozulub, haqsızlıq başalıb gedir? Çünki, savadsızlığa, təhsilsizliyə düçar olmuş cəmiyyət, savadlını, ağıllını, alimi yox, Damlanı, Şəbnəmi, Vəfanı seçir...*

**Əntiqə**

Şixəmməd Seyidməmmədov - 70

# Mənalı həyat yolu

**Hər bir insanın özünəməxsus ömür payı, tale yolu vardır. Hər kəs öz yolu ilə addımlayır, irəliləyir, ömür payını yaşayır. Kim ki, inamlı, qətiyyətli addımlar atır, çətinliklərə sinə gərir, həyatda heç vaxt büdrəmir, yeni-yeni uğurlar qazanır.**

ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi Şixəmməd Seyidməmmədov məhz belə ömür yolu keçmiş insanlardandır.

Onun həyat yolu, elmi-pedaqoji uğurları təsdiq edir ki, ömrü, həyatı zəhmətlə, mənəvi dünyası fikirlə yaşamış insan, vətəndaş, soydaş, müəllim ... ömrüdür.

Yaşadığımız illər bizdən sonra qalacaq kitab-kitabça, məqalə və ya başqa əməllərimizdə əbədiləşir, tarixləşir. Şixəmməd müəllim haqqında yazıya elə onun həyat yoluna işıq saçmaqla başlamağı daha düzgün bildim. Axı, bəzən illərlə birlikdə çalışdığımız və ya tanıdığımız insan haqqında, onun ömür yolu barədə heç nə bilmirik. Özümüz özümüzə sual vermirik ki, biz kimik ? Haradan gəlirik, hara gedirik ? Hardan başlayıb 70 yaşı bu günlərdə tamam olmuş Şixəmməd müəllimin həyat yolu ?

Dünyaya Qubanın dilbər guşələrindən olan Qımıl kəndində göz açmış Ş.Seyidməmmədov orta təhsilini elə doğma kəndində alaraq həyat yollarına qədəm qoyub. Almaniya Demokratik Respublikasında hərbi xidmət müddətində özünü fiziki cəhətdən çətinliklərə öyrədib, möhkəmlənib, polad kimi bərkiyib. Bakı Dövlət Universitetinin "Geoloji coğrafiya fakültəsini coğrafiyaçı, coğrafiya müəllimi ixtisası üzrə bitirib.

Şixəmməd müəllimin milli təhsil quruculuğu yollarında müəllim, metodist, proqram tərtibçisi, neçə-neçə metodik vəsait müəllifi, Dağlı kənd tam orta məktəbində işlədiyi vaxt pultlaşdırılmış xəritələr hazırlayaraq coğrafiya kabinetini zənginləşdirən, bütün cihaz və alətləri özü hazırlayaraq "Coğrafiya meydançası" təşkil edən bir müəllim kimi əməyi, axtarışları əvəzsizdir. Şixəmməd Seyidməmmədov müxtəlif illərdə rayonun Küsnətqazma ümumi orta, Xaltan və Dağlı kənd tam orta məktəblərində müəllim, direktor müavini, direktoru kimi fəaliyyət göstərmiş, Quba Sənaye Pedaqoji texnikumunda, Quba Texniki Təmayüllü və Quba Özəl Türk liseylərində müəllim, Baş İxtisasartırma İnstitutunun Quba İstinad Məntəqəsinin Humanitar fənlər kabinetinin müdiri vəzifəsində işləyib.

Ş.Seyidməmmədov 1984-cü ildə RTŞ metodmərkəzində coğrafiya metodisti vəzifəsinə təyin olunub. Bu vəzifədə işlədiyi 34 il ərzində öz bacarığı, təşəbbüskarlığı, yaradıcı qabiliyyəti ilə həmişə bir addım öndə olmağa çalışıb.

Şixəmməd müəllim pedaqoji fəaliyyətlə yanaşı publisistikaya da meyl göstərib. O, respublikanın 45 - dən çox qəzet və jurnalında çap vərəqi həcmində 1500-dən çox məqalə çap etdirib ki, onların böyük əksəriyyəti təhsilin müxtəlif sahələrinə, qabaqcıl təcrübəyə, ayrı-ayrı dərsliklərin müzakirəsinə, coğrafiyanın kürikulumla tədrisinə həsr edilmiş elmi, elmi-metodik, elmi-publisistik məqalələrdir.

Ş.Seyidməmmədov ikinci, yaradıcı qrupa daxil olan metodistlərdən olmuşdur. Elmi - metodik səviyyəsini artırmağa həmişə xüsusi diqqət yetirən Şixəmməd müəllim həm pedaqoq, həm də metodist kimi respublikamızın tanınmış coğrafiyaşünas alimləri - akademik Budaq Budaqov professorlar Hadi Əliyev, Müseyib Müseyibov, Pullu Mirzəyev, Nizaməddin Allahverdiyev, Şövqü Göyçayski, Həsən Sadıqlı, dosentlər Malik Mirzəyev, Gülsabbah Hacıyeva, Yavər Əliyev Azərbaycanda coğrafiya metodikasının banisi sayılan Məmməd Zülfüqarovdan çox şey öyrənmiş, görüb - götürmüşdür. Az bir müddətdə o, onlarla müəllimin tədris sistemi ilə maraqlanmış, öyrənib ümumiləşdirmiş, pedaqoji mətbuat səhifələrində yaymağa təşəbbüs göstərmişdir. Ş.Seyidməmmədovun qabaqcıl təcrübə materiallarını əks etdirən, müxtəlif mətbu orqanlarında çap olunan yazıları, istərsə də 368 səhifəlik "Nur yolu" kitabındakı 131 oçerk özünün elmi-metodik məzmunu, publisistik üslubu ilə diqqəti cəlb edir. Şixəmməd müəllimin kitab və kitabçalarının, metodik vəsaitlərinin, məqalələrinin ad göstəriciləri aşağıdakılardır : "Açıq səma altında təbiət laboratoriyası", "Coğrafiyadan test nümunələri", "Coğrafi məsələlər", "V sinif Təbiətşünaslıq və VI-XI siniflərin coğrafiya proqramının planlaşdırılması", "Ekoloji tərbiyə günün tələbidir", "Havanın bəzi elementlərinin səbəb və xassələri", "Quba rayonun oykonimləri", "Məktəb coğrafiyasının banisi", "İbn Sinanın həyatı və fəaliyyəti", "Qubanın mineral bulaqları", "Akif müəllimin açıq dərsi", "Fəal təlim nədir? və s.



Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü "Araz" və "Qızıl qələm" media mükafatları laureatı, Qubada fəaliyyəti göstərən "Gülüstan" elmi-ədəbi məclisinin sədri, müəllim-publisist Ş.Seyidməmmədov həm də "Qəçrəş", "Nur yolu", "Ləzgi lətifələri", "Quba şəhidləri", "Qubanın təbiət abidələri" adlı publisist, "Ayının günahı" hekayələr, "Sözün işığı" kimi şeir kitablarının müəllifidir.

Sonuncu olan "44 günlük tarixi möcüzə" kitabında Azərbaycanın ərazi bütövlüyü uğrunda mərdlik və şücaət göstərmiş, müxtəlif orden və medallara layiq görülmüş, 50 nəfər qubalı şəhidin həyat və fəaliyyətindən bəhs edilir. Kitaba daxil edilmiş oçerklərdə onların mübariz döyüş yolu, hərbi keyfiyyətləri, Vətənə məhəbbəti işıqlandırılır.

ADPU-nun Quba filialının direktoru, dosent Yusif Alıyev kitaba qiymət qoyaraq "Ön söz"də yazır : Müəllif kitabı şəhid ruhlarının pıçıltısı ilə yazaraq hər bir şəhidin həyat və döyüş yolunu canlı şəkildə oxucuya çatdıra bilmişdir. ... Bu kitab yetişən gənc nəslin təlim-tərbiyəsində böyük əhəmiyyət kəsb edir".

Ş.Seyidməmmədov hazırda ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasında baş müəllim işləyir və "Azərbaycanın fiziki coğrafiyası", "Azərbaycanın iqtisadi coğrafiyası", "Dünyanın iqtisadi coğrafiyası", "Ətraf aləmlə tanışlıq və onun tədrisi metodikası" və s. fənləri tədris edir.

Şixəmməd Seyidməmmədovun müəllimliyində tələbkarlıqla qayğı üzvi bağlılıq təşkil edir. Dərsdə çox ciddi və tələbkar görünən Şixəmməd müəllim tələbələri ilə dostluq etməyi də bacarır, onlara dəyərli məsləhətlər verir, elm və həyat yollarında qaygıkeşlik edir, yol göstərir. Həmişə tələbələrin problemləri ilə maraqlanır, onlara kömək edir, oxumağa ruhlandırır, atalıq qayğısı göstərir. Odur ki, tələbələr də ona böyük hörmət göstərirlər.

Şixəmməd müəllim həm də gözəl ailə başçısıdır. Onun iki oğlu, iki qızı və 14 nəvəsi vardır. Oğlu Mayis dil-ədəbiyyat və qızı Sveta ibtidai sinif, gəlini Elnurə ingilis dili müəllimi kimi Quba rayonu, Dağlı kənd tam orta məktəbinin sayılıb - seçilən, öz zəhmətləri ilə hörmət qazanan müəllimlərindəndirlər. Oğlanları Nürəddin və Nəsir də ali təhsillidirlər. Nəvəsi Vüsal bu dərs ilində Azərbaycan Texniki Unuiversitetinin "İnformasiya texnologiyaları" fakültəsinə daxil olmuşdur.

Şairlərimiz tərəfindən Şixəmməd müəllimin şəninə 100-dən artıq şeir qələmə alınmışdır ki, bu şeirlərdə də o çox gözəl səciyyələnir. Mən də 70 yaşı bu günlərdə tamam olmuş, bu gün də gənclik həvəsi ilə yazıb yaradan və pedaqoji fəaliyyətini davam etdirən Şixəmməd Seyidməmmədova uzun, sağlam ömür və yeni-yeni uğurlar arzulamaqla yazımı onun 70 - illik yubileyinə ithat etdiyim "Şixəmməd müəllim" şeiri ilə bitirmək istəyirəm.

*Ağaran saçların ömrünə bəzək,*
*Dağlar zirvəsindən gəldi sorağın.*
*Səni sarsıtmadı hər əsən külək,*
*Nurlu ömrün oldu arxan, dayağın.*

*Yarım əsrdən çox məktəb yolları,*
*Ayağın altında basıldı sənin.*
*Neçə ürəklərin ilk arzuları,*
*Müəllim adına yazıldı sənin.*

*Nə qədər övlada sən bilik verdin,*
*Nə qədər insana bəxş etdin həyat.*
*İllərin özünə yollar göstərdin,*
*Sevincinə döndü hər şadlıq, büsat.*

*Şixəmməd müəllim, öz adın ilə,*
*Qəlblərdə əbədi izlər salansan.*
*Daha bu dünyada qocaldım demə,*
*Həyatdan min şəfəq, min nur alansan.*

**Güləddin Həmzəyev,**
**ADPU-nun Quba filailının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının müdiri, dosent**

## Fernandes niyə qalib olmaq istəmədi?



**Bu hadisə 2012-ci il, İspaniyanın Navara şəhərində keçirilən yüngül atletika üzrə yarışlarının birində baş verib. Yarışın qalibi qızıl medal qazanıb, Londonda keçiriləcək Olimpiya oyunlarında iştirak imkanı qazanacaqdı. Amma... Yarış iştirakçılarından olan keniyalı Mutai bütün oyun boyu birinci olur. Lakin o finiş xəttinə 10 metr qalmış dayanır, elə bilir ki, artıq finişi keçib. Azarkeşlərin onu xəbərdar etməsini də işə yaramır - o, onların dediyini anlamır. Bu an onun ardınca gələn ispaniyalı atlet İoan Fernandes keniyalını rahat keçib, birinci ola bilərdi. Amma o keniyalı Mutaini itələməyə başlayır. Düz finiş xəttinə kimi itələyir və Mutaini birinci edir.**

Oyundan sonra bu hərəkəti ilə hər kəsi şok edən ispaniyalı İoan Fernandesdən soruşurlar ki, sən məgər qalib olmaq istəmirdin?

24 yaşlı cavan isə cavabda bunu deyir:

- Mən çox qalib olmaq istəyirdim. Bu həyatımın ən böyük arzusu idi. Bütün ömrüm boyu Olimpiya oyunlarında iştirak etmək istəmişəm. Amma bütün oyunu keniyalı Mutai birinci idi və mənim onun səhvindən istifadə edib birinci olmağım mənəviyyatsızlıq olardı. Qızıl medalı çox istəsəm də, mənim üçün mənəviyyat, ləyaqət qızıl medaldan daha dəyərlidir.

**Qalib Əsədov**

## Məşhur cütlüyün toyu yaya qaldı: Səbəb...



**Mərhum müğənni Kayahanın qızı, 1995-ci ildə 3-cü "Miss Türkiyə" seçilən**

Bəstə Açar toy gününü başqa tarixə keçirib.

Adalet.az HaberTürk-ə istinadən xəbər verir ki, 47 yaşlı Bestə Açar sevgilisi, Zəlzələlər üzrə mütəxəssis Oksal Erevlə 2 fevral 2022-ci ildə toy edib həyata birgə atılacaqlarının anonsunu vermişdi.

Deyilən vaxtda toy baş tutmadı. Açar məsələ ilə bağlı mətbuata açıqlama verib bildirib ki, toyun tarixin özümüz seçmişdik:"Sevdiklərimizin, dostlarımızın yanımızda olmayacağı tarix seçmişik. Toyumuzu yaya təxirə saldıq" - dedi.

Qeyd edək ki, Açar 1996-1997-ci illərdə müğənni Tayfun, 2011-2019-cu illərdə isə Engin Haravonla evli olub.

**Əntiqə Rəşid**

"N" saylı hərbi hissə tərəfindən Rəhimov Asif Ziyaddin oğlunun adına verilmiş 01.10.2018-ci il tarixli MN № 0052688 saylı zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Biləsuvar rayonu, Xırmandalı kəndində yaşayan Kazımova Şərqiyyə Şirzad qızına verilmiş 4100098381 nömrəli VÖİN itdiyi üçün etibarsız hesab olunur.

Səməndər Məmmədov, Səməd Məmmədov, Musa Nəbioğlu və Sərdar Məmmədov **Süleyman və Tahir Qasımov qardaşlarına** anaları **Gülüstan xanımın** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 61
Çapa imzalanmışdır: 11.02.2022